RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 155 (10175) 28 avqust 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan regionun strateji və geoiqtisadi mərkəzinə çevrilib

## Ölkəmiz Avropa ilə Asiya arasında əməkdaşlığın inkişafına yüksək töhfə verir



Şərqlə Qərb arasında yeni iqtisadi imkanlar açan bu qlobal nəqliyyat layihələrinin geostrateji əhəmiyyətini Prezident İlham Əliyev avqustun 21-də Özbəkistanın Milli İnformasiya Agentliyinə müsahibəsində xüsusi olaraq vurğulayıb: "Əməkdaşlığımız, xüsusən də nəqliyyat və logistika sahəsində qarşılıqlı fəaliyyətimiz böyük perspektivlər vəd edir. Azərbaycanın Cənubi Qafqazda, Özbəkistanın isə Mərkəzi Asiyada mövqeyi ölkələrimizi Şərqlə Qərbi birləşdirən mühüm strateji marşrutlarda təbii tərəfdaşlara çevirir. Bu baxımdan Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin Orta dəhliz və TRIPP ilə inteqrasiyası bütün region üçün yeni iqtisadi və tranzit imkanları yaradacaq". Bütün bu layihələr və təşəbbüslər nəticəsində Mərkəzi Asiya və Cənubi Qafqaz regionları Avrasiyanın yeni iqtisadi arxitekturasında tamamilə ön plana çıxır. Əvvəllər yalnız resurs tədarükçüsü kimi baxılan bu coğrafiyalar artıq qlobal təchizat zəncirinin aparıcı qovşağına, Şərqlə Qərb arasında nəqliyyat və enerji axınlarını tənzimləyən əsas strateji mərkəzə çevrilir. Bu proses təkcə tranzit gəlirlərinin artması ilə bitmir, həm də region ölkələrində yeni sənaye zonasının formalaşmasına, birgə istehsal müəssisələrinin qurulmasına geniş zəmin yaradır.

İqtisadi və logistik tərəfdaşlığın davamı olaraq, Mərkəzi Asiya ilə Azərbaycan arasında getdikcə dərinləşən "yaşıl enerji" və rəqəmsal infrastruktura dair layihələr də gələcək mənzərəni formalaşdıran mühüm amillərdəndir. Xüsusilə Qazaxıstan, Özbəkistan və Azərbaycan arasında imzalanmış bərpaolunan enerjinin Xəzər dənizinin dibi ilə nəqlinə dair strateji razılaşmalar Mərkəzi Asiyanın ekoloji təmiz elektrik enerjisinin Cənubi Qafqaz vasitəsilə Avropaya ixracına yol açır. Eyni zamanda Xəzərin dibi ilə çəkilən optik-lifli kabel xətləri, yeni "Rəqəmsal İpək Yolu" proqramı region ölkələrinin rəqəmsal inteqrasiyasını təmin edərək Asiya ilə Avropa arasında ən qısa və yüksəksürətli məlumat ötürülməsi marşrutunu formalaşdırır. Azərbaycan Mərkəzi Asiya üçün təkcə fiziki yüklərin daşındığı nəqliyyat qovşağı deyil, həm də gələcəyin "yaşıl" və rəqəmsal texnologiyalarını Avropa ilə qovuşduran mərkəz rolunu oynayır.

6

# "Sabah" futbol klubuna maliyyə dəstəyi göstərilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. UEFA Çempionlar Liqasının liqa mərhələsinə vəsiqə qazanması ilə əlaqədar Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Sabah" futbol klubuna 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 avqust 2026-cı il*



# "Azərbaycan Respublikasına sədaqətli xidmətiniz Sizə Vətəndə və onun hüdudlarından kənarda layiqli hörmət qazandırmışdır"

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

Hörmətli Mehriban Arif qızı!

Doğum gününüz münasibətilə ən səmimi və xoş təbriklərimi qəbul edin.

Çoxillik səmərəli əməyiniz, xüsusi peşəkarlığınız və Azərbaycan Respublikasına sədaqətli xidmətiniz Sizə Vətəndə və onun hüdudlarından kənarda layiqli hörmət qazandırmışdır. Enerjiniz, insanlara diqqətiniz və yüksək mənəvi ideallara daimi sadiqliyiniz sayəsində sosial, mədəni və xeyriyyə sahələrində ictimai həmrəyliyin möhkəmləndirilməsinə və Azərbaycanın zəngin tarixi-mədəni irsinin qorunub saxlanılmasına xidmət edən genişmiqyaslı təşəbbüslər həyata keçirilir.

Rusiyada Sizin Rusiya-Azərbaycan əməkdaşlığının inkişafına, ölkələrimizin xalqları arasında ənənəvi mehriban qonşuluq münasibətlərinin möhkəmləndirilməsinə şəxsi töhfəniz yüksək qiymətləndirilir. Əminəm ki, ikitərəfli əlaqələr bundan sonra da yeni məzmunla zənginləşəcək, mühüm layihələrin həyata keçirilməsində praktiki ifadəsini tapacaq.

Əziz Mehriban xanım, aramızda isti dostluq münasibətlərinin yaranmasından çox şadam. Sizin ziyalılığınız, heyrətamiz zərifliyiniz və daxili ləyaqətiniz həmişə ən xoş təəssüratlar bəxş edən etimadlı dialoqa zəmin yaradır.

Sizə möhkəm cansağlığı, ailə səadəti, xoşbəxtlik və yeni uğurlar arzu edirəm. Qoy Sizi həmişə doğmalarınızın sevgisi və qayğısı əhatə etsin, həmkarlarınızın və dostlarınızın dəstəyi isə bütün xeyirxah təşəbbüslərinizin həyata keçirilməsinə kömək etsin.

Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Valentina MATVİYENKO,***
***Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri***



# Ənənəvi dostluq və əməkdaşlıq əlaqələri yüksələn xətt üzrə inkişaf edir

## Moldova Respublikasının Prezidenti zati-aliləri xanım Maya Sanduya

Hörmətli xanım Prezident!

Moldova Respublikasının müstəqilliyinin elan edilməsinin 35-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

Bu gün Azərbaycan-Moldova ənənəvi dostluq və əməkdaşlıq əlaqələrinin yüksələn xətt üzrə inkişafı məmnunluq doğurur.

Əminəm ki, bir-birinə dostluq telləri ilə bağlı olan xalqlarımızın iradəsinə uyğun olaraq ölkələrimiz arasındakı əlaqələrin hərtərəfli inkişafı, əməkdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar, dost Moldova xalqına daim əmin-amanlıq və rifah arzulayram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 avqust 2026-cı il*

# Müttəfiqlik ruhuna zidd davranışlar yolverilməzdir

## Rusiya rəsmiləri Azərbaycana qarşı təxribatların qarşısını almalı, qərəzli kampaniyalara imkan verməməlidirlər

Bu qəbuledilməz təxribat Azərbaycan-Rusiya münasibətlərinin süni şəkildə gərginləşdirilməsinə xidmət edir. Şübhə yox ki, baş verənlər son dövrlərdə Rusiyanın bir sıra media resurslarında ölkəmizə qarşı aparılan çirkin, qərəzli kampaniyanın tərkib hissəsidir. Rəsmi Bakı Rusiya Federasiyasının aidiyyəti qurumlarını bu təxribatçı əməllərə lazımi hüquqi qiymət verməyə, insidentin hərtərəfli araşdırılmasını təmin etməyə və bu cür halların təkrarlanmaması üçün təxirəsalınmaz



tədbirlər görməyə çağırıb. Bəyanatda həmçinin xatırladılıb ki, Rusiya tərəfi 1961-ci il Diplomatik Münasibətlər haqqında Vyana Konvensiyasına uyğun olaraq Azərbaycan Səfirliyinin və onun əməkdaşlarının təhlükəsizliyini lazımi səviyyədə təmin etməli, nümayəndəliyin normal fəaliyyətinə mane ola biləcək hər hansı təxribatçı hərəkətlərin qarşısının alınması üzrə öhdəliklərini tam şəkildə yerinə yetirməlidir.

6

# **Revanşizmin çöküşü:** Ermənistanda keçmiş rejimin qalıqları təmizlənir

Vaxtilə qonşulara qarşı ərazi iddiaları irəli sürərək regionu müharibəyə sürükləyən terrorçu ünsürlər keçmişdə törətdikləri əməllərə və cinayətlərə görə qanun qarşısında cavab verirlər. Hökumət artıq şifahi bəyanatlarla kifayətlənmir, birbaşa hüquq-mühafizə mexanizmlərini işə salaraq köhnə rejimin qalıqlarını silməyə çalışır.

Revanşizmə vurulan ağır zərbənin bariz nümunəsi Ermənistan Baş Prokurorluğunun və Antikorrupsiya Komitəsinin ölkənin keçmiş prezidenti, müharibə canisi Robert Koçaryana və onun yaxın



çevrəsinə qarşı genişmiqyaslı cinayət işləri başlatmasıdır. Sabiq prezident vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, xüsusilə külli miqdarda rüşvət alma və çirkli pulların yuyulması kimi ağır maddələrlə ittiham olunur. Bu müstəvidə Ermənistanın Korrupsiyaya Qarşı Mübarizə Məhkəməsi sabiq prezident haqqında iki ay müddətinə həbs qətimkan tədbiri seçib. İstintaqın versiyasına görə, o, ölkə prezidenti olduğu dövrdə qulluq mövqeyindən sui-istifadə edərək başqa şəxslərlə əlbir olub ictimai və iqtisadi əhəmiyyətli bir sıra obyektləri bazar qiymətindən aşağı qiymətə əldə edib.

7

# Balıqçılıq haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 11-ci və 13-cü bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasında balıqçılığın, o cümlədən balıq və digər su bioresurslarının ovunun və akvakulturanın təşkilinin, idarə edilməsinin, balıq və digər su bioresurslarının artırılmasının, istifadəsinin və mühafizəsinin hüquqi əsaslarını müəyyən edir.

### 1-ci fəsil
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. **akvakultura -** balıqçılıq su obyektlərində balıq və digər su bioresurslarının yetişdirilməsi və saxlanılması üzrə fəaliyyət;

1.1.2. **balıq məhsulu -** balıq və digər su bioresurslarından əldə olunmuş, emal edilmiş və istehlaka yönəldilən məhsul;

1.1.3. **balıq ovu -** akvakultura məqsədilə istifadə edilən balıqçılıq su obyektləri istisna olmaqla, balıqçılıq su obyektlərində bu Qanunun 6.2-ci maddəsinə əsasən müəyyən edilmiş qaydalara uyğun olaraq balıq və digər su bioresurslarının sənaye, idman və həvəskar ovu, akvakultura, elmi tədqiqat, təhsil, maarifləndirmə və nəzarət, habelə iqlimləşdirilmə məqsədləri ilə tutulması;

1.1.4. **balıq ovu alətləri -** balıq ovunu həyata keçirmək üçün istifadə edilən avadanlıq, o cümlədən torlar, nevodlar, venterlər, domca, tral və başqa ov vasitələri;

1.1.5. **balıq ovu üçün kvota -** balıq və digər su bioresurslarının ovuna yol verilən maksimum həcm;

1.1.6. **balıq və digər su bioresursları -** balıqçılıq su obyektlərində məskunlaşan balıqlar və onların kürüləri, habelə digər su heyvanları və bitkiləri və onların reproduktiv (çoxalma) materialları;

1.1.7. **balıq və digər su bioresurslarının iqlimləşdirilməsi -** balıq və digər su bioresurslarının onların mövcud olmadığı balıqçılıq su obyektinə köçürülməsi və həmin mühitə uyğunlaşdırılması məqsədilə həyata keçirilən tədbirlər;

1.1.8. **balıqartırma -** balıq və digər su bioresurslarının çoxaldılması, bərpası və ovunun tənzimlənməsi məqsədilə akvakultura yolu ilə yetişdirilmiş və ya iqlimləşdirilmə yolu ilə əldə edilmiş balıq və digər su bioresurslarının balıqçılıq su obyektlərinə buraxılması üzrə fəaliyyət;

1.1.9. **balıqçı gəmisi -** izləmə qurğuları ilə təchiz edilmiş, tor, tral və digər balıq ovu alətləri ilə balıq və digər su bioresurslarının ovunu və daşınmasını həyata keçirən gəmi və ya qayıq;

1.1.10. **balıqçılıq -** balıqçılıq su obyektlərində balıq və digər su bioresurslarının akvakulturası, ovu, artırılması, mühafizəsi, emalı və dövriyyəsi ilə bağlı fəaliyyətin məcmusu;

1.1.11. **balıqçılıq infrastrukturu -** balıqçılığın həyata keçirilməsi üçün zəruri əmlak kompleksləri, o cümlədən binalar, tikililər, qurğular, vətəgə sahələri üzərində tikilmiş və ya quraşdırılmış obyektlər və qurğular;

1.1.12. **balıqçılıq obyektləri -** iqtisadi əhəmiyyətli və (və ya) mühafizə olunan balıq və digər su bioresursları, onların məhsulları;

1.1.13. **balıqçılıq su obyektləri -** balıq və digər su bioresurslarının məskunlaşdığı və (və ya) onların akvakulturası, artırılması, ovu və mühafizəsi üçün istifadə edilən bu Qanunun 12-ci maddəsində nəzərdə tutulan su obyektləri;

1.1.14. **balıqçılıq su obyektlərinin meliorasiyası -** balıq və digər su bioresurslarının məhsuldarlığının artırılması məqsədilə balıqçılıq su obyektlərinin çirklənməsinin, zibillənməsinin və lillənməsinin qarşısının alınmasına, sərt gövdəli su bitkilərindən təmizlənməsinə, suların aerasiyası (suyun oksigenlə zənginləşdirilməsi), habelə balıq və digər su bioresurslarının məskunlaşdığı, qidalandığı, nəsil artırdığı, yetişdiyi və çoxaldığı şəraitin təbii mühitə uyğunlaşdırılmasına yönələn fəaliyyət;

1.1.15. **balıqçılıq subyektləri -** balıqçılıq sahəsində fəaliyyət göstərən fiziki və ya hüquqi şəxslər, bələdiyyələr və dövlət orqanları (qurumları);

1.1.16. **balıqmühafizə -** balıq və digər su bioresurslarının, o cümlədən nadir və nəsli kəsilməkdə olan növlərin mühafizəsi, onların ovunun tənzimlənməsi və balıqçılıq su obyektlərinin meliorasiyası işlərinin təşkili ilə bağlı tədbirlər sistemi;

1.1.17. **balıqyetişdirmə -** balıq və digər su bioresurslarının damazlıq materiallarından çoxalma və ilkin inkişaf mərhələsində olan canlı formalarının (kürü, sürfə, körpə və digər erkən inkişaf mərhələləri) əldə edilməsi, inkubasiyası və bəslənilməsi;

1.1.18. **göl və dəniz qəfəsləri -** balıq və digər su bioresurslarının açıq və ya yarıaçıq su məkanlarında saxlanması və yetişdirilməsi məqsədilə quraşdırılan metal, taxta, plastik və ya digər materiallardan hazırlanmış qurğu;

1.1.19. **vətəgə sahəsi -** balıq və digər su bioresurslarının sənaye ovu üçün ayrılmış balıqçılıq su obyektlərinin sahili boyu balıqçı gəmilərinə xidmət göstərilməsi, balıq ovu alətlərinin təmiri və qurulması, habelə istirahət, balıq satışı və istehsalat təyinatlı bina və tikililərin yerləşdirilməsi məqsədilə balıqçı gəmilərinin yan alması və manevr etməsi üçün kifayət qədər su sahəsinə (akvatoriyaya) malik olan, dalğaqıranlarla mühafizə olunan su qanunvericiliyində müəyyən edilmiş qaydada ayrılan ərazi.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**Maddə 2. Balıqçılıq haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

2.1. Balıqçılıq haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan, Azərbaycan Respublikasının Su Məcəlləsindən, "Qida təhlükəsizliyi haqqında", "Heyvanlar aləmi haqqında", "Damazlıq heyvandarlıq haqqında", "Baytarlıq haqqında", "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının qanunlarından və digər normativ hüquqi aktlardan ibarətdir.

2.2. Balıqçılığın təşkili, balıq və digər su bioresurslarının artırılması, istifadəsi və mühafizəsi ilə əlaqədar yaranan su, torpaq, əmlak, ətraf mühitin mühafizəsi, balıq məhsulunun minimum keyfiyyətinin və təhlükəsizliyinin idarə olunması və digər münasibətlər bu Qanunun tələbləri nəzərə alınmaqla Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə tənzimlənir.

2.3. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində balıqçılığın təşkili, balıq və digər su bioresurslarının artırılması, istifadəsi və mühafizəsi bu Qanunla, habelə Azərbaycan Respublikasının su qanunvericiliyi, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə və digər beynəlxalq hüquq normaları ilə tənzimlənir.

2.4. Sərhəd su obyektlərində balıqçılığın təşkili, balıq və digər su bioresurslarının artırılması, istifadəsi və mühafizəsi su və dövlət sərhədi haqqında Azərbaycan Respublikasının normativ hüquqi aktları, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr nəzərə alınmaqla bu Qanunla tənzimlənir.

2.5. Ələt azad iqtisadi zonasında balıqçılıq sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

### 2-ci fəsil
### BALIQÇILIQ SAHƏSİNDƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİ VƏ NƏZARƏTİ

**Maddə 3. Balıqçılıq sahəsində dövlət siyasətinin əsas prinsipləri**

3.1. Balıqçılıq sahəsində dövlət siyasəti aşağıdakı əsas prinsiplərə əsaslanır:

3.1.1. balıqçılıq sahəsində məhsuldarlığın artırılması və ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə dayanıqlı istehsal metodlarının və innovativ texnologiyaların təşviqi;

3.1.2. daxili bazar tələbatının ödənilməsi və ixrac potensialının artırılması məqsədilə yerli istehsalın stimullaşdırılması;

3.1.3. elmi tədqiqatların və təlim proqramlarının dəstəklənməsi yolu ilə balıqçılıq sahəsində ixtisaslı kadr potensialının formalaşdırılması;

3.1.4. akvakulturanın dayanıqlı inkişafı məqsədilə ekoloji, iqtisadi və sosial maraqların elmi cəhətdən əsaslandırılmış uyğunluğunun təmin edilməsi;

3.1.5. balıq və digər su bioresursları ehtiyatının tükənməsinin qarşısının alınması;

3.1.6. bu Qanunla müəyyən edilən hallar istisna olmaqla, balıq və digər su bioresurslarının ovunun ödənişli olması;

3.1.7. balıq ovu üçün kvota müəyyən edilərkən ekoloji, sosial, iqtisadi amillərin nəzərə alınması;

3.1.8. balıq və digər su bioresurslarının qiymətli növlərinin xüsusi mühafizə rejiminin müəyyən edilməsi, onların ovunun dayandırılması və ya qadağan edilməsi;

3.1.9. balıqçılıq və akvakultura sahəsində idarəetmənin rəqəmsallaşdırılması;

3.1.10. balıqçılıq fəaliyyəti zamanı balıq və digər su bioresurslarının təbii davranışlarının qorunmasının, onların ağrı və stresin minimuma endirildiyi şəraitdə saxlanılmasının və daşınmasının təmin edilməsi;

3.1.11. transsərhəd su hövzələrində balıq və digər su bioresurslarının ehtiyatlarının birgə idarə olunması;

3.1.12. regional və beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində öhdəliklərin yerinə yetirilməsi.

**Maddə 4. Balıqçılıq sahəsində dövlətin vəzifələri**

4.1. Balıqçılıq sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

4.1.1. balıqçılıq sahəsində dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların və bu kimi digər sənədlərin hazırlanması və həyata keçirilməsi;

4.1.2. balıqçılıq sahəsində normativ hüquqi bazanın formalaşdırılması və təkmilləşdirilməsi;

4.1.3. balıqçılıq sahəsində dövlət nəzarətinin həyata keçirilməsi;

4.1.4. balıqmühafizə tədbirlərinin həyata keçirilməsi;

4.1.5. balıqartırma işlərinin təşkili;

4.1.6. istifadəyə və ya icarəyə verilməmiş dövlət mülkiyyətində olan balıqçılıq su obyektlərində meliorasiya fəaliyyətinin həyata keçirilməsi;

4.1.7. Azərbaycan Respublikasının Qırmızı Kitabına daxil edilmiş balıq və digər su bioresurslarının mühafizəsinin təşkili;

4.1.8. balıqçılıq sahəsində araşdırma və elmi tədqiqatların həyata keçirilməsi;

4.1.9. balıqçılıq sahəsində dövlət dəstək tədbirlərinin göstərilməsi;

4.1.10. balıqçılıq sahəsi ilə bağlı maarifləndirmə tədbirlərinin təşkili;

4.1.11. balıqçılıq sahəsində hüquqpozmaların qarşısınınalınması və aradan qaldırılması;

4.1.12. balıqçılıq su obyektlərinin mühafizəsi məqsədilə ətraf mühitə mümkün mənfi təsirlərin qarşısının alınması üzrə tədbirlərin həyata keçirilməsi;

4.1.13. balıqçılıq sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi.

**Maddə 5. Balıqçılıq sahəsində dövlət nəzarəti**

5.1. Balıqçılıq sahəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilən dövlət nəzarəti tədbirləri aşağıdakılardır:

5.1.1. balıq və digər su bioresurslarının ovuna nəzarət etmək;

5.1.2. balıqçı gəmilərini, habelə qanunsuz balıq ovu ilə məşğul olan gəmiləri saxlamaq, onları təyin olunmuş yerə istiqamətləndirmək,"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq onlara maneəsiz daxil olmaq, eləcə də həmin gəmilərin, habelə balıq və digər su bioresurslarının daşınmasında istifadə olunan digər nəqliyyat vasitələrinin, balıqovlama biletlərinin, balıqovu alətlərinin və əldə edilmiş balıqçılıq məhsullarının yoxlanılmasını həyata keçirmək;

5.1.3. ovlanmış balıqçılıq obyektlərinin balıq ovu üçün kvotaya uyğunluğunu yoxlamaq;

5.1.4. ixtisaslaşdırılmış bazarlarda ticarət dövriyyəsinə daxil edilməsi üçün balıq və digər su bioresurslarının mənşəyi, cinsi, növü, miqdarı, ölçüləri və çəkisi barədə məlumatları əks etdirən müşayiətedici sənədin mövcudluğunu və faktiki vəziyyətin həmin məlumatlarla uyğunluğunu yoxlamaq;

5.1.5. balıq və digər su bioresurslarının dayanıqlı ovunun təmini məqsədilə balıqçılıq subyektləri tərəfindən istifadə edilən balıqçılıq infrastrukturu, balıq ovu alətləri və balıqçı gəmiləri ilə bağlı texniki tələbləri müəyyənləşdirmək, uçotunu və izlənməsini (o cümlədən məsafədən izləmə sistemləri vasitəsilə) həyata keçirmək və bununla bağlı nəzarət tədbirləri görmək;

5.1.6. müqavilə əsasında istifadəyə və ya icarəyə verilmiş dövlət mülkiyyətində olan balıqçılıq su obyektlərində balıqçılıq subyektləri tərəfindən həyata keçirilən meliorasiya fəaliyyətinə nəzarət etmək;

5.1.7. balıq və digər su bioresurslarının iqlimləşdirilməsinə və yeni növlərinin balıqçılıq su obyektlərinə buraxılmasına nəzarət etmək;

5.1.8. kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti (dənizdən introduksiya, ixrac, təkrar ixrac və idxal) üçün icazənin (sertifikatın) verilməsini təmin etmək;

5.1.9. balıq və digər su bioresurslarının ticarət dövriyyəsinə daxil edilməsi üçün satılan məhsulun minimum keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə əməl olunmasına nəzarət etmək;

5.1.10. akvakultura təsərrüfatlarına daxil olmaq və onların bu Qanunun 8.2-ci maddəsində nəzərdə tutulan Biotexnoloji Layihə Sənədinə uyğunluğunu, habelə həmin təsərrüfatlarda balıqçılıq haqqında qanunvericiliyə əməl etməsini yoxlamaq;

5.1.11. akvakultura təsərrüfatlarında balıqçılıq obyektləri istehsalının uçotunu aparmaq və izlənmə sisteminin qurulmasını təmin etmək;

5.1.12. akvakultura təsərrüfatlarında nohurların qurudulması, doldurulması, formasının dəyişdirilməsi, qum və digər torpaq resurslarının götürülməsi ilə bağlı nəzarət tədbirlərini həyata keçirmək;

5.1.13. ətraf mühit amillərinin, o cümlədən istifadə edilən suyun keyfiyyətinin balıqçılığa və akvakultura fəaliyyətinə təsiri ilə bağlı monitorinq həyata keçirmək;

5.1.14. balıqların kürütökmə yerlərində bəndin çəkilməsinə və dağılmış bəndlərin bərpa edilməsinə razılıq vermək;

5.1.15. balıqçılıq su obyektləri üzərində inşa edilmiş su təsərrüfatı obyektlərinin istifadəyə verilməsinə razılıq vermək;

5.1.16. sanitariya, hidrotexniki və meliorasiya tədbirlərinin görülməsi məqsədilə çaylarda, çay qollarında və kanallarda qalaqlar yaradılmasına və ya su axınının qarşısının kəsilməsinə, su anbarlarından, göllərdən və limanlardan suyun buraxılmasına razılıq vermək;

5.1.17. balıq və digər su bioresurslarının təbii artımının təmini məqsədilə təbii balıqçılıq su obyektlərində süni riflər və digər balıqartırma tikililərinin qurulması ilə bağlı tələblər müəyyənləşdirmək;

5.1.18. balıqçılıq subyektlərinə normativ hüquqi aktların tələblərinin pozulması hallarının aradan qaldırılması barədə icrası məcburi olan göstərişlər vermək.

5.2. Balıqçılıq sahəsində dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçiləri nəzarət tədbirlərinin həyata keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən xüsusi geyim, fərqlənmə nişanları, xüsusi vasitələr, xidməti silah və onlar üçün sursatlar ilə, nəqliyyat vasitələri isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanı (qurum) tərəfindən müəyyən edilən fərqlənmə nişanları ilə təmin olunurlar.

5.3. Balıqçılıq sahəsində dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən vəzifəli şəxsləri qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada fiziki qüvvə, xüsusi vasitələr və xidməti silah tətbiq edə bilərlər.

5.4. Balıqçılıq sahəsində dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına aid bölməsində və daxili su hövzələrində balıqçılıq sahəsində mühafizə və dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə gəmiləri, minik avtomobillərini və digər nəqliyyat vasitələrini satın almaq, icarəyə (kirayəyə) və əvəzsiz istifadəyə götürmək hüququna malikdir.

5.5. Sahibkarlara münasibətdə balıqçılıq sahəsində dövlət nəzarəti "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.

5.6. Balıqçılıq subyektləri və obyektləri, habelə balıqçılıq infrastrukturu, balıq ovu alətləri, balıqçı gəmiləri barədə və balıqçılıq sahəsində idarəetmənin və nəzarətin həyata keçirilməsi üçün zəruri olan digər məlumatlar, "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində toplanır.

5.7. Balıqçılıq su obyektləri, o cümlədən vətəgə sahələri barədə məlumat daşınmaz əmlakın dövlət kadastrı və daşınmaz əmlakın dövlət reyestri məlumatlarının tamlığının təmin edilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə, bu Qanunun 11.1.9-cu maddəsində nəzərdə tutulmuş məlumatlar balıqçılıq haqqında qanunvericiliyin tələblərinə zidd olaraq əldə edilmiş balıqçılıq obyektlərinin ticarət dövriyyəsinə daxil olmasının qarşısının alınması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.

### 3-cü fəsil
### BALIQ OVU, AKVAKULTURASI VƏ TİCARƏT DÖVRİYYƏSİ

**Maddə 6. Balıq ovu**

6.1. Balıq ovu aşağıdakı məqsədlər üçün həyata keçirilir:

6.1.1. sənaye ovu;

6.1.2. idman və həvəskar ov;

6.1.3. akvakultura üçün ov;

6.1.4. elmi tədqiqat, təhsil, maarifləndirmə və nəzarət üçün ov;

6.1.5. iqlimləşdirilmə üçün ov.

6.2. Balıq ovunun həyata keçirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

6.3. Xüsusi mühafizə olunan təbiət ərazilərində balıq ovu "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

6.4. Balıq ovunda siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən qadağan olunmuş ov alətlərindən, istənilən növ partlayıcı, öldürücü və uyuşdurucu maddələrdən, eyni zamanda elektrikli və elektroşok cihazlardan istifadəyə yol verilmir.

6.5. Balıq və digər su bioresurslarının iqlimləşdirilmə, elmi tədqiqat, təhsil, maarifləndirmə və nəzarət məqsədilə ovu istisna olmaqla, balıq ovu ödənişlidir.

6.6. Azərbaycan Respublikasının Qırmızı Kitabına daxil edilmiş balıq və digər su bioresurslarının ovuna yalnız bu Qanunun 6.2-ci maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq icazə verilir.

6.7. Balıqovu forması və verilmə qaydası bu Qanunun 6.2-ci maddəsində nəzərdə tutulmuş qaydada müəyyən edilən balıqovlama bileti əsasında həyata keçirilir.

6.8. Balıqovlama bileti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilir. Balıqovlama biletinin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.

6.9. Ovu nəzərdə tutulan balıq və digər su bioresurslarının növləri bu Qanunun 6.2-ci maddəsində nəzərdə tutulmuş qaydaya əsasən müəyyən edilir.

6.10. Balıq ovu üçün kvota müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurum) razılaşdırmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

6.11. Balıq ovu üçün kvotaların balıqçılıq subyektləri arasında bölünmə qaydası bu Qanunun 6.2-ci maddəsində nəzərdə tutulmuş qaydaya əsasən müəyyən edilir.

6.12. Balıqovlama biletinin dayandırılması, bərpa edilməsi və ləğvi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

**Maddə 7. Vətəgə sahələri**

7.1. Balıq və digər su bioresurslarının sənaye ovu ilə məşğul olan balıqçılıq subyektlərinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vətəgə sahələri ayrılır.

7.2. Vətəgə sahələri üzərində müvafiq obyektlər və qurğular Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırmaqla tikilir.

7.3. Vətəgə sahələrindən istifadə edən fiziki və hüquqi şəxslər vətəgələri çirklənmədən vəzibillənmədən qorumalı, habelə normativ hüquqi aktlarla müəyyən edilmiş sanitariya qaydalarına və normalarına riayət etməlidirlər.

**Maddə 8. Akvakultura**

8.1. Balıqçılıq su obyektlərində akvakultura fəaliyyəti "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq verilən akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsi əsasında həyata keçirilir. Akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur. Akvakulturanın həyata keçirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

8.2. Balıqçılıq su obyektlərində akvakultura fəaliyyətinin həyata keçirilməsi üçün qeydiyyat şəhadətnaməsinin əldə edilməsi məqsədilə balıqçılıq subyektlərindən nümunəvi forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən Biotexnoloji Layihə Sənədinin hazırlanması tələb olunur. Biotexnoloji Layihə Sənədinin ekspertizasının həyata keçirilməsi üçün məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən xidmət haqqı tutulur.

8.3. Akvakultura növlərinin, obyektlərinin, təsərrüfatlarının, infrastrukturunun və akvakulturanın həyata keçirilməsi üçün istifadə olunan xüsusi qurğuların və texnologiyaların təsnifatı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən bu Qanunun 8.1-ci maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilir.

8.4. Akvakultura təsərrüfatlarında elmi tədqiqat məqsədləri istisna olmaqla, genetik modifikasiya olunmuş və toksik balıq və digər su bioresurslarının yetişdirilməsinə və istifadəsinə yol verilmir.

8.5. Akvakultura təsərrüfatları tərəfindən bu Qanunun 8.1-ci maddəsinin tələblərinin pozulduğu və ya akvakultura sahəsində texniki normativ hüquqi aktlara riayət edilmədiyi aşkar olunduqda, habelə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) qeydiyyat şəhadətnaməsini həmin pozuntular aradan qaldırılanadək, lakin 90 (doxsan) gündən çox olmayan müddətə dayandırır.

8.6. Akvakultura təsərrüfatları "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 25.1.1-ci maddəsində göstərilən hal istisna olmaqla, qeydiyyat şəhadətnaməsinin dayandırıldığı müddət bitənədək dayandırılmaya səbəb olan halları aradan qaldırmalı və nəticəsi barədə 3 (üç) iş günü müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) yazılı məlumat verməlidir.

8.7. Qeydiyyat şəhadətnaməsinin dayandırılmasına səbəb olan hallar aradan qalxdıqda qeydiyyat şəhadətnaməsi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 25.5-ci maddəsinə uyğun olaraq bərpa olunur.

8.8. Qeydiyyat şəhadətnaməsinin dayandırıldığı müddətdə aşkar olunmuş pozuntular akvakultura təsərrüfatı tərəfindən aradan qaldırılmadıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) onu ləğv edir.

**Maddə 9. Balıqçılıq obyektlərinin ticarət dövriyyəsinə daxil edilməsi**

9.1. Balıqçılıq, qida təhlükəsizliyi və damazlıq heyvandarlıq sahələri üzrə normativ hüquqi aktların tələblərinə cavab verən balıqçılıq obyektləri ticarət dövriyyəsinə daxil edilə bilər.

9.2. Balıq məhsulları "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə uyğun olaraq qablaşdırılır və etiketlənir.

9.3. Balıqçılıq obyektləri ticarət dövriyyəsinə daxil edilən zaman "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq baytarlıq sənədləri ilə müşayiət edilir.

9.4. Balıqçılıq haqqında qanunvericiliyin tələblərinə zidd olaraq əldə edilmiş balıqçılıq obyektlərinin ticarət dövriyyəsinə daxil edilməsinə yol verilmir.

9.5. Ticarət dövriyyəsinə daxil edilmiş balıqçılıq obyektlərinin satışı "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qida Təhlükəsizliyi Reyestrinə daxil edilmiş kənd təsərrüfatı məhsullarının satış yerlərində, o cümlədən müvafiq avadanlıqlarla təchiz edilmiş bazar, yarmarka, mağaza və xüsusi ayrılmış digər yerlərdə həyata keçirilir.

9.6. İxtisaslaşmış bazarların təşkili üçün torpaq sahələrinin ayrılması "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq həyata keçirilir.

9.7. İxtisaslaşmış bazarların yerləşmə sxemi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

9.8. Balıq və digər su bioresurslarının, balıq körpələrinin və inkubasiya edilən kürülərin idxalı və ixracımüvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyi nəzərə alınmaqla həyata keçirilir.

9.9. Ölkə ərazisinə idxal edilən və ölkə ərazisindən ixrac edilən törədici balıq və digər su bioresurslarının, balıq körpələrinin və inkubasiya edilən kürülərin damazlıq xüsusiyyətləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

### 4-cü fəsil
### BALIQÇILIQ SUBYEKTLƏRİNİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

**Maddə 10. Balıqçılıq subyektlərinin hüquqları**

10.1. Balıqçılıq subyektləri aşağıdakı hüquqlara malikdirlər:

*Ardı 3-cü səh.*

# Balıqçılıq haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 2-ci səh.*

10.1.1. normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada ovlanmış və akvakultura fəaliyyətindən əldə edilmiş məhsullara sahiblik, istifadə və sərəncam hüquqlarını sərbəst həyata keçirmək;

10.1.2. balıqovlama biletini əldə etmək;

10.1.3. normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada vətəgə sahələrindən istifadəni həyata keçirmək;

10.1.4. mülkiyyətlərində, istifadəsində və (və ya) icarəsində olan balıqçılıq su obyektlərindən və torpaqdan akvakultura üçün istifadə etmək;

10.1.5. normativ hüquqi aktlarla qadağan edilməyən balıqçılıq sahəsində mövcud olan həmkarlar ittifaqlarında və digər birliklərdə iştirak etmək;

10.1.6. normativ hüquqi aktlarda nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

**Maddə 11. Balıqçılıq subyektlərinin vəzifələri**

11.1. Balıqçılıq subyektlərinin vəzifələri aşağıdakılardır:

11.1.1. balıqçılıq sahəsini tənzimləyən normativ hüquqi aktlara əməl etmək;

11.1.2. balıq və digər su bioresurslarından balıqovlama biletində, Biotexnoloji Layihə Sənədində göstərilən müddətlər, ölçülər və növlər üzrə istifadə etmək;

11.1.3. balıq ovu ilə məşğul olmaq üçün istifadə etdiyi balıqçı gəmiləri və balıqovu alətləri barədə məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə daxil etmək;

11.1.4. balıqçı gəmilərində normativ hüquqi aktlarla müəyyən edilmiş texniki nəzarət vasitələrini (gəmilərin avtomatik identifikasiya sistemi, gəmilərin peyk əsaslı izləmə sistemi, naviqasiya və digər texniki vasitələri) quraşdırmaq və işlək vəziyyətdə saxlamaq;

11.1.5. qanunla müəyyən edilmiş hallarda və qaydada yoxlama və nəzarət tədbirlərini həyata keçirən vəzifəli şəxslərin qanuni tələblərinə əməl etmək, balıqçılıq sahəsində nəzarətin həyata keçirilməsi üçün şərait yaratmaq;

11.1.6. balıq və digər su bioresurslarının məskunlaşdığı təbii şəraitə mənfi təsir göstərə bilən (invaziv) yeni balıq və digər su bioresurslarının iqlimləşdirilməsinə yol verməmək;

11.1.7. balıqçılıq su obyektlərində balıq və digər su bioresurslarının məhsuldarlığının artırılmasına yönəlmiş meliorasiya işləri aparmaq;

11.1.8. balıqçılıq su obyektlərində suyun keyfiyyətinin pisləşməsinə yol verməmək;

11.1.9. balıqçılıq obyektlərinin növünü, həcmini və s. əks etdirən məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə daxil etmək;

11.1.10. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tələbi əsasında qida zənciri obyektinin (subyektinin) qeydiyyata alınmasına və ya təsdiq olunmasına dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarışı, idxal olunmuş məhsullara dair idxal sağlamlıq aktını təqdim etmək;

11.1.11. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) balıqçılıq sahəsində dövlət nəzarətinin həyata keçirilməsi ilə bağlı verdiyi yazılı göstərişlərinə əməl etmək;

11.1.12. balıqçılıq fəaliyyəti üzrə sanitariya, baytarlıq, fitosanitar və karantin qaydalarına riayət etmək;

11.1.13. Biotexnoloji Layihə Sənədində nəzərdə tutulmayan balıq və digər su bioresursları növlərindən və qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğun olmayan yem məhsullarından istifadə etməmək;

11.1.14. bu Qanunun 6.4-cü maddəsi ilə qadağan edilən balıq ovu alətlərindən, balıqçı gəmilərindən və digər vasitələrdən istifadə etməmək;

11.1.15. uçot vəhesabat işləri aparmaq və aidiyyəti orqanlara məlumat vermək;

11.1.16. normativ hüquqi aktlarda nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

11.2. Balıq ovu ilə məşğul olmaq üçün istifadə olunan balıqçı gəmilərinin və balıqovu alətlərinin qeydiyyatı qaydası, habelə balıqçı gəmilərində quraşdırılan texniki nəzarət vasitələrinin siyahısı və onlara dair tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

### 5-ci fəsil
### BALIQARTIRMA VƏ BALIQ VƏ DİGƏR SU BİORESURSLARININ MƏSKUNLAŞDIĞI MÜHİTİN MÜHAFİZƏSİ

**Maddə 12. Balıqçılıq su obyektləri**

12.1. Balıq və digər su bioresurslarının məskunlaşması, artırılması, akvakulturası, ovu və mühafizəsi üçün istifadə edilən aşağıdakı su hövzələri balıqçılıq su obyektləridir:

12.1.1. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi;

12.1.2. çaylar, göllər, su anbarları, su təchizatı kanalları və digər yerüstü su axınları, sututarlar, balıq və digər su bioresursları üçün süni yaradılmış məskunlaşma şəraiti;

12.1.3. dövlətlərarası sərhədi müəyyən edən və ya sərhədi kəsib keçən, yaxud üzərindən Azərbaycan Respublikasının dövlət sərhədi keçən yerüstü su obyektləri;

12.1.4. su təchizatı sistemi olan sənaye qurğuları, göl və dəniz qəfəsləri, balıq yetişdirməyə uyğunlaşdırılmış digər yerlər.

12.2. Su obyektlərinin balıqçılıq ehtiyatları üçün istifadəyə verilməsi Azərbaycan Respublikasının su qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

**Maddə 13. Balıqartırma və balıq və digər su bioresurslarının iqlimləşdirilməsi**

13.1. Balıqartırma və balıq və digər su bioresurslarının iqlimləşdirilməsi elmi tədqiqat işləri aparıldıqdan sonra həyata keçirilir.

13.2. Balıqartırmaya və balıq və digər su bioresurslarının iqlimləşdirilməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

13.3. Azərbaycan Respublikasının Qırmızı Kitabınadaxil edilmiş, habelənərəcinsli vədigər qiymətli balıq növlərinin artırılması müvafiq elmi tədqiqat müəssisələrinin alimlərinin və yüksəkixtisaslı mütəxəssislərin nəzarəti altında həyata keçirilir. Bu fəaliyyətə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada strateji ekoloji qiymətləndirilmə (SEQ) sənədi hazırlanır və həmin sənədin dövlət ekoloji ekspertizası həyata keçirilir.

13.4. Balıq və digər su bioresurslarının iqlimləşdirilməsindən əvvəl iqlimləşdirilən növlərin bioloji xüsusiyyətlərini, balıqçılıq su obyektinin balıq qəbulu tutumunu və iqlimləşdirilmənin iqtisadi səmərəsini əks etdirən göstəricilər Biotexnoloji Layihə Sənədinə daxil edilir.

13.5. Balıq və digər su bioresursları genofondunun mühafizəsi məqsədilə balıqçılıq su obyektlərinə balıq və digər su bioresurslarının yeni növlərinin və hibrid formalarının buraxılması yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilə bilər.

13.6. Balıqartırma və balıq və digər su bioresurslarının iqlimləşdirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydaya və qəbul etdiyi texniki normativ hüquqi aktlara uyğun olaraq həyata keçirilir.

13.7. Balıqvə digər su bioresurslarının məskunlaşdığı təbii şəraitə mənfi təsir göstərə bilən (invaziv) balıq və digər su bioresurslarının su obyektlərinə buraxılmasına və yayılmasına yol verilmir.

**Maddə 14. Balıq və digər su bioresurslarının məskunlaşdığı mühitin mühafizəsinə dair tələblər**

14.1. Balıq və digər su bioresurslarına və onların məskunlaşdığı mühitə, balıqçılıq su obyektlərinə və vətəgələrə zərərli təsir (ərazilərin doldurulması, qurudulması, qismən və ya tam şəkildə formasının dəyişdirilməsi, yaxud bu ərazilərdən qum, çınqıl, daş çıxarılması, daş, torpaq, tikinti tullantıları və digər oxşar materialların tökülməsi və istehsala mənfi təsir göstərə biləcək fəaliyyətlər) göstərə bilən müəssisələrin, qurğuların, tikililərin və digər obyektlərin layihələndirilməsi, yerləşdirilməsi, tikintisi, yenidən qurulması və istifadəsini həyata keçirən fiziki və hüquqi şəxslər balıq və digər su bioresurslarının mühafizəsi, artırılması, yerdəyişməsi və dayanıqlığının təmin edilməsi üçün əlverişli şərait yaratmalı, onların məskunlaşma və nəsilartırma mühitinin toxunulmazlığını təmin etməlidirlər.

14.2. Balıq və digər su bioresurslarının, o cümlədən nadir və nəsli kəsilməkdə olan növlərin artırılması və mühafizəsi məqsədləri üçün mühüm balıqçılıq su obyektlərində və ya onların ayrı-ayrı hissələrində su istifadəçilərinin hüquqları balıqçılığın inkişafının təmin edilməsi məqsədilə məhdudlaşdırıla bilər. Mühüm balıqçılıq su obyektlərinin siyahısı və sudan istifadənin məhdudlaşdırılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

14.3. Bu Qanunun 14.1-ci maddəsində göstərilən fəaliyyətlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə həyata keçirilir.

**Maddə 15. Balıqçılıq su obyektlərinin meliorasiyası**

15.1. Balıqçılıq su obyektlərinin meliorasiyası balıqçılıq su obyektlərinin fiziki, kimyəvi, bioloji xüsusiyyətlərinin və rejimlərinin optimallaşdırılması, balıq və digər su bioresursları üçün əlverişli şəraiti təmin edən digər tədbirlər vasitəsilə həyata keçirilir.

15.2. Balıq və digər su bioresurslarının yaşayış mühitinin, təbii miqrasiya yollarının, kürütökmə və qışlama sahələrinin qorunması məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi qadağan edilir:

15.2.1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı olmadan balıqların və digər su bioresurslarının hərəkət və kürütökmə yerlərində onların təbii keçidinə maneə olan bəndlər çəkmək və dağılmış bəndləri bərpa etmək;

15.2.2. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə sanitariya, hidrotexniki və meliorasiya tədbirlərinin görülməsi halları istisna olmaqla, çaylarda, çay qollarında və kanallarda qalaqlar yaratmaq və ya su axınının qarşısını kəsmək, göllərdən və limanlardan suyu buraxmaq;

15.2.3. balıqçılıq su obyektlərinin üzərindəki qar və buz örtüyünü radioaktiv və zəhərli-kimyəvi maddələrlə, gön-dəri, ağac və neft emalı məhsulları ilə çirkləndirmək və zibilləndirmək, onların tullantılarını balıqçılıq su obyektlərinə axıtmaq;

15.2.4. dibdərinlətmə və dibtəmizləmə işləri zamanı qazılmış torpağı balıq və digər su bioresurslarının məskunlaşdığı kürütökmə yerlərinə və qışladığı çuxurlara yığmaq.

15.3. Balıqçılıq su obyektlərinin meliorasiyasına nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

15.4. Balıqçılıq su obyektlərinin meliorasiyasının həyata keçirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

15.5. Akvakultura təsərrüfatlarının meliorasiyası balıqçılıq subyektlərinin öz vəsaiti hesabına həyata keçirilir.

15.6. Balıqçılıq su obyektlərinə sənaye, kommunal, məişət, drenaj və digər tullantı sularının axıdılması Azərbaycan Respublikasının su qanunvericiliyində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

**Maddə 16. Balıqçılıq su obyektlərinə zərərli təsirin yol verilən normaları**

16.1. Balıqçılıq su obyektlərinə zərərli təsirin yol verilən normaları uzunmüddətli təsiri ilə su obyektlərinin ekosistemində dəyişikliklərə gətirib çıxarmayan antropogen təsirin yol verilən həddinin həcmi və bu obyektə və ya onların sutoplayıcı sahəsinə axıdılan, yaxud daxil ola bilən zərərli maddələrin yol verilən həddinin miqdarı əsasında müəyyən edilir.

16.2. Balıqçılıq su obyektlərinə zərərli təsirin yol verilən normaları və onların təsdiqi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 17. Balıqçılıq su obyektlərinin monitorinqi**

17.1. Balıqçılıq su obyektlərində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılan monitorinq balıqçılıq su obyektlərində baş verə biləcək mənfi halların vaxtında aşkara çıxarılması, qiymətləndirilməsi, qabaqlayıcı tədbirlərin görülməsi, habelə bu halların inkişafının proqnozlaşdırılması və zərərli təsirinin qarşısının alınması, həyata keçirilən balıqmühafizə tədbirlərinin səmərəliliyinin təmin edilməsi məqsədilə suların hidroloji, ixtioloji və hidrogeoloji göstəricilərinə, həmçinin balıqçı gəmilərinə və akvakultura təsərrüfatlarına müntəzəm müşahidə sistemindən ibarətdir.

17.2. Balıqçılıq su obyektlərinin monitorinqi "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqi sisteminin tərkib hissəsidir.

17.3. Balıqçılıq sahəsində dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) balıq ovu və akvakultura fəaliyyətinin izlənilməsi və pozuntuların aşkar edilməsi məqsədilə balıqçılıq subyektləri tərəfindən bu Qanunun 11.1.4-cü maddəsinə uyğun quraşdırılmış texniki nəzarət vasitələrinin məlumatlarını əldə etmək, habelə balıqçılıq sahəsində dövlət nəzarəti məqsədləri üçün müşahidə və monitorinq sistemləri yaratmaq, quraşdırmaq və onlardan istifadə etmək hüququna malikdir.

**Maddə 18. Balıqçılıq su obyektlərinin vəziyyətinə təsir edə bilən obyektlərin dövlət ekoloji ekspertizası**

18.1. Balıqçılıq su obyektlərinin vəziyyətinə təsir edə bilən müəssisələrin, qurğuların və digər obyektlərin tikintisi və yenidən qurulması layihələrinin müvafiq normativlərə, texniki şərtlərə və tələblərə uyğunluğunu müəyyən etmək məqsədilə "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanır və həmin sənədin dövlət ekoloji ekspertizası, habelə ətraf mühitə təsirin qiymətləndirilməsinin aparılması tələb olunmayan, lakin dövlət ekoloji ekspertizasının obyekti olan layihələrin dövlət ekoloji ekspertizası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

18.2. Balıqçılıq su obyektlərinin vəziyyətinə təsir edə bilən mövcud müəssisələr, qurğular və digər obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 4.21-ci maddəsi, uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə isə həmin Qanunun 4.22-ci maddəsi tətbiq edilir.

18.3. Balıqçılıq su obyektlərinin vəziyyətinə mənfi təsir edən müəssisələr, qurğular və digər obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həll olunur.

**Maddə 19. Balıqçılıq su obyektləri üzərində inşa edilmiş su təsərrüfatı obyektlərinin istismarına dair tələblər**

19.1. Balıqçılıq su obyektləri üzərində inşa edilmiş su təsərrüfatı obyektləri aşağıdakı şərtlərə əməl edilməklə istismar olunur:

19.1.1. su bəndlərinin dövrəsində, balıqların və digər su bioresurslarının hərəkət və kürütökmə yerlərinə keçidini təmin edən, balıqburaxıcı qurğular quraşdırıldıqda;

19.1.2. balıq və digər su bioresurslarının çoxalma, kürütökmə, qışlama dövründə su anbarlarında suların səviyyəsi tələb olunan həddə (təbii fəlakət istisna olmaqla) saxlanıldıqda;

19.1.3. hidrotexniki, sugötürücü və suburaxıcı qurğular, irriqasiya sistemləri balıqqoruyucu qurğularla təchiz edildikdə;

19.1.4. balıqların kürütökmə və qışlama yerlərində, habelə balıq körpələrinin toplandığı sahələrdə sugötürücü və suburaxıcı qurğular yerləşdirilmədikdə;

19.1.5. kommunal-təsərrüfat, neft-mədən, neft-kimya, neftayırma və balıq və digər su bioresurslarının məskunlaşdığı mühitə zərərli təsir edən digər sənaye və aqrar obyektlərinin istismarı ekoloji tələblərə cavab verdikdə;

19.1.6. çayların aşağı hissəsində balıq və digər su bioresurslarının məskunlaşması, çoxalması və təbii yaşayış mühitinin qorunması üçün su anbarlarının alt hissəsinə kifayət həcmdə su buraxıldıqda.

19.2. Balıqçılıq su obyektləri üzərində inşa edilmiş su təsərrüfatı obyektlərinin istifadəyə verilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmalıdır.

**Maddə 20. Su mühafizə zonaları**

20.1. Su mühafizə zonası su obyektinin akvatoriyasına bitişik, üzərində təbii ehtiyatların istifadəsi, mühafizəsi və digər təsərrüfat fəaliyyətinin həyata keçirilməsi üzrə xüsusi rejim müəyyən edilmiş ərazidir.

20.2. Su mühafizə zonalarının hüdudlarında sahil mühafizə zolaqları müəyyən edilir.

20.3. Qiymətli balıq növlərinin kürütökmə yerləri olan çayların, onların qollarının, göllərin və digər sututarların, habelə balıqartırma müəssisələrinin fəaliyyət göstərdiyi su mühafizə zonalarında və sahil mühafizə zolaqlarında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada balıq və digər su bioresurslarının xüsusi mühafizə rejimi tətbiq edilir.

20.4. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində və digər balıqçılıq su obyektlərinin sahil mühafizə zolaqlarında torpaqların şumlanması və əkilməsi, meşələrin kəsilməsi, ağacların qırılması və kökündən çıxarılması, qəbiristanlıqların, heyvandarlıq fermalarının, düşərgələrinin, zibilxanaların yerləşdirilməsi, habelə su qanunvericiliyi ilə müəyyən edilmiş digər fəaliyyət növləri qadağan edilir.

20.5. Su mühafizə zonalarının, onların sahil mühafizə zolaqlarının ölçüləri, sərhədləri və istifadə qaydaları Azərbaycan Respublikasının su qanunvericiliyi ilə müəyyən edilir.

### 6-cı fəsil
### BALIQÇILIĞIN İQTİSADİ TƏNZİMLƏNMƏSİ

**Maddə 21. Balıqçılığın iqtisadi tənzimlənməsinin prinsipləri**

21.1. Balıqçılığın iqtisadi tənzimlənməsi aşağıdakı prinsiplərə əsaslanır:

21.1.1. balıqçılıq sahəsində siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən dövlət xidmətlərinin göstərilməsinə, habelə dövlət mülkiyyətində olan balıqçılıq su obyektlərində balıq və digər su bioresurslarından istifadəyə görə ödənişlərin, balıqçılıq haqqında qanunvericiliyin pozulmasına görə alınan cərimələrin, balıq və digər su bioresurslarının qeyri-qanuni ov və ya digər fəaliyyət nəticəsində təbiətə, o cümlədən balıq və digər su bioresurslarına dəymiş ziyanın ödənilməsi;

21.1.2. balıq və digər su bioresurslarının artırılmasının, mühafizəsinin və balıqçılığın elmi təminatının dövlət büdcəsi və büdcədənkənar ödəmələr hesabına maliyyələşdirilməsi;

21.1.3. balıq və digər su bioresurslarının səmərəli istifadəsi və mühafizəsinin stimullaşdırılması;

21.1.4. akvakulturanın iqtisadi stimullaşdırılması;

21.1.5. akvakultura məhsulunun rəqabət qabiliyyətini təmin etmək məqsədilə fiskal siyasətin həyata keçirilməsi.

**Maddə 22. Balıq və digər su bioresurslarından istifadəyə görə ödənişlər**

22.1. Bu Qanunun 6.5-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət mülkiyyətində olan balıqçılıq su obyektlərində balıq və digər su bioresurslarından ov məqsədli istifadə ödənişlidir.

22.2. Müqavilə ilə istifadəyə və ya icarəyə verilmiş dövlət, bələdiyyə və ya xüsusi mülkiyyətdə olan balıqçılıq su obyektlərində balıq və digər su bioresurslarından istifadəyə görə ödənişlər balıq və digər su bioresurslarının növü, onların ovu üsulları, ov alətlərinin və texniki vasitələrin növü, habelə su obyektlərinin təyinatı nəzərə alınmaqla normativ hüquqi aktlara və həmin müqaviləyə uyğun həyata keçirilir.

22.3. Təsərrüfat obyektlərinin tikintisindən, istismarından, habelə balıqçılıq su obyektlərində müxtəlif fəaliyyət növlərindən balıq və digər su bioresurslarına dəyən zərərli təsirin qarşısının alınması mümkün olmadıqda balıq və digər su bioresurslarına vurulan zərərin əvəzi təqsirkar şəxslər tərəfindən ödənilir.

22.4. Dövlət mülkiyyətində olan balıqçılıq su obyektlərində balıq və digər su bioresurslarından istifadəyə görə ödənişlərin məbləği, dərəcələri, tətbiq edilmə qaydası və balıq və digər su bioresurslarının qeyri-qanuni ovu və ya digər fəaliyyət nəticəsində təbiətə, o cümlədən balıq və digər su bioresurslarına dəymiş ziyanın hesablanma qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

**Maddə 23. Balıq və digər su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu**

23.1. Balıq və digər su bioresurslarının artırılmasının, bərpasının, mühafizəsinin, balıqçılığın elmi təminatının və balıqçılıq sahəsində digər tədbirlərin, habelə balıqçılığın inkişafı proqramlarının maliyyələşdirilməsini təmin etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən balıq və digər su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu (bundan sonra - Fond) yaradılır.

23.2. Fondun formalaşma mənbələri və Fondun vəsaitindən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 24. Balıq və digər su bioresurslarının artırılmasının, mühafizəsinin və balıqçılığın elmi təminatının maliyyələşdirilməsi**

24.1. Dövlət mülkiyyətində olan balıqçılıq su obyektlərində balıqyetişdirmə, balıqartırma, balıqmühafizə və balıqçılıq su obyektlərinin meliorasiyası fəaliyyəti dövlət büdcəsinin vəsaiti və büdcədənkənar vəsait hesabına maliyyələşdirilir.

24.2. Müqavilə ilə istifadəyə və ya icarəyə verilmiş dövlət, bələdiyyə və ya xüsusi mülkiyyətdə olan balıqçılıq su obyektlərində balıqyetişdirmə və balıqçılıq su obyektlərinin meliorasiyası işləri balıqçılıq su obyektlərinin mülkiyyətçiləri, istifadəçiləri və ya icarəçiləri tərəfindən maliyyələşdirilir.

24.3. Nərə cinsli balıqların və digər qiymətli balıq və digər su bioresurslarının artırılması və bərpası dövlət tərəfindən stimullaşdırılır.

24.4. Balıqçılığın elmi təminatı dövlət büdcəsivə büdcədənkənar vəsait hesabına müvafiq müəssisələr tərəfindən həyata keçirilir.

**Maddə 25. Balıq və digər su bioresurslarının mühafizəsi və akvakulturanın stimullaşdırılması**

25.1. Azərbaycan Respublikasının normativ hüquqi aktlarında balıq və digər su bioresurslarının mühafizəsi, balıq ovu, akvakulturası və balıq emalı sahələrində məqsədli investisiya, subsidiya, güzəştli kredit və digər dövlət dəstəyi tədbirləri həyata keçirilir.

25.2. Balıq və digər su bioresurslarından istifadəyə görə ödənişlər və qeyri-qanuni ov və ya digər fəaliyyət nəticəsində təbiətə, o cümlədən balıq və digər su bioresurslarına dəymiş ziyanın məbləğinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş hissəsi balıq və digər su bioresurslarının artırılması və mühafizəsinin stimullaşdırılmasına yönəldilir.

### 7-ci fəsil
### BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

**Maddə 26. Xəzər dənizində (gölündə) balıq və digər su bioresurslarının artırılması, istifadəsi və mühafizəsi ilə bağlı beynəlxalq əməkdaşlıq**

26.1. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) Xəzər dənizinin (gölünün) bioloji ehtiyatlarının öyrənilməsində, suların ekoloji, hidroloji, hidrogeoloji, texnoloji normalarının hazırlanmasında və zərərli təsirin qarşısının alınmasında, habelə balıq və digər su bioresurslarının artırılması, istifadəsi və mühafizəsində iştirak edir və məlumat mübadiləsini həyata keçirir.

26.2. Xəzər dənizində (gölündə) balıq və digər su bioresurslarının artırılması, bərpası və istifadəsi kvotası Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında müəyyən edilir.

**Maddə 27. Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinin xarici dövlətlərin su hövzələrində balıq və digər su bioresurslarından istifadə hüququ**

27.1. Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri tərəfindən xarici dövlətlərin su hövzələrində və dünya okeanının açıq sahələrində ovlanmış və emal edilmiş balıqçılıq obyektləri idxal məhsulları hesab edilmir.

27.2. Xarici dövlətlərin su hövzələrində və dünya okeanının açıq sahələrində balıq və digər su bioresurslarından istifadə qaydası Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, habelə digər beynəlxalq hüquq normaları ilə müəyyən edilir.

**Maddə 28. Xarici dövlətlərin fiziki və hüquqi şəxslərinin Azərbaycan Respublikasının su hövzələrində balıq və digər su bioresurslarından istifadə hüququ**

28.1. Xarici dövlətlərin fizikivə hüquqi şəxsləri Azərbaycan Respublikasının su hövzələrində balıq və digər su bioresurslarından istifadə edə bilərlər.

28.2. Xarici dövlətlərin fizikivə hüquqi şəxsləri Azərbaycan Respublikasında balıq və digər su bioresurslarından Azərbaycan Respublikasının normativ hüquqi aktlarında nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, habelədigər beynəlxalq hüquq normalarına uyğun olaraq istifadə edirlər.

28.3. Xarici dövlətlərin fiziki və hüquqişəxslərinin Azərbaycan Respublikasında balıq və digər su bioresurslarından istifadə haqqı və qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

### 8-ci fəsil
### YEKUN MÜDDƏALAR

**Maddə 29. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər qanunda nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 30. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun qüvvəyə mindiyi gündən "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının 1998-ci il 27 mart tarixli 457-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 362 (Cild I); 2024, № 4, maddə 365, №11, maddə 1181; 2025, № 7, maddə 631) ləğv edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

# "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 457-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi, Fərmanının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 457-VIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsinin birinci abzasında, 5.2-ci (hər üç halda), 5.3-cü (hər iki halda), 5.4-cü, 5.6-cı, 5.7-ci (hər üç halda), 6.2-ci, 6.4-cü maddələrində, 6.8-ci maddəsinin birinci cümləsində, 6.10-cu (hər iki halda), 7.1-ci (hər iki halda), 7.2-ci maddələrində, 8.1-ci maddəsinin üçüncü cümləsində, 8.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 8.5-ci, 8.6-cı, 8.8-ci,9.7-ci (hər iki halda), 9.8-ci, 9.9-cu, 11.1.3-cü,

11.1.9 - 11.1.11-ci, 11.2-ci, 13.2-ci, 13.5-ci, 13.6-cı maddələrində, 14.2-ci maddəsinin ikinci cümləsində, 14.3-cü, 15.2.1-ci, 15.2.2-ci, 15.3-cü, 15.4-cü, 16.2-ci, 17.1-ci, 17.3-cü, 18.1-ci, 19.2-ci, 20.3-cü, 21.1.1-ci, 22.4-cü, 23.1-ci, 23.2-ci, 25.2-ci, 26.1-ci və 28.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 23.1-ci, 23.2-ci və 25.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 5.2-ci (ikinci və üçüncü hallarda), 5.3-cü (ikinci halda), 6.2-ci maddələrində, 8.1-ci maddəsinin üçüncü cümləsində, 8.2-ci və 14.2-ci maddələrinin ikinci cümlələrində, 16.2-ci, 20.3-cü, 21.1.1-ci, 22.4-cü və 28.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 5.1-ci maddəsinin birinci abzasında (5.1.1-ci, 5.1.3 - 5.1.8-ci, 5.1.10 - 5.1.14-cü və 5.1.18-ci maddələrə münasibətdə), 5.2-ci (birinci halda), 5.3-cü (birinci halda), 5.4-cü, 6.4-cü maddələrində, 6.8-ci maddəsinin birinci cümləsində, 6.10-cu (ikinci halda), 7.1-ci (ikinci halda) və 7.2-ci maddələrində, 8.2-ci maddəsinin birinci cümləsində, 8.5-ci, 8.6-cı, 8.8-ci, 9.7-ci (ikinci halda), 9.8-ci, 9.9-cu, 11.1.11-ci, 11.2-ci, 13.2-ci, 13.5-ci, 13.6-cı, 15.2.1-ci, 15.3-cü, 15.4-cü, 17.1-ci, 17.3-cü və 19.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 5.1-ci maddəsinin birinci abzasında (5.1.9-cu maddəyə münasibətdə) və 11.1.10-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 5.1-ci maddəsinin birinci abzasında (5.1.2-ci maddəyə münasibətdə) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, balıqçı gəmilərinin, habelə qanunsuz balıq ovu ilə məşğul olan gəmilərin saxlanılmasına və təyin olunmuş yerə istiqamətləndirilməsinə münasibətdə həmçinin Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti nəzərdə tutulur;

1.7. həmin Qanunun 5.1-ci maddəsinin birinci abzasında (5.1.15 - 5.1.17-ci maddələrə münasibətdə) və 15.2.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi nəzərdə tutulur;

1.8. həmin Qanunun 6.10-cu maddəsində birinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur;

1.9. həmin Qanunun 7.1-ci maddəsində birinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.10. həmin Qanunun 9.7-ci maddəsində birinci halda "orqan (qurum)" dedikdə yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

1.11. həmin Qanunun 14.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi nəzərdə tutulur;

1.12. həmin Qanunun 18.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

1.13. həmin Qanunun 26.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi nəzərdə tutulur;

1.14. həmin Qanunun 5.6-cı, 5.7-ci (birinci halda), 11.1.3-cü və 11.1.9-cu maddələrində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Elektron kənd təsərrüfatı" informasiya sisteminin "balıqçılıq" altsistemi nəzərdə tutulur;

1.15. həmin Qanunun 5.7-ci maddəsində ikinci halda "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi nəzərdə tutulur;

1.16. həmin Qanunun 5.7-ci maddəsində üçüncü halda "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin "Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi" informasiya sistemi" nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1.altı ay müddətində:

2.1.1. aşağıdakılarla bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

2.1.1.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 457-VIIQ nömrəli Qanununa uyğunlaşdırılması;

2.1.1.2. həmin Qanunun 23.2-ci maddəsinə uyğun olaraq, balıq və digər su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondunun vəsaitindən istifadə qaydası;

2.1.2. aşağıdakıları müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1.2.1. həmin Qanunun 5.2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin işçilərinin təmin olunduqları xüsusi geyim formasını və fərqlənmə nişanlarını, xüsusi vasitələrin, xidməti silahın və onlar üçün sursatların siyahısını, habelə nəqliyyat vasitələrinin fərqlənmə nişanlarını;

2.1.2.2.həmin Qanunun 5.3-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin fiziki qüvvə, xüsusi vasitələr və xidməti silah tətbiq etmək hüququ olan vəzifəli şəxslərinin siyahısını;

2.1.2.3.həmin Qanunun 8.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, Biotexnoloji Layihə Sənədinin ekspertizasının həyata keçirilməsi üçün xidmət haqqının məbləğini;

2.1.2.4. həmin Qanunun 14.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, mühüm balıqçılıq su obyektlərinin siyahısını və sudan istifadənin məhdudlaşdırılması qaydasını;

2.1.2.5. həmin Qanunun 16.2-ci maddəsinə uyğun olaraq, balıqçılıq su obyektlərinə zərərli təsirin yol verilən normalarını və onların təsdiqi qaydasını;

2.1.2.6.həmin Qanunun 20.3-cü maddəsinə uyğun olaraq, qiymətli balıq növlərinin kürütökmə yerləri olan çayların, onların qollarının, göllərin və digər sututarların, habelə balıqartırma müəssisələrinin fəaliyyət göstərdiyi su mühafizə zonalarında və sahil mühafizə zolaqlarında balıq və digər su bioresurslarının xüsusi mühafizə rejiminin tətbiqi qaydasını;

2.1.2.7. həmin Qanunun 21.1.1-ci maddəsinə uyğun olaraq, balıqçılıq sahəsində göstərilən dövlət xidmətlərinin siyahısını;

2.1.2.8. həmin Qanunun 22.4-cü maddəsinə uyğun olaraq, dövlət mülkiyyətində olan balıqçılıq su obyektlərində balıq və digər su bioresurslarından istifadəyə görə ödənişlərin məbləğini, dərəcələrini, tətbiq edilmə qaydasını, habelə balıq və digər su bioresurslarının qeyri-qanuni ovu və ya digər fəaliyyət nəticəsində təbiətə, o cümlədən balıq və digər su bioresurslarına dəymiş ziyanın hesablanma qaydasını;

2.1.2.9. həmin Qanunun 28.3-cü maddəsinə uyğun olaraq, xarici dövlətlərin fiziki və hüquqi şəxslərinin Azərbaycan Respublikasında balıq və digər su bioresurslarından istifadə haqqını və qaydasını;

2.1.3. aşağıdakı normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1.3.1. həmin Qanunun 6.2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 2 iyun tarixli 243 nömrəli Qərarı ilə təsdiq edilmiş "Balıq və digər su bioresurslarının ovunun Qaydaları"nın;

2.1.3.2.həmin Qanunun 8.1-ci maddəsinin üçüncü cümləsinə uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 iyun tarixli 256 nömrəli Qərarı ilə təsdiq edilmiş "Akvakulturanın həyata keçirilməsi Qaydası"nın;

2.1.3.3.su təsərrüfatı obyektlərində balıqçılığın həyata keçirilməsi ilə bağlı digər normativ hüquqi aktların;

2.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

3.1. altı ay müddətində aşağıdakı normativ hüquqi aktları müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.1.1. "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 5.1.5-ci maddəsinə uyğun olaraq, balıq və digər su bioresurslarının dayanıqlı ovunun təmini məqsədilə balıqçılıq subyektləri tərəfindən istifadə edilən balıqçılıq infrastrukturu, balıq ovu alətləri və balıqçı gəmiləri ilə bağlı texniki tələbləri;

3.1.2. həmin Qanunun 6.4-cü maddəsinə uyğun olaraq, balıq ovunda qadağan olunmuş ov alətlərinin siyahısını;

3.1.3. həmin Qanunun 8.2-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, Biotexnoloji Layihə Sənədinin nümunəvi formasını;

3.1.4. həmin Qanunun 9.9-cu maddəsinə uyğun olaraq, ölkə ərazisinə idxal edilən və ölkə ərazisindən ixrac edilən törədici balıq və digər su bioresurslarının, balıq körpələrinin və inkubasiya edilən kürülərin damazlıq xüsusiyyətlərini;

3.1.5. həmin Qanunun 11.2-ci maddəsinə uyğun olaraq, balıq ovu ilə məşğul olmaq üçün istifadə olunan balıqçı gəmilərinin və balıqovu alətlərinin qeydiyyatı qaydasını, habelə balıqçı gəmilərində quraşdırılan texniki nəzarət vasitələrinin siyahısını və onlara dair tələbləri;

3.1.6. həmin Qanunun 13.5-ci maddəsinə uyğun olaraq, balıq və digər su bioresursları genofondunun mühafizəsi məqsədilə balıqçılıq su obyektlərinə balıq və digər su bioresurslarının yeni növlərinin və hibrid formalarının buraxılması qaydasını;

3.1.7. həmin Qanunun 13.6-cı maddəsinə uyğun olaraq, balıqartırma, balıq və digər su bioresurslarının iqlimləşdirilməsi qaydasını və texniki normativ hüquqi aktları;

3.1.8. həmin Qanunun 15.4-cü maddəsinə uyğun olaraq, balıqçılıq su obyektlərinin meliorasiyasının həyata keçirilməsi qaydasını;

3.2. həmin Qanundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 173 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 483 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.4. həmin Qanunun 4-cü maddəsinin 2-ci hissəsinin 2.2-ci və 2.4-cü bəndlərində nəzərdə tutulmuş vəzifələri, 71-ci maddəsinin 2-ci hissəsinin 2.4-cü bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir;";

4.2. aşağıdakı məzmunda 2.4-1-ci bənd əlavə edilsin:

"2.4-1. həmin Qanunun 4-cü maddəsinin 2-ci hissəsinin 2.1-ci, 2.3-cü, 2.5-ci və 2.6-cı bəndlərində nəzərdə tutulmuş vəzifələri, habelə həmin Qanunun 15-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının,

18-ci maddəsinin 3-cü hissəsində, 71-ci maddəsinin 1-ci hissəsində və 2-ci hissəsinin 2.1-2.3-cü, 2.5-2.11-ci bəndlərində, 72-ci maddəsində və 73-cü maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, balıq və digər su bioresurslarına münasibətdə isə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi həyata keçirir;";

4.3. 2.6-cı bəndə "Nazirliyi" sözündən sonra ", balıq və digər su bioresurslarına münasibətdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri əlavə edilsin;

4.4. 2.7-ci bəndə birinci halda "Nazirliyi," sözündən sonra "balıq və digər su bioresurslarının qorunduğu xüsusi mühafizə olunan su sahələrinə (akvatoriyalara) münasibətdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi," sözləri əlavə edilsin.

5. "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 186 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 496 (Cild I) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. ikinci - doqquzuncu abzaslar müvafiq olaraq 3.1 - 3.8-ci bəndlər hesab edilsin;

5.2. 3.1-ci bənddə "öz səlahiyyətləri daxilində" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin;

5.3. 3.2-ci və 3.3-cü bəndlərdə "Ekologiya və Təbii Sərvətlər Nazirliyi öz səlahiyyətləri daxilində" sözləri "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və balıq və digər su bioresurslarına münasibətdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin;

5.4. 3.4-cü bənddən "öz səlahiyyətləri daxilində" sözləri çıxarılsın;

5.5. 3.5-ci bəndə "səlahiyyətlərini" sözündən sonra "Azərbaycan Respublikasının" sözləri əlavə edilsin;

5.6. 3.6-cı bənddə "Ekologiya və Təbii Sərvətlər Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və balıq və digər su bioresurslarına münasibətdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin;

5.7. 3.7-ci bənddə "və 4-cü hissələrində" sözləri "hissəsində" sözü ilə, "Ekologiya və Təbii Sərvətlər Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və balıq və digər su bioresurslarına münasibətdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin;

5.8. 3.8-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.9-cu bənd əlavə edilsin:

"3.9. həmin Qanunun 41-ci maddəsinin 4-cü və 5-ci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.".

6. "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 294 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 161 (Cild I); 2024, № 11, maddə 1198) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. ikinci - yeddinci abzaslar müvafiq olaraq 2.1 - 2.6-cı bəndlər hesab edilsin;

6.2. 2.1-ci bənddə "həmin Qanunun" sözləri "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri ilə, "maddəsində" sözü "maddəsinin ikinci hissəsində" sözləri ilə əvəz olunsun və həmin bəndə "iştirak" sözündən əvvəl "və balıq və digər su bioresurslarına münasibətdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri əlavə edilsin;

6.3. 2.2-ci bənddə üçüncü halda "və" sözü vergül işarəsi ilə əvəz olunsun və həmin bəndə ikinci halda "Nazirliyi" sözündən sonra "və balıq və digər su bioresurslarına münasibətdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri əlavə edilsin;

6.4. 2.3-cü bənddən ", 26-cı maddəsinin 2-ci, 43-cü maddəsinin 2-ci" sözləri çıxarılsın;

6.5. 2.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.5. həmin Qanunun 26-cı maddəsinin 2-ci, 34-cü maddəsinin 1-ci, 43-cü maddəsinin 2-ci, 44-cü maddəsinin 1-ci və 2-ci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, balıq və digər su bioresurslarına münasibətdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi həyata keçirirlər;".

7. "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə əlavə tədbirlər haqqında" 2003-cü il 23 oktyabr tarixli 951 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 556 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. ikinci - altıncı abzaslar müvafiq olaraq 1.1 - 1.5-ci bəndlər hesab edilsin;

7.2. 1.1-ci bənddə ", 33-cü maddəsinin 5 və 7-ci hissələrində" sözləri "hissəsində" sözü ilə, "öz səlahiyyətləri daxilində" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin;

7.3. 1.2-ci bənddə "öz səlahiyyətləri daxilində" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin;

7.4. 1.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.3. həmin Qanunun 33-cü maddəsinin 5-ci və 7-ci hissələrində, 38-ci maddəsinin 1-ci və 2-ci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və balıq və digər su bioresurslarına münasibətdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirirlər;";

7.5. 1.5-ci bəndə ikinci halda "Nazirliyi" sözündən sonra "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri əlavə edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 301 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 12 (II kitab), maddə 1359; 2025, № 4 (I kitab), maddə 330; 2026, № 1, maddə 37) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 11-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

8.1. 11.33-3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"11.33-3. balıq və digər su bioresurslarının qiymətli növlərinin xüsusi mühafizə rejiminin müəyyən edilməsi, onların ovunun dayandırılması və ya qadağan edilməsi ilə bağlı tədbirlər görmək, balıqçılıq subyektlərinin uçotunu aparmaq;";

8.2. 11.33-4-cü bənd ləğv edilsin;

8.3. 11.33-6-cı bənddə "aidiyyəti dövlət orqanları (qurumları)" sözləri "yerli icra hakimiyyəti orqanları" sözləri ilə əvəz edilsin;

8.4. 11.33-7-ci, 11.33-9-cu və 11.33-16-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

"11.33-7. balıqartırma fəaliyyətinin həyata keçirilməsi məqsədilə balıq və digər su bioresurslarının yetişdirilməsi istiqamətində akvakultura təsərrüfatları ilə müqavilə bağlamaq;";

"11.33-9. akvakultura fəaliyyətinin həyata keçirilməsi üçün qeydiyyat şəhadətnaməsini "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq vermək, dayandırmaq, bərpa etmək və ləğv etmək;";

"11.33-16. balıq və digər su bioresurslarının sənaye ovu ilə məşğul olan balıqçılıq subyektlərinə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla vətəgə sahələrinin ayrılmasına dair tədbirlər görmək;";

8.5. 11.33-17-ci bənddə "suyun bioloji sərvətlərinin" sözləri "balıq və digər su bioresurslarının" sözləri ilə əvəz edilsin;

8.6. aşağıdakı məzmunda 11.33-23 - 11.33-27-ci bəndlər əlavə edilsin:

"11.33-23. balıqovlama biletini "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq vermək, dayandırmaq, bərpa etmək və ləğv etmək;

11.33-24. balıq və digər su bioresurslarının zooloji kolleksiyalarının yaradılmasına, zənginləşdirilməsinə, onlarla ticarətə, habelə Azərbaycan Respublikasına gətirilməsinə, onun hüdudlarından kənara göndərilməsinə və aparılmasına icazə vermək;

11.33-25. balıqçılıq su obyektlərinin meliorasiyasının həyata keçirilməsi qaydasını təsdiq etmək, meliorasiyaya nəzarəti həyata keçirmək, istifadəyə və ya icarəyə verilməmiş dövlət mülkiyyətində olan balıqçılıq su obyektlərində meliorasiya fəaliyyətini təşkil etmək;

11.33-26. balıqçılıq su obyektlərinin monitorinqini həyata keçirmək, bu məqsədlə müşahidə və monitorinq sistemləri yaratmaq, quraşdırmaq və onlardan istifadə etmək;

11.33-27. "Ətraf mühitin mühafizəsi haqqında" və "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq balıq və digər su bioresurslarına münasibətdə dövlət nəzarətini, habelə həmin sahədə digər səlahiyyətləri həyata keçirmək;";

8.7. 11.42-1-ci bənddə "sahəsində" sözü "və balıq və digər su bioresurslarının mühafizəsi və onlardan istifadə sahələrində" sözləri ilə əvəz olunsun və həmin bəndə "vasitələrlə" sözündən sonra ", həmçinin balıq və digər su bioresurslarının mühafizəsinə və onlardan istifadəyə dövlət nəzarətini həyata keçirən aidiyyəti işçilərini qanuna uyğun olaraq xidməti silahla" sözləri əlavə edilsin.

9. "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli 1255 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 199 (Cild I); 2024, № 6 (I kitab), maddə 654) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 10-cu hissə üzrə:

9.1.1. 10.3.1-ci yarımbənddə "kökünün" sözündən əvvəl "balıq və digər su bioresursları istisna olmaqla," sözləri əlavə edilsin;

9.1.2. aşağıdakı məzmunda 10.3-1-ci bənd əlavə edilsin:

"10.3-1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

10.3-1.1. balıq və digər su bioresurslarına münasibətdə kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin ixracı (təkrar ixracı) üçün icazənin (sertifikatın) verilməsini;";

9.2. 11-ci hissəyə "Sərvətlər Nazirliyi," sözlərindən sonra "Kənd Təsərrüfatı Nazirliyi," sözləri əlavə edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1645 (Cild I); 2024, № 8, maddə 937) ilə təsdiq edilmiş "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin 4.2-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

10.1. 4.2.3-cü yarımbəndin 1-ci abzasına "növlərinin" sözündən sonra "(balıq və digər su bioresursları istisna olmaqla)" sözləri əlavə edilsin;

10.2. aşağıdakı məzmunda 4.2.3-1-ci yarımbənd əlavə edilsin:

"4.2.3-1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən:

1. balıq və digər su bioresurslarına münasibətdə kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin ixracı (təkrar ixracı) üçün icazənin (sertifikatın) verilməsi;".

11. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515, № 7, maddə 809, № 8, maddələr 943, 948, № 11, maddə 1199, № 12 (II kitab), maddə 1364; 2025, № 3, maddə 224, № 4 (I kitab), maddə 330, № 5, maddə 459, № 6, maddə 541, № 8, maddə 771, № 11, maddələr 1018, 1025, № 12 (I kitab), maddə 1152) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 6-cı hissənin "Göstərdiyi xidmətlər" sütunu üzrə:

11.1.1. 4-cü bənd ləğv edilsin;

11.1.2. 5-ci bəndə "zooloji" sözündən əvvəl "balıq və digər su bioresurslarının zooloji kolleksiyaları istisna olmaqla, digər" sözləri əlavə edilsin;

11.1.3. 6-cı bəndə "növlərinin" sözündən sonra "(balıq və digər su bioresursları istisna olmaqla)" sözləri əlavə edilsin;

11.2. 9-cu hissənin "Göstərdiyi xidmətlər" sütununa aşağıdakı məzmunda 5 - 8-ci bəndlər əlavə edilsin:

"5. balıqovlama biletinin verilməsi

6. akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsinin verilməsi

7. balıq və digər su bioresurslarının zooloji kolleksiyalarının yaradılmasına, zənginləşdirilməsinə, onlarla ticarətə, belə kolleksiyaların Azərbaycan Respublikasına gətirilməsinə, onun hüdudlarından kənara göndərilməsinə və aparılmasına icazə verilməsi

8. balıq və digər su bioresurslarına münasibətdə kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti (dənizdən introduksiya, ixrac, təkrar ixrac və idxal) üçün icazə (sertifikat) verilməsi".

12. "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 yanvar tarixli 467 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 57 (Cild I) 2.2-ci bəndində "85" rəqəmləri "95" rəqəmləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940 (Cild I); 2024, № 6 (I kitab), maddələr 654, 679, № 8, maddə 937, № 12 (II kitab), maddə 1359; 2026, № 3, maddə 216; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 8 iyun tarixli 679 nömrəli və 13 avqust tarixli 763 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

13.1. 1.10-cu bəndə "ödəniş" sözündən sonra "Balıqçılıq haqqında"," sözləri əlavə edilsin;

13.2. 3.2.3-4-cü yarımbənddə "hazırlanmış bioloji və texnoloji əsaslandırmanın ilkin və təkrar qeydiyyata alınması" sözləri "Biotexnoloji Layihə Sənədinin qəbulu və onun ekspertizasının təşkili" sözləri ilə əvəz olunsun və həmin yarımbəndə ikinci halda "uçotu" sözündən sonra "balıqçı gəmilərinin və balıqovu alətlərinin qeydiyyatı və uçotu, balıqçılıq obyektlərinin növünü, həcmini və sair əks etdirən məlumatların toplanılması" sözləri əlavə edilsin;

13.3. 5.1.32-ci yarımbənddə "bioloji və texnoloji əsaslandırma, bioloji və texnoloji əsaslandırmanı təqdim edən akvakultura subyektinin" sözləri "Biotexnoloji Layihə Sənədi, müraciətçinin" sözləri ilə əvəz olunsun və həmin yarımbəndə ikinci halda "müqavilələr"sözündən sonra "balıq ovu ilə məşğul olmaq üçün istifadə edilən balıqçı gəmiləri, balıqovu alətləri və balıqçı gəmilərində quraşdırılan texniki nəzarət vasitələri, balıqçılıq obyektlərinin növü, həcmi" sözləri əlavə edilsin;

13.4. 7.1.1-ci yarımbənd üzrə:

13.4.1. 20-ci abzasda "hazırlanmış bioloji və texnoloji əsaslandırmanı" sözləri "Biotexnoloji Layihə Sənədini" sözləri ilə, "bioloji və texnoloji əsaslandırmada" sözləri "Biotexnoloji Layihə Sənədində" sözləri ilə əvəz edilsin;

13.4.2. aşağıdakı məzmunda 20-1-ci abzas əlavə edilsin:

"20-1. balıq ovu ilə məşğul olmaq üçün istifadə etdiyi balıqçı gəmiləri və balıqovu alətləri barədə məlumatları, habelə balıqçılıq obyektlərinin növünü, həcmini və sair əks etdirən məlumatları daxil etmək;".

14. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251 (Cild I); 2024, № 2, maddə 147, № 3, maddələr 259, 262, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 8, maddə 944, № 12 (II kitab), maddə 1359; 2025, № 6, maddə 541, № 10, maddə 900; 2026, № 2, maddə 123, № 4, maddə 304) aşağıdakı dəyişikliklər edilsin:

14.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

14.1.1. 1.1-ci bənddə "suların bioloji sərvətlərindən səmərəli istifadə, onların" sözləri "ekoloji sistemin" sözləri ilə əvəz edilsin;

14.1.2. 3-cü hissə üzrə:

14.1.2.1. 3.0.26-cı yarımbənddə "14-18-ci" sözləri "14-cü, 15-ci, balıq və digər su bioresursları istisna olmaqla, 17-ci və 18-ci" sözləri ilə əvəz edilsin;

14.1.2.2. 3.0.64-cü yarımbəndə "təşkil etmək," sözlərindən sonra "aidiyyəti qurumlarla birlikdə" sözləri əlavə olunsun və həmin yarımbənddə "aidiyyəti dövlət qurumları ilə birlikdə heyvanlar aləminin" sözləri "heyvanlar aləminin (balıq və digər su bioresursları istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

14.1.2.3. 3.0.65-ci yarımbəndə "heyvanların" sözündən sonra "(balıq və digər su bioresursları istisna olmaqla)" sözləri, "əraziləri" sözündən sonra "aidiyyəti dövlət orqanı (qurumu) ilə birlikdə" sözləri əlavə edilsin;

14.1.2.4. 3.0.66-cı yarımbəndə "heyvan" sözündən sonra "(balıq və digər su bioresursları istisna olmaqla)" sözləri əlavə edilsin;

14.1.2.5. 3.0.68-ci yarımbəndə "vasitəsilə" sözündən sonra "balıq və digər su bioresurslarının zooloji kolleksiyaları istisna olmaqla, digər" sözləri əlavə edilsin;

14.1.2.6. aşağıdakı məzmunda 3.0.72-1-ci yarımbənd əlavə edilsin:

"3.0.72-1. strukturuna daxil olan qurumlar vasitəsilə Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində ekoloji sistemin qorunmasını təmin etmək;";

14.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

14.2.1. 1.1-ci bənddə "bioloji müxtəlifliyin," sözləri "ekoloji sistemin" sözləri ilə əvəz edilsin;

14.2.2. 3-cü hissə üzrə:

14.2.2.1. 3.0.12-ci yarımbənddə ", o cümlədən suyun bioloji sərvətlərinin" sözləri "(balıq və digər su bioresursları istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

14.2.2.2. 3.0.13-cü yarımbəndə "obyektlərinin" sözündən sonra "(balıq və digər su bioresursları istisna olmaqla)" sözləri əlavə edilsin;

14.2.2.3. 3.0.14-cü yarımbəndə "təşkil etmək," sözlərindən sonra "aidiyyəti qurumlarla birlikdə" sözləri əlavə edilsin və həmin yarımbənddən ", aidiyyəti dövlət qurumları ilə birlikdə heyvanlar aləminin dövlət uçotu, kadastrı və monitorinqini həyata keçirmək" sözləri çıxarılsın;

14.2.2.4. 3.0.22-ci yarımbəndə "heyvanların" sözündən sonra "(balıq və digər su bioresursları istisna olmaqla)" sözləri əlavə edilsin;

14.2.2.5. 3.0.23-cü yarımbəndə "obyektləri" sözündən sonra "(balıq və digər su bioresursları istisna olmaqla)" sözləri əlavə olunsun və həmin yarımbənddə "qaldırılmaq" sözü "qaldırmaq" sözü ilə əvəz edilsin;

14.2.2.6. 3.0.24-cü yarımbəndə "növlərinin" sözündən sonra "(balıq və digər su bioresursları istisna olmaqla)" sözləri əlavə edilsin;

14.2.2.7. 3.0.27-ci yarımbəndə "heyvanların" sözündən əvvəl "balıq və digər su bioresursları istisna olmaqla, digər" sözləri əlavə edilsin;

14.2.2.8. 3.0.28-ci yarımbəndə "zooloji" sözündən əvvəl "balıq və digər su bioresurslarının zooloji kolleksiyaları istisna olmaqla, digər" sözləri əlavə edilsin;

14.2.2.9. aşağıdakı məzmunda 3.0.42-1-ci yarımbənd əlavə edilsin:

"3.0.42-1. aidiyyəti qurumlarla birlikdə Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində ekoloji sistemin qorunmasını təmin etmək;".

15. "Kökünün kəsilməsi təhlükəsi olan fauna və yabanı flora növlərinin beynəlxalq ticarət haqqında" Konvensiyaya qoşulmuş (CİTES) digər tərəflər və Katiblik ilə əlaqə saxlamaq üçün onun Azərbaycan Respublikasında inzibati orqanın təyin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 8 iyul tarixli 188 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 441 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

15.1. adı aşağıdakı redaksiyada verilsin:

"Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiyaya (CITES) qoşulmuş digər tərəflər və Katibliklə əlaqə saxlamaq üçün Azərbaycan Respublikasında inzibati orqanın təyin edilməsi haqqında";

15.2. preambulada "CİTES" akronimi "CITES" akronimi ilə əvəz edilsin;

15.3. 1-ci hissəyə "Nazirliyi" sözündən sonra ", balıq və digər su bioresurslarına münasibətdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri əlavə edilsin.

16. "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında Konvensiya" üzrə Azərbaycan Respublikasının elmi orqanlarının təyin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 may tarixli 1472 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 448 (Cild I) 1-ci hissəsində "Ekologiya və Təbii Sərvətlər Nazirliyi (nərə cinsli balıq növləri üzrə)" sözləri "Kənd Təsərrüfatı Nazirliyi (balıq və digər su bioresursları üzrə)" sözləri ilə, "Milli Elmlər Akademiyası" sözləri "Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

17. "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 722 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 383 (Cild I); 2024, № 12 (II kitab), maddə 1359; 2025, № 6, maddə 541) ləğv edilsin.

18. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Fərmanın 15-ci və 16-cı hissələri nəzərə alınmaqla, balıq və digər su bioresurslarına münasibətdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin inzibati və elmi orqan, digər vəhşi fauna və yabanı flora növlərinə münasibətdə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyininelmi orqan təyin edilməsi barədə İsveçrə Konfederasiyası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 avqust 2026-cı il*

## "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187, № 12 (II kitab), maddə 1351; 2025, № 1, maddə 1, № 2, maddə 101, № 4 (I kitab), maddələr 318, 322, № 5, maddə 433, № 6, maddələr 521, 524, № 7, maddə 626, № 12 (I kitab), maddələr 1118, 1129; 2026, № 1, maddələr 8, 13, 20; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) 18.69-cu maddəsi aşağıdakı redaksiyada verilsin:

"18.69. Akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsinin verilməsinə görə - 70 manat.".

**Maddə 2.** "Lisenziyalar və icazələr haqqında"Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632 (Cild I); 2024, № 6 (I kitab), maddə 631, № 7, maddələr 747, 751, № 8, maddə 933; 2025, № 1, maddə 16, № 3, maddə 215, № 4 (I kitab), maddə 314, № 5, maddə 433, № 6, maddə 524, № 7, maddə 626, № 8, maddə 733; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) 3 nömrəli əlavə - "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 16-cı maddəsinə "bileti" sözündən sonra ", akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsi" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

## Xarici işlər naziri Ceyhun Bayramov Malayziyanın yeni səfiri ilə görüşüb

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Malayziyanın ölkəmizdə yeni təyin olunmuş səfiri Aznifah İsnariah Binti Abdul Ghani ilə görüşüb.



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir səfiri təyinatı münasibətilə təbrik edərək, ona Azərbaycandakı diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə Azərbaycan-Malayziya ikitərəfli münasibətlərinin cari vəziyyəti və inkişaf perspektivləri, eləcə də çoxtərəfli əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Bu çərçivədə, iqtisadi-ticarət, turizm, təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran istiqamətlər üzrə birgə səylərin artırılması imkanları nəzərdən keçirilib. Azərbaycanın tranzit-logistika imkanları və enerji təhlükəsizliyində rolu müzakirə olunub.

Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa toxunan nazir Ceyhun Bayramov BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və D-8 çərçivəsində Azərbaycan və Malayziyanın bir-birini qarşılıqlı dəstəkləməsinin əhəmiyyətini vurğulayıb. Bu kontekstdə, ölkələrimiz arasında mövcud dostluq münasibətlərinin çoxtərəfli platformalarda qarşılıqlı dəstək və həmrəyliklə də müşayiət olunduğu qeyd edilib.

Söhbət zamanı cari ildə Bakıda keçiriləcək Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Zirvə görüşünə hazırlıq məsələləri müzakirə edilib, Azərbaycanın 2027-ci ildə İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Zirvə görüşünə evsahibliyi edəcəyi diqqətə çatdırılıb.

Görüşdə nazir Ceyhun Bayramov, həmçinin bölgədə mövcud vəziyyət, postmünaqişə dövründə həyata keçirilən bərpa və yenidənqurma işləri barədə qarşı tərəfə məlumat verib.

Səfir səmimi qəbula görə təşəkkürünü ifadə edib, diplomatik fəaliyyəti müddətində Azərbaycan və Malayziya arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycanın xarici işlər nazirinin müavini İslam Əməkdaşlıq Təşkilatının fövqəladə iclasında iştirak edib

Avqustun 27-də Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev İslam Əməkdaşlıq Təşkilatının (İƏT) xarici işlər nazirləri şurasının 23-cü fövqəladə iclasında iştirak edib.




Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində yerləşən İƏT-in mənzil qərargahında baş tutmuş fövqəladə iclasın gündəliyində təşkilatın yeni baş katibinin seçilməsi, eləcə də Fələstin və Əl-Qüds Əş-Şərif məsələləri yer alıb.

Tədbirin əvvəlində İƏT-in yeni baş katibinin seçilməsi ilə bağlı müvafiq qərar yekdilliklə qəbul edilib. Qərara əsasən, müvafiq vəzifəyə yeganə namizəd olan Mavritaniya İslam Respublikasının sabiq xarici işlər naziri İsmayıl Uld Şeyx Ahmed İƏT-in yeni baş katibi seçilib.

İclasda çıxış edən Y.Rəfiyev yeni baş katibi təyinat münasibətilə təbrik edərək fəaliyyəti müddətində ona Azərbaycan Respublikası tərəfindən tam dəstək veriləcəyini ifadə edib. Eyni zamanda İƏT baş katibi kimi müddəti başa çatmış Hissein Brahim Tahaya ötən müddət ərzində göstərmiş olduğu səmərəli fəaliyyətə görə təşəkkür olunub.

Çıxışda İƏT-in mühüm beynəlxalq təsisat kimi inkişaf perspektivlərinə və qarşısında duran vəzifələrə toxunulub. Nazir müavini ölkəmizin 2027-ci ildə İƏT Dövlət və Hökumət Başçıları Zirvəsinə evsahibliyi edəcəyini və quruma sədrlik edəcəyini xatırladaraq, təşkilatın maraqları və üzv dövlətlər arasında əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində yeni baş katiblə yaxından işləyəcəyini bildirib.

İclasın gündəliyində duran Fələstin məsələsinə dair Azərbaycanın dəyişməz və prinsipial mövqeyi, beynəlxalq hüququn aliliyinə hörmətin əhəmiyyəti, habelə ölkəmiz tərəfindən Fələstin xalqına xüsusilə təhsil və səhiyyə sahəsində göstərilmiş yardımlar qeyd edilib. Y.Rəfiyev Fələstin Baş naziri Məhəmməd Mustafanın cari ilin iyul ayında ölkəmizə baş tutmuş rəsmi səfərinin iki ölkə arasında iqtisadi əməkdaşlıq sahəsində yeni imkanlar açdığını nəzərə çatdırıb.

## "Orta dəhliz dünya üçün əhəmiyyətlidir"

Uzun illər sovetlər birliyinin tərkibinə daxil olan "müttəfiq" subyektlər, o cümlədən Azərbaycan və Mərkəzi Asiya respublikaları dünyaya inteqrasiyadan kənarda qalmışlar. Onlar yalnız müstəqilliklərinə qovuşduqdan sonra qlobal səviyyədə siyasi, iqtisadi və logistik əhəmiyyət qazanmağa başlamışlar. İndi qlobal logistikada önəmli rol oynayan Orta dəhlizin səmərəliliyi bu ölkələrdən asılıdır.

Artıq dünya Orta dəhlizin geosiyasi və geoiqtisadi əhəmiyyətini dərk etməyə başlayıb. O səbəbdən aparıcı dövlətlər və Avropa İttifaqı kimi nüfuzlu regional təşkilat Orta dəhlizin inkişafında yaxından iştirak etməyə qərar verib.

Orta dəhliz təkcə iqtisadi və logistika əhəmiyyətinə görə deyil, siyasi əhəmiyyətinə görə də böyük güclərin maraq dairəsindədir. İndiki qlobal geosiyasi münasibətlərdə beynəlxalq ticarət marşrutları xüsusi əhəmiyyət kəsb edir. Odur ki, Orta dəhlizə nəzarət uğrunda Rusiya, Çin, İran və Amerika arasında gərgin mübarizə gedir, baxmayaraq ki, Şimal və Cənub qonşularımız dəhlizə nəzarət uğrundakı mübarizədə Çin və ABŞ-yə uduzmuşlar.

Orta dəhlizin Gürcüstan vasitəsi ilə Avropaya çıxışı artıq təmin olunub. Qalır açılacağına heç bir şübhə qalmayan Zəngəzur dəhlizi (TRIPP). Bəs bu dəhlizin ölkəmiz üçün əhəmiyyəti nədir və onun açılması üçün niyə təkid edirik? Birincisi, bu, Azərbaycanın milli marağı ilə bağlıdır. Məlum olduğu kimi, tarixi ədalətsizlik üzündən Azərbaycanın bir hissəsi olan Naxçıvan əsas ərazidən ayrı düşüb. Sovetlər birliyi dönəmində Ermənistanla bir ölkənin tərkibində olduğumuz üçün bu "ayrılıq" problem yaratmırdı. Amma SSRİ-nin dağılması regionumuzda yeni vəziyyətin yaranmasına səbəb oldu. Üstəlik, Qarabağ və Zəngəzur dəhlizinə (TRIPP) gedən yollar işğal edildi. Yalnız 44 günlük tarixi Zəfərdən sonra regionda vəziyyət Azərbaycanın xeyrinə dəyişdi. Biz ilk növbədə milli maraqlarımızı təmin etdik. Digər tərəfdən, bununla qlobal əhəmiyyətli bir layihənin yaranmasına imza atmış olduq.

Zəngəzur dəhlizi (TRIPP) təkcə dəmir və avtomobil yolları ilə yük daşımaqla kifayətlənməyəcək. Bu qısa məsafəli bir keçid qlobal əhəmiyyətli kommunikasiya bağlantısı olacaq. Prezident İlham Əliyev Naxçıvanda televiziyaya verdiyi müsahibəsində demişdir: "...bu gün bizim enerji xətlərimiz Rusiya ilə, İranla, Gürcüstanla, Gürcüstan vasitəsilə Türkiyə ilə birləşdirilib. Ona görə Ermənistan ərazisindən Naxçıvana, ondan sonra Türkiyəyə və Avropaya uzanacaq enerji dəhlizi, eyni zamanda Ermənistanın enerji sisteminin ayaqda qalmasına, - əgər böhran yaranarsa, - imkan yaradacaq. Ona görə biz bunu nə qədər tez icra etsək, o qədər yaxşıdır... Amma Ermənistan təbii ki, özü bunu etməlidir. Ona görə hesab edirəm ki, bu məsələyə tezliklə aydınlıq gətirilməlidir. Bu, Zəngəzur dəhlizinin, TRIPP-ın ayrılmaz hissəsi olacaq. Çünki bu layihə təkcə dəmir yolu, avtomobil yolu deyil. Hətta buradan fiber-optik kabel, ondan sonra elektrik xətləri, gələcəkdə əgər ehtiyac olarsa, neft-qaz kəmərləri də keçə bilər".

Zəngəzur dəhlizinin (TRIPP) açılması Orta dəhliz üzərindən yükdaşımanın həcmini artırmaqla yanaşı, logistikada əlavə imkanlar da yaradacaq. Əvvəla, bu qısa yol ölkəmizin beynəlxalq əhəmiyyətli qovşaq ölkə kimi statusunu artıracaq. İkincisi, böyük bir coğrafiyanın vahid iqtisadi və geosiyasi məkana çevrilməsini təmin edəcək, türk dövlətləri arasında iqtisadi, siyasi və mədəni əlaqələri gücləndirəcək. Eyni zamanda geniş bir geoiqtisadi məkanda investisiya imkanlarını artıracaq. Türk İnvestisiya Fondunun (TİE) prezidenti Bağdad Amreyevin bildirdiyi kimi, Orta dəhlizə yalnız dəmir yolu marşrutu və ya konteynerlərin Çindən Avropaya daşınan əlverişli marşrut kimi baxmaq lazım deyil: "Dünyanın ümid bəslədiyi bu qlobal ticarət marşrutuna maraq artdıqca dəhlizlə bağlı bütün planlar həll olunacaq. Ona görə ki, Orta dəhliz təkcə region ölkələrinin marağında olan marşrut deyil, dünya üçün əhəmiyyətlidir".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya



Hörmətli xanım zati-aliləri!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gün Sizin yüksək insani keyfiyyətlərinizə, xalqın mənafeyi naminə çoxşaxəli fəaliyyətinizə və xeyirxah işlərinizə dərin hörmətimi, səmimi ehtiramımı bir daha ifadə etmək üçün gözəl imkandır.

Dövlət məsuliyyətini analıq məhəbbəti və ailə dəyərləri ilə ahəngdar şəkildə həyata keçirən Sizin kimi müdrik rəhbərin nəcib keyfiyyətləri xüsusi təqdirə layiqdir.

Özbəkistanda keçirilmiş görüşümüz məndə unudulmaz və xoş təəssüratlar yaratdı. Söhbət zamanı bir daha Sizin səmimiyyətinizin, ölkəmizə məhəbbətinizin şahidi oldum.

Fürsətdən istifadə edərək Sizə uzun ömür, möhkəm cansağlığı, məsuliyyətli fəaliyyətinizdə böyük uğurlar, ailə səadəti arzulayıram. Doğma evinizdən firavanlıq və bərəkət, qəlbinizdən rahatlıq və hüzur əskik olmasın.

Əzizlərinizin və bütün Azərbaycan xalqının sonsuz sevgisi Sizə tükənməz güc və ilham versin.

*Səmimi ehtiramla,*

***Saida MİRZİYOYEVA,***
***Özbəkistan Respublikası Prezidenti Administrasiyasının rəhbəri***

❖ ❖ ❖

Çox hörmətli Mehriban xanım!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir, cansağlığı, ailə səadəti, işlərinizdə uğurlar arzulayıram.

Siz şərəfli və xalqımız üçün önəmli olan həyat yolu keçmisiniz. Sizin çoxşaxəli fəaliyyətiniz nəticəsində ölkəmizin mənəvi, mədəni və sosial həyatında, şəhərlərimizin və xüsusən paytaxtımız Bakının inkişafında böyük dəyişikliklər baş verir.

Bu gün Siz müasir dünyanın və xüsusən iqtisadiyyatın tərəqqisi üçün vacib olan informasiya texnologiyalarının Azərbaycanda inkişafına rəhbərlik edirsiniz. Bunlar Sizin dərin intellektinizdən, müasir düşüncənizdən və dünyada gedən prosesləri diqqətdə saxlamağınızdan xəbər verir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin müxtəlif bölgələrində həyata keçirilən işlərdə Sizin xüsusi xidmətiniz var. Bu yaxınlarda cənab Prezidentlə birlikdə Naxçıvana səfəriniz, bu gün Qarabağdan ucalan və hər kəsi valeh edən muğam səsləri, Şuşa şəhərində keçirilən və Azərbaycan xalqının mədəni dəyərlərini dünyaya tanıdan silsilə tədbirlər Sizin davamlı fəaliyyətinizin nəticəsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə Özbəkistana səfəriniz zamanı islam mədəniyyətinin dəyərlərinə göstərdiyiniz maraq, ölkəmizin mədəni-mənəvi irsini növbəti dəfə dünyaya tanıtmağınız bir daha Sizin daxili dünyanızın zənginliyindən xəbər verir.

Hörmətli Mehriban xanım, Sizi doğum gününüz münasibətilə bir daha ürəkdən təbrik edir, ölkəmiz naminə gördüyünüz çox mühüm işlərdə böyük müvəffəqiyyətlər diləyirəm.

*Dərin hörmətlə,*

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin baş katibi***

❖ ❖ ❖

Hörmətli Mehriban Arif qızı!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Doğma Vətəninin əsl vətənpərvəri, böyük hərflə yazılan həkim, dünyanı yaxşılığa doğru dəyişmək bacarığına malik əsl passionar kimi Siz hər zaman insanların rifahı naminə çalışır, tibbin, elmin, ali təhsilin və dövləti fəaliyyətin yüksək ideallarına xidmət edirsiniz.

Siz peşəkar yolunuza Seçenov Universitetinin divarları arasından başlayaraq, alma-materinizə sadiq qalırsınız. Sizin qətiyyətiniz, müdrikliyiniz və fəal mövqeyiniz sayəsində artıq bir neçə nəsil gənc mütəxəssis, - Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının məzunları, - Azərbaycanın səhiyyə sistemində çalışır və ölkədə gələcəyin səhiyyəsini formalaşdırırlar.

Qoy növbəti il Sizə yeni peşəkar qələbələr və bütün təşəbbüslərinizdə uğurlar gətirsin.

Sizə işlərinizdə yeni nailiyyətlər, möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

❖ ❖ ❖

Əzizimiz Mehriban xanım!

Sizi Dünya Azərbaycanlı Alimlər Birliyinin bütün üzvləri adından və şəxsən öz adımdan doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin həyat amallarınız, humanistliyiniz, nəcibliyiniz, Azərbaycan elminin hər bir sahəsinin inkişafı üçün gördüyünüz çox əhəmiyyətli işlər biz xaricdə yaşayan azərbaycanlı alimlərin Vətənimizlə bağlılığını daha da gücləndirir.

Almaniyada və Azərbaycanda müxtəlif dövlət tədbirləri zamanı Sizinlə bir araya gəlmiş şəxs olaraq deyə bilərəm ki, tanıdığımız Nobel mükafatı laureatlarının siyasi xadim və nəcib şəxsiyyət kimi haqqınızda söylədikləri xoş sözlər hamımız üçün qürur mənbəyidir.

Sizin bu günlərdə möhtərəm Prezidentimiz İlham Əliyevlə birlikdə Özbəkistana səfəriniz zamanı iştirak etdiyiniz tədbirlər, sözün əsl mənasında, bir tarixdir. Bu həm də cənab Prezidentimizin dediyi kimi türk millətləri ailəmizə çox böyük töhfədir.

Hörmətli Mehriban xanım, Sizi doğum gününüz münasibətilə bir daha təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, fəaliyyətinizdə davamlı uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Məsud ƏFƏNDİYEV,***
***Dünya Azərbaycanlı Alimlər Birliyinin sədri, Azərbaycanın Əməkdar elm xadimi, Almaniya hökumətinin təsis etdiyi "Aleksander fon Humboldt" mükafatını alan ilk azərbaycanlı, Kanadanın Fields İnstitutunun ömürlük mükafatçısı, professor***

❖ ❖ ❖

Əziz və çox hörmətli Mehriban xanım!

"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının üzvləri olan soydaşlarımız adından və şəxsən öz adımdan doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuruq.

Müasir Azərbaycanın dövlət idarəçiliyində, sosial, humanitar və mədəni inkişafında, ölkəmizin beynəlxalq nüfuzunun daha da möhkəmləndirilməsində mühüm və əvəzsiz xidmətlərinizi qeyd etmək bizim üçün çox dəyərlidir.

Ulu Öndərimiz Heydər Əliyevin vəsiyyətlərinin yerinə yetirilməsində cənab Prezident İlham Əliyevlə birlikdə Azərbaycanımızda və onun hüdudlarından kənarda gördüyünüz genişmiqyaslı işlər, həyata keçirdiyiniz humanist və xeyriyyəçilik fəaliyyəti, milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə, təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrin inkişafına verdiyiniz töhfələr dünya səviyyəsində yüksək qiymətləndirilir.

Çox hörmətli Mehriban xanım, fürsətdən istifadə edərək Sizi doğum gününüz münasibətilə bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və Azərbaycan naminə şərəfli fəaliyyətinizdə uğurlar arzulayırıq.

*Dərin hörmətlə,*

***Arif QULİYEV,***
***"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının rəhbəri, hüquq elmləri doktoru, professor, diplomat, Ukraynanın Əməkdar təhsil işçisi, Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki***

❖ ❖ ❖

Xanım Birinci vitse-prezident!

Doğum gününüz münasibətilə Sizə Amerika Birləşmiş Ştatları adından səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Keçən il biz Amerika Birləşmiş Ştatları və Azərbaycan arasında əməkdaşlığın ölkələrimizin diplomatik münasibətlərinin qurulmasından etibarən ən yüksək səviyyəyə çatmasının şahidi olduq.

Prezident Donald Tramp tərəfindən 2025-ci ilin avqust ayında Ağ Evdə keçirilən sammit üç onillik ərzində davam edən münaqişədən sonra regionda davamlı sülhün əsasını qoydu və ikitərəfli əlaqələrimizdə yeni dövrə doğru ilk addım oldu. O vaxtdan bəri biz ABŞ-Azərbaycan əlaqələrini fevral ayında Bakıda vitse-prezident Cey. Di. Vensin və Prezident İlham Əliyevin imzaladıqları xartiya ilə strateji tərəfdaşlığa yüksəltmişik. Vitse-prezident Cey. Di. Vens və Prezident İlham Əliyevlə birlikdə Sizinlə həmin tarixi gündə tədbirdə iştirak etmək mənim diplomatik karyeramın artıq ən xoş xatirələrindən biridir.

Amerika Birləşmiş Ştatları və Azərbaycan arasında ticarət, mədəniyyət, təhsil və təhlükəsizlik əlaqələrinin inkişaf etməsinə çalışdığımız bir vaxtda keçən il ərzində hər iki istiqamətdə yüksəksəviyyəli rəsmilərin misli görünməmiş sayda səfərlərinin şahidi olduq.

Ölkələrimizin qarşılıqlı faydası naminə ABŞ-Azərbaycan münasibətlərinin möhkəmləndirilməsi istiqamətində birgə əhəmiyyətli fəaliyyətimizin davam edəcəyinə ümidvaram. Bir daha Sizə və ailənizə qarşıdan gələn illərdə cansağlığı və xoşbəxtlik arzulayıram.

*Səmimiyyətlə,*

***Emi KARLON,***
***Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkili***

❖ ❖ ❖

Hörmətli Mehriban xanım!

Doğum gününüz münasibətilə Argentinanın Azərbaycandakı səfirliyi adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram. Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik, tükənməz enerji, həmçinin ölkəniz və Azərbaycan xalqı naminə göstərdiyiniz səylərdə davamlı uğurlar arzulayıram.

Azərbaycan Respublikası Hökuməti ilə Argentina Respublikasının Azərbaycandakı səfirliyi arasında davamlı və səmərəli əməkdaşlığa görə də Sizə səmimi təşəkkürümü bildirirəm. Biz ölkələrimiz arasında əməkdaşlığın yeni sahələrində uğurlardan şad olarıq.

Hörmətli Mehriban xanım, Sizə dərin hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Marianxeles BELLUŞİ,***
***Argentina Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri***



# Azərbaycan regionun strateji və geoiqtisadi mərkəzinə çevrilib

## Ölkəmiz Avropa ilə Asiya arasında əməkdaşlığın inkişafına yüksək töhfə verir

**Çağdaş dövrün siyasi və iqtisadi prosesləri Avrasiya qitəsində yeni reallıqlar formalaşdırır. Bu reallıqların mərkəzində Cənubi Qafqazın lider dövləti olan Azərbaycanla sürətlə inkişaf edən Mərkəzi Asiya regionunun keyfiyyətcə yeni mərhələyə qədəm qoyan tərəfdaşlıq münasibətləri dayanır. Son illərdə Azərbaycanın Mərkəzi Asiya respublikaları ilə həyata keçirdiyi yüksəksəviyyəli siyasi dialoq, iqtisadi-ticarət əlaqələrinin şaxələndirilməsi, birgə investisiya fondlarının yaradılması və mədəni-humanitar inteqrasiya bütövlükdə Mərkəzi Asiya və Cənubi Qafqaz regionunun aparıcı güc mərkəzlərinə çevrilməsinə təkan verir.**

Azərbaycan Mərkəzi Asiya regionunun hər bir ölkəsinin iqtisadi potensialının reallaşmasında, dənizə çıxışı olmayan bu dövlətlərin qlobal bazarlara inteqrasiyasında əhəmiyyətli mövqeyə sahibdir. Coğrafi baxımdan iki müxtəlif regionu bir-birindən ayıran su hövzəsi kimi görünən Xəzər dənizi, əslində, Azərbaycanla Mərkəzi Asiya regionunu birləşdirir. Tarixən Şərqlə Qərb arasında sivilizasiyaların qovuşduğu dəniz yolları müasir logistika və nəqliyyat infrastrukturunun mərkəzi arteriyasına çevrilib. Xəzər dənizi üzərində qurulan müasir bərə keçidləri, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, həmçinin Qazaxıstanın Aktau, Kurık və Türkmənistanın Türkmənbaşı limanları arasında formalaşan effektiv şəbəkə iki sahili vahid geoiqtisadi məkanda birləşdirir. Bu təbii və strateji körpü Mərkəzi Asiya dövlətlərinin zəngin karbohidrogen resurslarının, kənd təsərrüfatı və sənaye məhsullarının ən qısa, təhlükəsiz və səmərəli yolla dünya bazarlarına çatdırılmasına şərait yaradır.

Mərkəzi Asiya ölkələrinin Avropaya çıxışında, Şərqlə Qərbi birləşdirən qlobal nəqliyyat dəhlizlərinin fəal iştirakçısına çevrilməsində Azərbaycanın aparıcı rolu və mövqeyi danılmazdır. Ölkəmiz Orta dəhliz (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) və onun əsas komponentləri sayəsində Avropa ilə Mərkəzi Asiya arasında etibarlı körpü rolunu oynayır, tərəfdaşlarına təhlükəsiz və ən səmərəli nəqliyyat dəhlizi imkanları təklif edir. Bakı-Tbilisi-Qars dəmir yolunun yükdaşıma imkanlarının illik 1 milyon tondan 5 milyon tona çatdırılması istiqamətində tamamlanan genişləndirmə işləri, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının hazırda 15 milyon ton təşkil edən illik yükaşırma gücünün gələcəkdə 25 milyon tona çatdırılmasının nəzərdə tutulması və Xəzərdə ən böyük ticarət donanmasının yaradılması məhz bu strateji məqsədə xidmət edir.

Bununla yanaşı, Zəngəzur dəhlizinin (TRIPP marşrutu) fəaliyyətə başlaması yönündə atılan ardıcıl tədbirlər Orta dəhlizin iqtisadi potensialını maksimal həddə çatdırmağı hədəfləyir. Zəngəzur dəhlizi (TRIPP) istifadəyə verildikdə bu marşrutun keçid qabiliyyəti daha da artacaq, yükdaşımaların vaxtı və xərcləri kəskin azalacaq. Bu isə Mərkəzi Asiyanın ixracatçı ölkələri üçün əlavə və olduqca cəlbedici alternativ marşrut yaradacaq.

Şərqlə Qərb arasında yeni iqtisadi imkanlar açan bu qlobal nəqliyyat layihələrinin geostrateji əhəmiyyətini Prezident İlham Əliyev avqustun 21-də Özbəkistanın Milli İnformasiya Agentliyinə müsahibəsində xüsusi olaraq vurğulayıb: "Əməkdaşlığımız, xüsusən də nəqliyyat və logistika sahəsində qarşılıqlı fəaliyyətimiz böyük perspektivlər vəd edir. Azərbaycanın Cənubi Qafqazda, Özbəkistanın isə Mərkəzi Asiyada mövqeyi ölkələrimizi Şərqlə Qərbi birləşdirən mühüm strateji marşrutlarda təbii tərəfdaşlara çevirir. Bu baxımdan Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin Orta dəhliz və TRIPP ilə inteqrasiyası bütün region üçün yeni iqtisadi və tranzit imkanları yaradacaq".

Bütün bu layihələr və təşəbbüslər nəticəsində Mərkəzi Asiya və Cənubi Qafqaz regionları Avrasiyanın yeni iqtisadi arxitekturasında tamamilə ön plana çıxır. Əvvəllər yalnız resurs tədarükçüsü kimi baxılan bu coğrafiyalar artıq qlobal təchizat zəncirinin aparıcı qovşağına, Şərqlə Qərb arasında nəqliyyat və enerji axınlarını tənzimləyən əsas strateji mərkəzə çevrilir. Bu proses təkcə tranzit gəlirlərinin artması ilə bitmir, həm də region ölkələrində yeni sənaye zonasının formalaşmasına, birgə istehsal müəssisələrinin qurulmasına geniş zəmin yaradır.

İqtisadi və logistik tərəfdaşlığın davamı olaraq, Mərkəzi Asiya ilə Azərbaycan arasında getdikcə dərinləşən "yaşıl enerji" və rəqəmsal infrastruktura dair layihələr də gələcək mənzərəni formalaşdıran mühüm amillərdəndir. Xüsusilə Qazaxıstan, Özbəkistan və Azərbaycan arasında imzalanmış bərpaolunan enerjinin Xəzər dənizinin dibi ilə nəqlinə dair strateji razılaşmalar Mərkəzi Asiyanın ekoloji təmiz elektrik enerjisinin Cənubi Qafqaz vasitəsilə Avropaya ixracına yol açır. Eyni zamanda Xəzərin dibi ilə çəkilən optik-lifli kabel xətləri, yəni "Rəqəmsal İpək Yolu" proqramı region ölkələrinin rəqəmsal inteqrasiyasını təmin edərək Asiya ilə Avropa arasında ən qısa və yüksəksürətli məlumat ötürülməsi marşrutunu formalaşdırır. Azərbaycan Mərkəzi Asiya üçün təkcə fiziki yüklərin daşındığı nəqliyyat qovşağı deyil, həm də gələcəyin "yaşıl" və rəqəmsal texnologiyalarını Avropa ilə qovuşduran mərkəz rolunu oynayır.

Əlbəttə, belə irimiqyaslı geoiqtisadi dəyişikliyi reallaşdırmaq üçün ilk növbədə uzaqgörənlik, siyasi iradə və qətiyyət əsas şərtlərdəndir. Məhz Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi müstəqil siyasi kurs ölkəmizin regionda və dünyada etibarlı tərəfdaş statusunu ən yüksək zirvəyə qaldırıb. Dövlətimizin başçısının Mərkəzi Asiya dövlətlərinin rəhbərləri ilə qurduğu şəxsi dostluq, qarşılıqlı etimad və müntəzəm səfərlər iqtisadi-siyasi inteqrasiyanın əsas hərəkətverici qüvvəsidir. Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşlərinə tamhüquqlu üzv kimi qoşulması, bu platformada fəal iştirakı ölkəmizin region üçün nə qədər əhəmiyyət kəsb etdiyinin bariz göstəricisidir. Bu çərçivədə Azərbaycanın Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və Tacikistanla imzaladığı müttəfiqlik sazişləri, ticarət-iqtisadi işbirliyi haqqında anlaşmalar tərəfdaşlığın hüquqi bazasını təşkil edir. Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində daha da möhkəmlənən əlaqələr bu iqtisadi və siyasi platformaya mənəvi ruh qazandırır.

Bu gün dünyanın ən böyük qlobal iqtisadi gücləri, o cümlədən Avropa İttifaqı ölkələri Azərbaycanla münasibətlərə böyük önəm verir, ölkəmizi Avrasiyanın təhlükəsizlik və nəqliyyat xəritəsində əvəzsiz mərkəz kimi qəbul edirlər. Avropanın enerji təhlükəsizliyində dönüş nöqtəsi olan strateji tərəfdaşlıq sənədləri, eləcə də Avropa İttifaqı liderlərinin, qitənin aparıcı dövlət rəhbərlərinin ölkəmizə intensiv səfərləri və yüksəksəviyyəli görüşlər Azərbaycanın aparıcı mövqeyinin beynəlxalq miqyasda etirafı və təsdiqidir. Avropa dövlətlərinin təmsilçiləri yaxşı anlayırlar ki, Mərkəzi Asiya bazarlarına və resurslarına çıxışın yeganə şaxələndirilmiş, təhlükəsiz və dayanıqlı marşrutu məhz Azərbaycanın formalaşdırdığı geoiqtisadi şəbəkədən keçir.

Beləliklə, Prezident İlham Əliyevin uzaqgörən siyasi kursu və rəhbərliyi altında Azərbaycan yalnız Cənubi Qafqazın deyil, bütövlükdə Mərkəzi Asiyanı da əhatə edən böyük bir coğrafiyanın inkişaf, sabitlik və tərəqqi mərkəzinə çevrilməsini təmin edir. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında möhkəmlənən tərəfdaşlıq bütövlükdə Avrasiya qitəsinin iqtisadi təhlükəsizliyinə və inkişafına xidmət edir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# *Azərbaycan XİN-dən Rusiyaya çağırış:*
# Səfirlik qarşısındakı təxribat hərtərəfli araşdırılmalıdır

Avqustun 27-də günorta radələrində Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyinin qonaq evi qarşısında naməlum şəxslər tərəfindən ölkəmiz əleyhinə təxribat xarakterli şəkillərin yerləşdirilməsini qətiyyətlə pisləyirik.

AZƏRTAC xəbər verir ki, bu sözlər Azərbaycanın Xarici İşlər Nazirliyinin bəyanatında yer alıb.




Bəyanatda deyilir: "Bu qəbuledilməz təxribatın Azərbaycan-Rusiya münasibətlərinin süni şəkildə gərginləşdirilməsinə xidmət etməklə yanaşı, son dövrlərdə Rusiyanın bir sıra media resurslarında Azərbaycana qarşı aparılan çirkin və qərəzli kampaniyanın tərkib hissəsi olduğu istisna edilmir.

Azərbaycan tərəfi Rusiya Federasiyasının aidiyyəti qurumlarını bu kimi təxribatçı əməllərə lazımi hüquqi qiymət verməyə, insidentin hərtərəfli araşdırılmasını təmin etməyə və bu cür halların təkrarlanmasının qarşısını almaq üçün zəruri tədbirlər görməyə çağırır.

Rusiya tərəfinin 1961-ci il Diplomatik Münasibətlər haqqında Vyana Konvensiyasına uyğun olaraq Azərbaycan Respublikasının Səfirliyinin və onun əməkdaşlarının təhlükəsizliyinin lazımi səviyyədə təmin edilməsinə, habelə diplomatik nümayəndəliyin normal fəaliyyətinə mane ola biləcək hər hansı təxribatçı hərəkətlərin qarşısının alınmasına dair öhdəliklərini tam şəkildə yerinə yetirməsini gözləyirik".

# Müttəfiqlik ruhuna zidd davranışlar yolverilməzdir

## Rusiya rəsmiləri Azərbaycana qarşı təxribatların qarşısını almalı, qərəzli kampaniyalara imkan verməməlidirlər

Azərbaycanın beynəlxalq müstəvidə artan nüfuzu, ərazi bütövlüyünü və suverenliyini tam bərpa edərək regional liderliyini möhkəmləndirməsi, eləcə də müstəqil xarici siyasət yürütməsi bəzi xarici dairələrdə ciddi təşvişə səbəb olub.



Ölkəmizin milli maraqlara söykənən müstəqil siyasi kursu, Türkiyə ilə müttəfiqliyi, Avropa İttifaqı ilə strateji enerji tərəfdaşlığı və Mərkəzi Asiya dövlətləri ilə dərinləşən inteqrasiyası fonunda müəyyən çevrələrin narahatlığı və təxribata meyillənməsi diqqətdən yayınmır.

Təəssüf ki, dövlətlərarası münasibətləri bərabərhüquqlu tərəfdaşlıq müstəvisində qura bilməyənlər öz siyasi narazılıqlarını informasiya hücumları və diplomatik təxribatlar vasitəsilə nümayiş etdirməyə üstünlük verirlər. Bu qəbulolunmaz tendensiyanın növbəti təzahürü avqustun 27-də Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyinin qonaq evi qarşısında yaşanıb. Naməlum şəxslər tərəfindən diplomatik korpusumuzun önündə ölkəmiz əleyhinə təxribat xarakterli şəkillərin yerləşdirilməsi Azərbaycana qarşı çirkin kampaniyanın fiziki müstəviyə keçdiyini göstərir. Bu arzuolunmaz hadisə iki qonşu dövlət arasındakı münasibətlərə, müttəfiqlik əlaqələrinə zərbə vurmaqla yanaşı, diplomatik toxunulmazlıq prinsiplərinin və beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması deməkdir. Törədilən bu xoşagəlməz aksiya ilə bağlı Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi dərhal bəyanat yayaraq ölkəmiz əleyhinə yönəlmiş bu əməli qətiyyətlə pisləyib.

XİN-in bəyanatında haqlı olaraq vurğulanıb ki, bu qəbuledilməz təxribat Azərbaycan-Rusiya münasibətlərinin süni şəkildə gərginləşdirilməsinə xidmət edir. Şübhə yox ki, baş verənlər son dövrlərdə Rusiyanın bir sıra media resurslarında ölkəmizə qarşı aparılan çirkin, qərəzli kampaniyanın tərkib hissəsidir. Rəsmi Bakı Rusiya Federasiyasının aidiyyəti qurumlarını bu təxribatçı əməllərə lazımi hüquqi qiymət verməyə, insidentin hərtərəfli araşdırılmasını təmin etməyə və bu cür halların təkrarlanmaması üçün təxirəsalınmaz tədbirlər görməyə çağırıb. Bəyanatda həmçinin xatırladılıb ki, Rusiya tərəfi 1961-ci il Diplomatik Münasibətlər haqqında Vyana Konvensiyasına uyğun olaraq Azərbaycan Səfirliyinin və onun əməkdaşlarının təhlükəsizliyini lazımi səviyyədə təmin etməli, nümayəndəliyin normal fəaliyyətinə mane ola biləcək hər hansı təxribatçı hərəkətlərin qarşısının alınması üzrə öhdəliklərini tam şəkildə yerinə yetirməlidir.

Xarici İşlər Nazirliyinin bəyanatında qeyd edildiyi kimi, səfirlik qarşısındakı bu aksiya təsadüfi xarakter daşımır və son aylarda Rusiyanın media müstəvisində müşahidə olunan sistemli təxribatların ardıcıllığıdır. Xüsusilə iyul-avqust ayları ərzində "Çistota ponimaniya", "Spas", "Sputnik" kimi platformalarda İvan Knyazev, Semyon Uralov, Aleksey Çadayev və digər şəxslərin iştirakı ilə tirajlanan materiallarda Azərbaycanın konstitusiya quruluşuna, suverenliyinə və ərazi bütövlüyünə qarşı açıq təhdidlər səsləndirilib. Məhz bu cür informasiya hücumlarına cavab olaraq Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı səfiri Mixail Yevdokimov XİN-ə çağırılaraq rəsmi etiraz çatdırılıb. Azərbaycan Baş Prokurorluğu tərəfindən isə terrora çağırış və milli ədavətin qızışdırılması faktları üzrə cinayət işləri qaldırılaraq təxribatçılar beynəlxalq axtarışa verilib.

Eyni zamanda Azərbaycan Mətbuat Şurası bəyanat yayaraq vurğulayıb ki, ölkə mediası qonşu ölkələrlə bağlı məsələlərdə hər zaman peşəkar, etik və həssas mövqe nümayiş etdirdiyi halda, Rusiyanın media məkanında anti-Azərbaycan ritorikasının açıq müstəviyə çıxarılması dərin narahatlıq və narazılıq doğurur.

Rusiyada bəzi dairələrin istər media resurslarında, istərsə də diplomatik korpusumuzun önündə nümayiş etdirdiyi bu cür davranışlar iki ölkə arasında bəyan edilmiş strateji müttəfiqlik və tərəfdaşlıq münasibətlərinə tamamilə ziddir. Media məkanında və küçə müstəvisində idarə olunan bu cür təxribatların cəzasız qalması, rəsmi müstəvidə lazımi reaksiyanın verilməməsi həmin çevrələri daha da həvəsləndirir. Ona görə də Rusiya rəsmi dairələri, hüquq-mühafizə orqanları bu kimi arzuolunmaz və təxribatçı dairələrin qarşısını qətiyyətlə almalı, oxşar olayların təkrarlanmasına yol verməməlidirlər.

Unutmaq olmaz ki, yalnız qarşılıqlı hörmətə və suverenliyə söykənən dialoq dili dövlətlərarası münasibətlərin sağlam gələcəyini təmin edə bilər. Hər kəs əmin olsun ki, Azərbaycan dövləti öz müstəqil siyasi kursunu, ərazi bütövlüyünü və vətəndaşlarının təhlükəsizliyini hədəf alan heç bir təzyiq və təxribatı cavabsız qoymayacaq.

***İ.QOCAYEV,***
***"Azərbaycan"***

# Türkiyə regionda öz hüquq və maraqlarını qorumağa davam edəcək

"Yunanıstanın Rodos adasında pilotsuz uçuş aparatları bazası yaratmaq cəhdləri bu adanın beynəlxalq statusuna ziddir və regionda mehriban qonşuluq prinsiplərinə zərər vuracaq".

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyinin avqustun 27-də Ankarada yayımlanan bəyanatında deyilir.



Nazirlik Türkiyənin regionda öz hüquq və maraqlarını qorumağa davam edəcəyinə əminliyini ifadə edib. Bununla yanaşı, Ankara Afinanın "səhv praktikadan uzaqlaşmaq yolunda müsbət addım" kimi Karpatos adasından "Patriot" zenit-raket komplekslərini Krit adasına dislokasiya etmək barədə qərarını müsbət addım adlandırıb.

Türkiyə Yunanıstana məxsus demilitarizasiya edilmiş adaların statusunu dəqiq şəkildə tənzimləyən beynəlxalq sazişlərin qüvvədə olduğunu xatırladıb.

# Erməni faşizminin qanlı cinayəti - Ballıqaya qətliamı

**Ballıqaya qətliamı Azərbaycan xalqının yaddaşına yazılmış ən qanlı müharibə cinayətlərindən biridir. 1992-ci il avqustun 27-dən 28-nə keçən gecə erməni faşistləri tərəfindən Goranboy rayonunun Ballıqaya kəndində törədilən faciə, dinc əhaliyə - hərbi əməliyyatlardan uzaq olan çobanlara və onların ailələrinə qarşı planlaşdırılmış terror aktı idi.**



Laçından - doğma yurdlarından didərgin düşüb bu ərazidə alaçıqlarda məskunlaşan dinc sakinlərin yeganə məqsədi ailələrini dolandırmaq idi, lakin erməni terroru burada da onların yaxasını buraxmadı və bu məsum insanların istəklərini qanla boğdu.

### Dəhşətli faktlar

Ballıqayada gecə saatlarında baş verən qəfil hücum nəticəsində 24 dinc sakin amansızlıqla qətlə yetirilib, 9 nəfər isə ağır xəsarətlər alıb. Qətlə yetirilənlər arasında ən kiçiyi 6 aylıq körpə olmaqla 6 azyaşlı uşaq və 93 yaşlı qoca qadının olması faciənin tükürpərdici miqyasını ortaya qoyur. Qətliam nəticəsində 3 azyaşlı uşaq hər iki valideynini itirib. Ballıqaya qətliamı xüsusi amansızlıqla törədilib. Hürzaman Hümbətovanın 6 övladı ilə birlikdə diri-diri yandırılması, erməni faşizminin iç üzünü bir daha gözlər önünə sərir. Şahid ifadələrindən bəllidir ki, quldurlar əvvəlcə insanları güllələyib, sonra izləri itirmək üçün alaçıqları odlayıblar.

Qətliamın canlı şahidlərindən olan Züleyxa Abdullayevanın Hərbi Prokurorluğun Memorial Soyqırımı Muzeyinin arxivində saxlanılan şahid ifadəsində deyilir:

"1992-ci il 27 avqust tarixindən 28 avqust tarixinə keçən gecə saat 5 radələrində güllə səslərinə ayıldıq. Ailə üzvlərim və mən finski evin sol otağında yatmışdıq, sağ otaqda isə Vəzir Hümbətov və onun ailəsi qalırdı: 6 uşağı və yoldaşı. Ev hər tərəfdən müxtəlif silahlardan atəşə tutulurdu. Birdən Hümbətov Vəzirin ailəsinin qaldığı otağın yandığını gördüm. Atəş səsləri təxminən yarım saat davam etdi. Biz səsimizi çıxarmadıq deyə, təsadüf nəticəsində sağ qaldıq".

Altı övladı və həyat yoldaşı qətl edilən Vəzir Hümbətov yaşadığı faciəni, qətliamın dəhşətlərini sonradan mətbuatda belə dilə gətirib: "Hadisə baş verən gün mən Bərdə rayonunda, ailəmiz isə Ballıqayada idi. Mən Ballıqayaya gedəndə gördüm ki... əraziyə çoxlu insan yığılıb. Ermənilər alaçıqlardakı insanların hamısını qoca, qadın, uşaq demədən güllələyib qətlə yetirmişdilər. Bizim qaldığımız daxala da od vurulmuş, 6 uşağım və yoldaşım yanmışdı. Sonra məlum oldu ki, ermənilər əvvəlcə ailəmi güllələyib, sonra od vurub yandırıblar. Daxal yanıb tökülmüşdü cəsədlərin üstünə. Uşaqlarımın və yoldaşımın yanmış cəsədlərini külün içindən çıxarıb Ağdamın Güllücə kəndində dəfn etdik. Aradan bir müddət keçəndən sonra Güllücə kəndi də işğal olundu. Uşaqlarımın və yoldaşımın qəbirləri işğal olunan ərazidə qaldı..."

### Sistemli terror və beynəlxalq hüququn pozulması

Ballıqaya qətliamı Xocalı, Qaradağlı, Ağdaban kimi faciələrlə eyni xətt üzrə yürüdülən sistemli etnik təmizləmə siyasətinin tərkib hissəsidir. Bu əməllər beynəlxalq humanitar hüququn təməl prinsiplərini tamamilə tapdalayıb.

Ermənistan tərəfindən törədilmiş müharibə, insanlıq əleyhinə cinayətlər və soyqırımı aktları insan hüquqları və beynəlxalq humanitar hüququn, xüsusilə 1949-cu il Cenevrə Konvensiyası, Soyqırımı Cinayətinin Qarşısının alınması və Cəzalandırılması haqqında Konvensiya, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, İşgəncələrə və Digər Qəddar, Qeyri-insani, yaxud Ləyaqəti Alçaldan Davranış və Cəza növlərinə qarşı Konvensiya, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya, Uşaq Hüquqları haqqında Konvensiya və İnsan Hüquqlarının və Əsas Azadlıqların müdafiəsi haqqında Konvensiyanın ciddi şəkildə pozulmasıdır.

Ballıqaya qətliamı ilə bağlı materiallar, maddi sübutlar və faktlar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Memorial Soyqırımı Muzeyində saxlanılır.

Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş minlərlə soydaşımızın taleyi bu günə qədər də qaranlıqdır. Vətən müharibəsindən sonra Xocavəndin Edilli kəndində, Ağdam, Füzuli, Xocavənd və Şuşa şəhərinin ətraflarında, Xocalı rayonunun Fərrux kəndi ərazisində… kütləvi məzarlıqların aşkarlanması erməni faşizminin qanlı əməllərini gün üzünə çıxarıb. Ballıqayada qətlə yetirilənlərin bir çoxunun dəfn yerləri də təkrar işğal səbəbindən illərlə ziyarətsiz qalıb.

Lakin tarixi ədalət bərpa olundu, haqq öz yerini tapdı. 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ilin uğurlu anti-terror tədbirləri ilə Azərbaycan Ordusu otuzillik işğala və separatizmə birdəfəlik son qoydu. Ballıqayada, Xocalıda, Ağdabanda, Başlıbeldə və daha neçə-neçə ərazilərimizdə qətl edilən körpələrin, qadınların və qocaların qanı yerdə qalmadı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu onların qisasını döyüş meydanında aldı.

Azərbaycan öz torpaqlarını azad etməklə həm də ədaləti tam bərpa etdi. İllər boyu mülki əhaliyə qarşı qətliamlar törədən, insanlıq əleyhinə cinayətlərin başında duran erməni caniləri və separatçı rejimin rəhbərləri Azərbaycan qanunları və məhkəməsi qarşısında cavab verdilər. Bir zamanlar günahsız insanların fəryadına qulaq tıxayanlar, Bakıda qurulan ədalət məhkəməsində törətdikləri əməllərə görə sorğulandılar…

Bu gün Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq işləri aparılır, yenidən həyat canlanır. Ballıqaya faciəsinin qurbanlarının və bütün şəhidlərimizin ruhu rahatdır - çünki onların əmanət qoyduğu torpaqlarda artıq düşmən izləri yoxdur, Azərbaycan bayrağı dalğalanır və bu torpaqların əsl sahibləri məğrur şəkildə öz doğma ocaqlarına qayıdırlar.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Tarix üzərində yeni şəhərlər salınır

"Şəhərsalma və Memarlıq İli" elan edilmiş 2026-cı ildə ölkəmizin işğaldan azad edilmiş ərazilərində - Qarabağ və Şərqi Zəngəzurda tikinti və quruculuq işləri sürətlə davam edir. Qədim və zəngin memarlıq ənənələrinə malik olan bu bölgələrdə dağıdılmış şəhər və kəndlər yenidən qurulur, müasir yaşayış məkanları yaradılır, tarixi-mədəni irsin bərpası və qorunması istiqamətində mühüm işlər görülür.



Bu gün Qarabağ və Şərqi Zəngəzurda gedən genişmiqyaslı işlərə nəzər saldıqda aydın görünür ki, qarşıya qoyulan vəzifə həm də gələcəyin şəhərlərini, yaşayış məkanlarını və bütövlükdə yeni regional inkişaf modelini formalaşdırmaqdır. Ağdam bunun ən parlaq nümunələrindən biridir. Vaxtilə "Qafqazın Xirosiması" adlandırılan Ağdam bu gün yeni simasını alır. Şəhərin yeni simasında geniş yaşıllıq əraziləri, müasir yaşayış məhəllələri, ictimai məkanlar, sosial obyektlər və biznes zonaları bir-birini tamamlayır.

Baş plana uyğun olaraq Füzuli şəhərində də müasir yaşayış məhəllələri, sosial obyektlər, parklar, yollar və digər infrastrukturlar qurulur. Füzuli Beynəlxalq Hava Limanının fəaliyyəti isə şəhərin və bütövlükdə regionun nəqliyyat əlçatanlığını yeni səviyyəyə yüksəldib.

Müasir şəhərsalma nümunələrinin biri də Zəngilandır. Bu şəhər "ağıllı şəhər", "ağıllı mobillik", "yaşıl enerji" şəhərsalma konsepsiyası əsasında salınır. Şəhərin gələcək inkişafında logistika, turizm, ticarət, bərpaolunan enerji və innovasiyalar üçün imkanların yaradılması nəzərdə tutulur.

Məlumdur ki, Böyük qayıdış proqramının əsas məqsədi insanların doğma torpaqlarına qayıdışını və orada rahat yaşamalarını təmin etməkdir. Doğma yurduna qayıdan insanlar orada işləməli, övladlarını bağçaya, məktəbə göndərməli, tibbi xidmətdən yararlanmalı, sosial və mədəni həyatını davam etdirməlidirlər. Buna görə də yeni yaşayış məhəllələri ilə yanaşı, xidmət və ticarət obyektlərinin, parkların, istirahət məkanlarının və digər sosial infrastrukturun yaradılması mühüm əhəmiyyət daşıyır. Şəhərlərdə ictimai nəqliyyatın inkişafı və yaşıllıq sahələrinin artırılması da müasir şəhərsalmanın əsas xüsusiyyətləri kimi nəzərə alınır.



Müasir şəhərsalmanın qarşısında dayanan əsas vəzifələrdən biri də təbiətlə şəhər arasında düzgün tarazlığın yaradılmasına nail olmaqdır. Qarabağ və Şərqi Zəngəzurda bu məsələyə xüsusi diqqət yetirilir. Regionun zəngin təbii potensialı, o cümlədən çayları, meşələri və dağlıq landşaftı şəhərsalma prosesində nəzərə alınır. Yaşıllıq zolaqlarının salınması, enerji səmərəliliyi, alternativ enerji mənbələrindən istifadə sistemlərinin qurulması yeni şəhərlərin simasını formalaşdırır.

30 ilə yaxın davam etmiş işğaldan qurtulmuş Qarabağda və Şərqi Zəngəzurda şəhərsalmanın daha bir mühüm xüsusiyyəti milli memarlıq irsinin qorunmasıdır. Qarabağ tarixində xüsusi yeri olan Şuşada aparılan bərpa işləri göstərir ki, müasir şəhərsalma tarixi yaddaşın qorunması ilə ziddiyyət təşkil etmir. Əksinə, tarix və müasirlik bu şəhərin simasında bir-birini tamamlayır.

Şərqi Zəngəzurun və Qarabağın digər şəhərlərində də bu prinsip əsas götürülür. Yenidən qurulan şəhərlərimizdə milli memarlıq xüsusiyyətləri, regionun təbii landşaftı və tarixi yaddaşı nəzərə alınır. Əsas məsələ yenidən qurulan şəhərlərin və yaşayış məntəqələrinin yaşamağa, inkişaf etməyə və öz iqtisadi-sosial potensialını reallaşdırmağa imkan verən məkanlara çevrilməsidir.

Regionda həyata keçirilən quruculuq prosesi Azərbaycanın şəhərsalma tarixində yeni səhifə açır. Həmin səhifənin adı isə təkcə "bərpa"dan ibarət deyil. Bu, vaxtilə erməni işğalçılarının xarabalığa çevirdikləri ərazilərimizdə həyatın yenidən canlanmasının, dirçəlişin və gələcəyə hesablanmış yeni yaşayış məskənlərinin qurulmasının yazılmaqda olduğu səhifələrdir.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# Revanşizmin çöküşü: Ermənistanda keçmiş rejimin qalıqları təmizlənir

Ermənistanda cərəyan edən hüquqi və siyasi proseslər bu ölkənin dönüş mərhələsində olduğunu göstərir. Rəsmi İrəvan cəmiyyəti xəyalpərəst ideologiyalarla aldadaraq uçuruma aparan, regional əməkdaşlığa, sülhə və təhlükəsizliyə mane olmaq niyyəti güdən revanşist dairələrə qarşı ciddi addımlar atır. Paşinyan iqtidarı ölkəni fəlakətə sürükləyən bu qüvvələrin kökünü kəsmək, onların siyasi və maliyyə rıçaqlarını tamamilə məhv etmək istiqamətində açıq əməli fəaliyyətə keçib.



Vaxtilə qonşulara qarşı ərazi iddiaları irəli sürərək regionu müharibəyə sürükləyən terrorçu ünsürlər keçmişdə törətdikləri əməllərə və cinayətlərə görə qanun qarşısında cavab verirlər. Hökumət artıq şifahi bəyanatlarla kifayətlənmir, birbaşa hüquq-mühafizə mexanizmlərini işə salaraq köhnə rejimin qalıqlarını silməyə çalışır.

Revanşizmə vurulan ağır zərbənin bariz nümunəsi Ermənistan Baş Prokurorluğunun və Antikorrupsiya Komitəsinin ölkənin keçmiş prezidenti, müharibə canisi Robert Koçaryana və onun yaxın çevrəsinə qarşı genişmiqyaslı cinayət işləri başlatmasıdır. Sabiq prezident vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, xüsusilə külli miqdarda rüşvət alma və çirkli pulların yuyulması kimi ağır maddələrlə ittiham olunur. Bu müstəvidə Ermənistanın Korrupsiyaya Qarşı Mübarizə Məhkəməsi sabiq prezident haqqında iki ay müddətinə həbs qətimkan tədbiri seçib. İstintaqın versiyasına görə, o, ölkə prezidenti olduğu dövrdə qulluq mövqeyindən sui-istifadə edərək başqa şəxslərlə əlbir olub ictimai və iqtisadi əhəmiyyətli bir sıra obyektləri bazar qiymətindən aşağı qiymətə əldə edib. Müstəntiqlərin təqdim etdiyi materiallar əsasında açılan bu cinayət işi çərçivəsində R.Koçaryanın böyük oğlu Sedrak Koçaryan da daxil olmaqla ümumilikdə 9 nəfərə qarşı rəsmi ittihamlar irəli sürülüb.

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin və digər aidiyyəti qurumların əməkdaşları sabiq prezidentin digər oğlu, "Ermənistan" fraksiyasının deputatı Levon Köçəryanın mənzilində, həmçinin onun ailəsi ilə birbaşa əlaqəli olan şirkətlərdə də geniş əməliyyatlar həyata keçirilib. Bununla yanaşı, Levon Köçəryanın həyat yoldaşı, tanınmış müğənni Siruşoya məxsus kommersiya obyektlərində və şirkət ofislərində də axtarışlar aparılıb.

Cinayət şəbəkəsinin araşdırılması zamanı digər keçmiş prezident, Köçəryanın hakimiyyəti illərində müdafiə naziri postunu tutmuş Serj Sarkisyanın da adının hallanması köhnə hərbi-siyasi klanın tamamilə zərərsizləşdirilməsi və revanşizmin dayaqlarının çökdürülməsi niyyətini bir daha təsdiqləyir.

Dövlət səviyyəsində həyata keçirilən bu "təmizləmə əməliyyatları" Ermənistanın Baş naziri Nikol Paşinyanın parlamentdəki kəskin çıxışlarından sonra reallaşıb. Hökumətin yeni beşillik proqramının müzakirəsi zamanı kürsüyə çıxan Paşinyan keçmiş rejim rəhbərlərinin və onların maliyyə dayaqlarının mütləq cəzalandırılmasının vacibliyini qeyd edib. O, ölkəni fəlakətə aparan korrupsioner və revanşist elitanın ünvanına kəskin ifadələr işlədərək deyib: "Bəli, onlar həbs olunmalıdırlar. Qaqik Tsarukyan və Robert Koçaryan vaxtilə rüşvət kimi paylamaq üçün xalqdan oğurladıqları pulları dövlətə qaytarmalıdırlar. Bu, mənim siyasi məsuliyyətimdir. Bunu təkcə mən yox, Ermənistan xalqı tələb edir".

Baş nazir dünənki brifinqdə də oxşar mövqe sərgiləyərək vurğulayıb ki, Robert Koçaryan, Serj Sarkisyan və Qaqik Sarukyan xalqdan taladıqlarını nəsildən-nəslə miras qoya bilməzlər: "Mən seçkilərdən əvvəl bütün bunlarla bağlı xalq qarşısında aydın və şəffaf məsələ qoymuşam və dövlətimizin bu sahədə atmalı olduğu addımları təklif etmişəm". Hökumət başçısının sözlərinə görə, Koçaryan, Sarukyan və Sarkisyan sentyabrın 1-də pensiyalarının hesablarına köçürülüb-köçürülmədiyini yoxlamalıdırlar, çünki qanunsuz olaraq əldə etdikləri hər şey qəpiyinə qədər Ermənistana və xalqa qaytarılacaq.

Hökumətin addımları göstərir ki, Paşinyan daxili siyasətdə revanşist dairələrin maliyyə rıçaqlarını tamamilə əlindən almağa və Ermənistanı uzun illər talayanlardan hesab sormağa tam qərarlıdır. O, çıxışında təkcə korrupsiya faktlarına deyil, illərlə erməni cəmiyyətini fəlakətə sürükləyən ideoloji yanlışlıqlara da toxunub. Keçmişin zərərli miflərinə son qoyaraq toplum qarşısında acı reallıqları açıq şəkildə etiraf edib. Paşinyan illərlə təbliğ olunan zərərli ideologiyaları sərt tənqid edərək bildirib ki, "Qarabağ hərəkatı" Ermənistan dövlətçiliyini və gələcəyini sıfırlamaqdan başqa bir şey deyildi. O, seçkilərdə xalqdan aldığı dəstəyə arxalandığını vurğulayaraq əlavə edib: "Biz xalqın verdiyi mandatla bu layihəni bağladıq və Ermənistan dövlətçiliyinin davamlılığı üçün məhdudiyyətsiz imkanlar açdıq". Paşinyan onu vurğulayıb ki, Ermənistan Azərbaycan və digər qonşu ölkələrə qarşı ərazi iddialarını rəsmən davam etdirsəydi, bir dövlət kimi xəritədən silinmək və məhv olmaq təhlükəsi ilə üz-üzə qalacaqdı.

Bu fikirlər erməni cəmiyyətinə açıq mesajdır: Ermənistanın Bakının tələblərini yerinə yetirməkdən, mövcud sərhədləri qəbul etməkdən və regional reallıqlarla barışmaqdan başqa heç bir çıxış yolu yoxdur. Baş nazir mövqeyini belə tamamlayıb: "Tarixin dalanından çıxmalı və gələcəyin yol ayırıcına çatmalı idik. Ermənistan xalqının "real Ermənistan" ideologiyası ətrafında birləşməsi bizə əmin olmağa əsas verir ki, artıq yenidən dalana girməyəcəyik".

Prosesin mühüm tərəflərindən biri də Ermənistan ictimaiyyətinin işğalçılıq meyillərdən uzaqlaşaraq daha rasional düşüncəyə yaxınlaşmasıdır. İllər boyu revanşist ideyaların və hərbi ritorikanın girovuna çevrilən cəmiyyət bu qarşıdurmanın ölkəyə yalnız itkilər, təcrid və iqtisadi durğunluq gətirdiyini daha aydın dərk edir. Hökumət öz addımları ilə erməni toplumuna göstərir ki, daxili sabitliyi təmin etmək və qonşularla normal münasibətlər qurmaq həm də Ermənistanın bir dövlət kimi mövcudluğunu qoruyub saxlamaq üçün zərurətdir.

Xalqın revanşist qüvvələrə dəstək verməməsi və hakimiyyətin real siyasətinə etimadı Ermənistanın regional təhlükəsizlik və əməkdaşlıq mühitinə inteqrasiya olunmaqdan başqa alternativinin olmadığını bir daha sübut edir. Yerli ekspertlər də bu prosesləri qanunauyğun hesab edirlər. Erməni politoloq Areq Koçinyanın dediyi kimi, Koçaryanın və Serj Sarkisyanın yeri həbsxanadır. Ekspertin sözlərinə görə, prezidentlikləri dövründə saysız cinayətlər törətmiş Ermənistanın keçmiş liderləri çoxdan həbs edilməli idi: "Onların yeri hakimiyyət deyil. Ümid edirəm, bu dəfə səhv düzəldiləcək və bu insanlar layiq olduqları yerə - həbsxanaya göndəriləcəklər".

Nəticə etibarilə, vaxtilə erməni xalqının gələcəyini məhv edən koçaryanlar, sarkisyanlar bu gün öz cinayətlərinin bədəlini ödəyirlər. Bu hüquqi və siyasi təmizləmə erməni toplumunu uydurma ideyalardan uzaqlaşmağa, reallığı qəbul etməyə və Azərbaycanla dayanıqlı sülhə nail olmaq üçün Bakının şərtlərini qeyd-şərtsiz yerinə yetirməyə yönəlib. Köhnə rejimin təhlükəli qalıqlarının tamamilə neytrallaşdırılması Ermənistanın gələcəyini xilas etmək və regionda uzunmüddətli sülh, təhlükəsizlik və əməkdaşlıq mühitini təmin etmək üçün zəruri dönüş nöqtəsidir. Artıq, İrəvan başda olmaqla, erməni xalqı anlayır ki, bundan başqa çıxış yolu yoxdur.

*İsmayıl QOCAYEV, "Azərbaycan"*

# Kiçik biznesdən böyük iqtisadi gücə:
## Azərbaycanda sahibkarlığın yeni mərhələsi



Müasir dünya iqtisadiyyatında ölkələrin dayanıqlılığı yalnız iri müəssisələrin, təbii sərvətlərin və xarici investisiyaların həcmi ilə müəyyənləşmir. Yeni iş yerlərinin yaradılması, regionlarda gəlir mənbələrinin genişlənməsi və iqtisadiyyatın dəyişən şəraitə uyğunlaşması əhəmiyyətli dərəcədə kiçik və orta biznesin inkişafından da asılıdır. Azərbaycanda bu sahənin inkişafı qeyri-neft-qaz iqtisadiyyatının genişləndirilməsi, orta təbəqənin möhkəmləndirilməsi və iqtisadi təhlükəsizliyin təmin olunması ilə birbaşa bağlıdır.

Kiçik biznesin əsas üstünlüyü onun çevikliyidir. İri müəssisələrin yeni bazar şəraitinə uyğunlaşması böyük maliyyə və vaxt tələb etdiyi halda, kiçik sahibkar istehlakçı tələbindəki dəyişikliklərə daha sürətlə reaksiya verir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2026-cı il iyulun 1-nə ölkədə hüquqi şəxs formasında fəaliyyət göstərən mikro sahibkarlıq subyektlərinin sayı 199,6 minə çatıb. Mikro müəssisələr kommersiya təşkilatlarının 93 faizini, kiçik müəssisələr 5 faizini, orta müəssisələr isə 2 faizini təşkil edib. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərmək üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı isə 1 milyon 486 mini ötüb.

Lakin qeydiyyat göstəricisi fərdi sahibkarların hamısının faktiki olaraq fəaliyyət göstərdiyini ifadə etmir. Sahənin real iqtisadi çəkisi yaradılan əlavə dəyər, məşğulluq, investisiya, məhsuldarlıq və ixrac göstəriciləri ilə birlikdə qiymətləndirilməlidir. Əsas hədəf yalnız yeni bizneslərin yaradılması ilə məhdudlaşmamalı, mikro müəssisələrin kiçik, kiçik müəssisələrin isə orta biznes səviyyəsinə yüksəlməsi üçün əlverişli inkişaf mühiti formalaşdırılmalıdır.

Prezident İlham Əliyevin 20 avqust 2026-cı il tarixli fərmanı ilə Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin Əsasnaməsinin təsdiq edilməsi sahibkarlıq siyasətində yeni mərhələnin başlanğıcıdır. Yeni model kiçik və orta biznesin inkişafını, qeyri-neft-qaz sektoruna investisiyaların cəlbini və ixracın təşviqini vahid idarəetmə çərçivəsində birləşdirir.

Əsasnamədə KOB subyektlərinin startap, ilkin inkişaf, genişlənmə və ixrac mərhələləri üzrə təsnifləşdirilməsi, hər bir qrup üçün məqsədli dəstək proqramlarının hazırlanması nəzərdə tutulur. Bu yanaşma fərqli inkişaf mərhələlərində olan sahibkarların ehtiyaclarını ayrıca nəzərə almağa imkan verir. Fəaliyyətə yeni başlayan sahibkar ilkin maliyyəyə və məsləhət xidmətinə ehtiyac duyduğu halda, inkişaf mərhələsində olan müəssisə üçün sertifikatlaşdırma, logistika, ixracın maliyyələşdirilməsi və xarici bazarlara çıxış dəstəyi ön plana keçir.

Sənəddə dövlət-biznes xidmətlərinin vahid elektron reyestrdə birləşdirilməsi, regional klasterlərin və "yaşıl KOB"ların inkişafı, müəssisələrin rəqəmsal transformasiyası, alternativ maliyyə mənbələrinə çıxışının genişləndirilməsi və qlobal dəyər zəncirlərinə inteqrasiyası da mühüm vəzifələr kimi müəyyənləşdirilib. Beləliklə, dövlət dəstəyinin ümumi tədbirlərdən sahibkarın konkret inkişaf mərhələsinə uyğunlaşdırılmış sistemə keçməsi üçün yeni institusional əsas yaradılıb.

Dəstəyin nəticəsi necə ölçülməlidir? Müəssisənin qeydiyyata alınması onun dayanıqlı fəaliyyət göstərəcəyinə zəmanət vermir. Əsas məsələ biznesin bazarda qalması, istehsalını və işçi sayını artırması, yeni texnologiyalar tətbiq etməsi və ixraca başlamasıdır. Maliyyəyə çıxışın məhdudluğu, girov tələbləri, texnologiyaların baha olması, idarəetmə təcrübəsinin zəifliyi və sabit satış bazarının tapılmaması mikro müəssisələrin böyüməsini çətinləşdirir. KOBİA tərəfindən 2025-ci ildə sahibkarların bilik və bacarıqlarının artırılması məqsədilə 751 təlim təşkil edilib. Onlayn təlim platformasından 475 nəfər yararlanıb, 340 sahibkara məsləhət xidməti göstərilib, 288 biznes planının hazırlanmasına dəstək verilib. Bu tədbirlər əhəmiyyətlidir, lakin dövlət dəstəyinin səmərəsi yalnız təlimlərin və xidmətlərin sayı ilə deyil, dəstək alan müəssisənin satış həcminin artması, yaratdığı daimi iş yerləri, tətbiq etdiyi texnologiyalar və daxil olduğu yeni bazarlar əsasında ölçülməlidir.

2026-cı ilin ortalarında mikro sahibkarlıq subyektlərinin 69,7 faizi Bakı şəhərində, 6,9 faizi isə Abşeron-Xızı iqtisadi rayonunda yerləşib. Bu, biznes fəallığının paytaxt və onun ətrafında yüksək səviyyədə cəmləşdiyini göstərir. Regionlarda sahibkarlığın inkişafı üçün güzəştli kreditlə yanaşı, istehsal sahəsinə, infrastruktura, sabit internetə, logistika xidmətlərinə, ixtisaslı kadrlara və satış bazarına çıxış təmin edilməlidir.

Hər bir iqtisadi rayonun müqayisəli üstünlükləri nəzərə alınmaqla aqrar emal, turizm, logistika, sənətkarlıq, yüngül sənaye və "yaşıl enerji" üzrə ixtisaslaşmış biznes şəbəkələri yaradılmalıdır. Yeni agentliyin regional klasterlərin formalaşdırılması ilə bağlı vəzifələri sahibkarlar, istehsalçılar, təhsil müəssisələri və dövlət qurumları arasında əməkdaşlığı gücləndirə bilər.

Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işləri də yeni sahibkarlıq məkanı formalaşdırır. Burada investisiya layihələri həyata keçirən sahibkarların kreditlərinin 90 faizədək hissəsinə dövlət zəmanəti verilir, kredit faizinin 10 faiz bəndinədək hissəsi 36 aya qədər subsidiyalaşdırılır. İri layihələrlə yanaşı, aqrar emal, turizm, logistika, ictimai iaşə və digər xidmət sahələrində yerli kiçik müəssisələrin yaradılması qayıdan əhali üçün davamlı məşğulluq və gəlir mənbələri formalaşdıra bilər.

Məlum olduğu kimi, rəqəmsal və "yaşıl" biznes gələcəyin tələbidir. Rəqəmsallaşma müasir sahibkar üçün əlavə üstünlük deyil, rəqabətdə qalmaq şərtidir. Süni intellekt kiçik müəssisələrə bazarı araşdırmaq, satış proqnozu hazırlamaq, xərcləri təhlil etmək və hesabatları avtomatlaşdırmaq imkanı verir. Sahibkarlar üçün praktik rəqəmsal təlimlərin genişləndirilməsi və münasib qiymətli texnoloji həllərə çıxışın asanlaşdırılması ilə bu imkanlardan istifadəni sürətləndirmək olar.

"Yaşıl iqtisadiyyat"a keçid də yeni fəaliyyət sahələri açır. Enerji səmərəliliyi, günəş enerjisi avadanlıqları, tullantıların təkrar emalı, ekoloji qablaşdırma və suya qənaət edən texnologiyalar kiçik biznes üçün perspektivlidir. Yeni Əsasnamədə "yaşıl KOB"ların və aşağı karbonlu istehsalın dəstəklənməsi bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

Fikrimizcə, KOB siyasətinin növbəti mərhələsi üç əsas istiqamət üzərində qurulmalıdır. Birincisi, mikro müəssisələrin böyüməsini təmin edən "mikrodan kiçiyə, kiçikdən ortaya" keçid proqramı hazırlanmalıdır. İkincisi, dövlət dəstəyinin səmərəsi ayrılan vəsait və göstərilən xidmətlərlə deyil, yaradılan əlavə dəyər, daimi iş yerləri, məhsuldarlıq və ixrac nəticələri ilə ölçülməlidir. Üçüncüsü, regionlarda ticarət fəaliyyəti ilə yanaşı, istehsal, emal və innovasiya əsaslı sahibkarlığın inkişafı sürətləndirilməlidir.

Yeni institusional model bu hədəflərə çatmaq üçün geniş imkanlar yaradır. İndi əsas məsələ müəyyən edilmiş vəzifələrin sahibkarın gündəlik fəaliyyətində hiss olunan nəticələrə çevrilməsidir. Sahibkar dövlət dəstəyinə asan çıxmalı, müraciətlərinə çevik cavab almalı, maliyyələşmə imkanları barədə aydın məlumat əldə etməli və məhsulunu daxili və xarici bazarlara çıxarmaq üçün zəruri dəstəklə təmin olunmalıdır.

Kiçik müəssisənin yaradılması bir ailə üçün gəlir mənbəyidir. Onun böyüməsi yeni iş yerləri, artan vergi daxilolmaları və genişlənən yerli istehsal deməkdir. Minlərlə belə müəssisənin dayanıqlı fəaliyyəti güclü orta təbəqənin, şaxələndirilmiş iqtisadiyyatın və ölkənin uzunmüddətli iqtisadi təhlükəsizliyinin əsas dayağıdır.

***Yaşar MƏMMƏDOV,***
***Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisad elmləri doktoru***

# Zəngəzur keçidindən qlobal şəbəkəyə:
## Naxçıvanın enerji hədəfi

### Muxtar respublikada istehsal olunan enerjinin 60 faizi bərpaolunan mənbələrin hesabına formalaşır



1990-cı illərin əvvəllərində Naxçıvan Muxtar Respublikasının qarşılaşdığı çətin şərait - tam nəqliyyat və kommunikasiya blokadası, qaranlığa qərq olmuş şəhər və kəndlər, kəskin enerji qıtlığı - regionun yaddaşında dərin izlər buraxıb. Lakin bu gün mənzərə kökündən dəyişib. Heydər Əliyevin uzaqgörən qərarları ilə Türkiyə və İranla qurulan ilk enerji körpüləri Naxçıvanı fəlakətdən xilas etdisə, son illərdə həyata keçirilən məqsədyönlü dövlət siyasəti muxtar respublikanı tam enerji müstəqilliyinə çatdırdı. Prezident İlham Əliyevin Naxçıvana son səfəri də bir daha göstərdi ki, vaxtilə blokadada olan bu diyar indi təkcə daxili ehtiyaclarını təmin etmir, həm də Cənubi Qafqazın yeni enerji xəritəsini formalaşdıran strateji bir aktora çevrilir.

Naxçıvanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən layihələr regionun sosial-iqtisadi inkişafına da mühüm təkan verib. Müasir elektrik stansiyalarının, yarımstansiyaların və yeni ötürücü xətlərin inşası enerji sisteminin dayanıqlılığını əhəmiyyətli dərəcədə artırıb. Xüsusilə günəş və digər bərpaolunan enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi Naxçıvanın gələcək enerji strategiyasında xüsusi yer tutur. Bu istiqamətdə görülən işlər həm ənənəvi enerji mənbələrindən asılılığın azalmasına, həm də ekoloji cəhətdən daha təmiz istehsalın inkişafına şərait yaradır.

Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında yeni enerji bağlantılarının yaradılması isə muxtar respublikanın enerji sisteminin regional şəbəkələrə daha sıx inteqrasiyasına imkan verəcək. Dövlət başçısının səfəri çərçivəsində xüsusi vurğulandığı kimi, planlaşdırılan beynəlxalq enerji və nəqliyyat layihələri Naxçıvanın geostrateji əhəmiyyətini daha da artıraraq onu Şərqlə Qərb arasında mühüm bir enerji qovşağına çevirir. Beləliklə, vaxtilə ağır blokada və enerji böhranı yaşayan Naxçıvan bu gün enerji təhlükəsizliyi sahəsində əldə etdiyi nailiyyətlərlə yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu transformasiya yalnız muxtar respublikanın deyil, bütövlükdə Azərbaycanın enerji siyasətinin və regional əməkdaşlıq imkanlarının mühüm göstəricilərindən biridir.

Prezident İlham Əliyev tərəfindən Naxçıvanın "yaşıl enerji" zonası elan olunması regionun inkişaf modelində yeni səhifə açdı. Muxtar respublikada ümumi elektrik enerjisi istehsalı güclərində bərpaolunan enerji mənbələrinin payı artıq 60 faizə yaxınlaşmaqdadır ki, bu da ölkə üzrə ən yüksək göstəricilərdən biridir. İqlim göstəriciləri və illik 2600-2800 saatlıq günəş radiasiyası intensivliyi Naxçıvanı regional bərpaolunan enerji mərkəzinə çevirir. Araz, Biləv və Vənənd kimi su-elektrik stansiyaları ilə yanaşı, ümumi gücü 22 meqavatı aşan Naxçıvan Günəş-Elektrik Stansiyası və hər birinin gücü 25 meqavat təşkil edən "Şəms 1" və "Qərbi Üfüq" layihələri daxil olmaqla alternativ enerji obyektləri regionun daxili tələbatının böyük hissəsini təmiz enerji ilə qarşılayır.

Dövlət başçısının son Naxçıvan səfəri zamanı təməli qoyulan və ya müzakirə edilən xarici investisiyalı yeni günəş və külək-elektrik stansiyası layihələri bu göstəriciləri daha da yuxarı qaldıracaq. Bu layihələrin həyata keçirilməsi Naxçıvanın enerji sisteminin həm dayanıqlılığını, həm də ekoloji səmərəliliyini artırır. Xüsusilə günəş enerjisindən geniş istifadə regionun zəngin təbii potensialının iqtisadi inkişafa yönəldilməsinə imkan yaradır. Yeni bərpaolunan enerji layihələrinin reallaşdırılması nəticəsində gələcəkdə elektrik enerjisinin istehsal həcminin daha da artırılması və artıq enerjinin Türkiyə başda olmaqla qonşu ölkələrə və Avropaya ötürülməsi üçün geniş imkanlar formalaşır. Bu isə Naxçıvanın yalnız öz enerji tələbatını ödəyən deyil, eyni zamanda regional enerji əməkdaşlığında fəal iştirak edən mühüm bir mərkəzə çevrilməsi deməkdir.

"Yaşıl enerji" zonasının yaradılması həm də müasir texnologiyaların tətbiqinə, enerji səmərəliliyinin yüksəldilməsinə və karbon emissiyalarının azaldılmasına xidmət edir. Bu baxımdan Naxçıvanın "yaşıl enerji" strategiyası iqtisadi inkişaf, enerji təhlükəsizliyi və ətraf mühitin qorunması arasında mühüm balans yaradır. Qarşıdakı illərdə xarici tərəfdaşlarla birgə həyata keçirilməsi nəzərdə tutulan yüzlərlə meqavatlıq yeni günəş stansiyaları muxtar respublikanın bərpaolunan enerji potensialını daha da gücləndirəcək. Beləliklə, Naxçıvan tədricən Azərbaycanın "yaşıl enerji" siyasətinin əsas dayaqlarından birinə və Cənubi Qafqazda alternativ enerji sahəsində nümunəvi inkişaf modeli formalaşdıran strateji məkana çevrilir.

Prezident İlham Əliyev Naxçıvana səfəri zamanı çıxışlarında və keçirdiyi görüşlərdə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında nəqliyyat və enerji əlaqələrinin bərpasının strateji əhəmiyyətini bir daha xüsusi vurğuladı. Dövlət başçısı bildirdi ki, Naxçıvanın blokada şəraitindən tam çıxarılması, onun Azərbaycanın ümumi iqtisadi və enerji sisteminə inteqrasiyası ölkənin qarşısında duran prioritet vəzifədir. Bu məqsədlə son dövrdə Naxçıvanla birbaşa elektrik və digər enerji kommunikasiyalarının yaradılması istiqamətində praktiki addımlar sürətlənib. Şərqi Zəngəzur və Naxçıvanda formalaşdırılan böyük bərpaolunan enerji potensialının vahid enerji infrastrukturunda birləşdirilməsi Azərbaycanın uzunmüddətli enerji strategiyasının mil daşıdır.

Bu istiqamətdə görülən işlər təkcə gələcək planlarla məhdudlaşmır. Naxçıvanın enerji sisteminin modernləşdirilməsi, yeni yarımstansiyaların və elektrik ötürücü xətlərin inşası, bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyası və beynəlxalq enerji əlaqələrinin genişləndirilməsi üzrə ardıcıl layihələr həyata keçirilir. Eyni zamanda Naxçıvanın Türkiyə və İranla mövcud enerji əlaqələrinin gücləndirilməsi muxtar respublikanın enerji təhlükəsizliyinin etibarlı şəkildə təmin olunmasında mühüm rol oynayır. Gələcəkdə Azərbaycanın əsas enerji şəbəkəsi ilə birbaşa bağlantının yaradılması isə bu imkanları daha da genişləndirəcək.

Zəngəzur dəhlizinin reallaşması ilə paralel olaraq, Azərbaycanın əsas ərazisi ilə Naxçıvan arasında birbaşa enerji kommunikasiyalarının bərpası və vahid enerji şəbəkəsinin tamamlanması regional sabitlik və iqtisadi artım üçün həlledici rol oynayacaq. Şərqi Zəngəzurda və Naxçıvanda yaradılan "yaşıl enerji" güclərinin xarici bazarlara çıxarılması layihənin iqtisadi dividendlərini bir neçə dəfə artıracaq.

Dövlətimizin başçısının Naxçıvana son səfəri bir daha sübut etdi ki, Zəngəzur dəhlizi təkcə mühəndislik və infrastruktur layihəsi deyil, bu, regional geosiyasətdə blokadanın qırılması, "yaşıl keçid"in təmin olunması və gələcəyin dayanıqlı iqtisadiyyatına atılan strateji bir addımdır. Regionun yeni enerji nəbzi məhz burada - Naxçıvanda vurur.

***Cavanşir ZEYNALOV,***
***Naxçıvan Dövlət Universitetinin professoru, muxtar respublikanın Əməkdar müəllimi***

# Səhiyyədə süni intellekt dövrü başlayır
## Bu, ənənəvi tibbin sonu yox, yeni mərhələsidir

İnsan üçün ən qiymətli sərvət sağlamlıqdır. Tibb elmi də əsrlər boyu məhz bu sərvəti qorumağın yollarını axtarıb. Əvvəlcə xəstəliklərin səbəbləri öyrənilib, sonra diaqnostika üsulları təkmilləşdirilib, yeni dərmanlar və müalicə üsulları meydana çıxıb. Bu gün isə səhiyyədə yeni və son dərəcə mühüm bir dövr başlayıb. Artıq süni intellektin tibbə daxil olmasına şahidlik etməkdəyik.

Süni intellekt yalnız gələcəyin texnologiyası deyil, eyni zamanda bu gün diaqnostikadan tibbi görüntülərin təhlilinə, xəstəliklərin proqnozlaşdırılmasından xəstəxanaların idarə olunmasına, pasiyentlə ünsiyyətdən səhiyyə sistemlərinin optimallaşdırılmasına qədər müxtəlif sahələrdə tətbiq olunur. Dünya Səhiyyə Təşkilatı da süni intellektin artıq diaqnostika, klinik yardım, xəstəliklərin monitorinqi, epidemiyalara cavab və səhiyyə sistemlərinin idarə olunmasında istifadə edildiyini bildirir.

Süni intellektin səhiyyədə ən böyük təsir göstərə biləcəyi sahələrdən biri diaqnostikadır. Həkimin saatlarla, bəzən günlərlə araşdırmalı olduğu böyük həcmdə tibbi məlumatı bu gün süni intellekt çox qısa müddətdə təhlil edə bilir. Rentgen, kompüter tomoqrafiyası, MRT, ultrasəs və digər tibbi görüntülərin analizində süni intellekt müəyyən dəyişiklikləri, şişləri və digər patologiyaları aşkar etmək üçün həkimə kömək edir. Xüsusilə nadir xəstəliklərdə bu imkan daha əhəmiyyətlidir. Çünki həkim karyerası ərzində çox az rast gəldiyi bir xəstəliyi süni intellektin böyük məlumat bazaları ilə müqayisə etməklə daha asan müəyyən edir.

Burada mühüm bir prinsip var: süni intellekt həkimi əvəz etmir, onun imkanlarını genişləndirir. Dünyada da əsas müzakirələrdən biri məhz budur. Süni intellekt müəyyən tibbi tapşırıqlarda yüksək nəticə göstərə bilsə də, klinik qərarın məsuliyyəti, pasiyentin vəziyyətinin bütöv qiymətləndirilməsi və insan amili hələ də həkimin üzərinə düşür.

Ənənəvi tibdə müəyyən xəstəlik üçün çox vaxt ümumi müalicə protokollarından istifadə olunur. Gələcəyin səhiyyəsində isə "hamıya eyni müalicə" yanaşması getdikcə zəifləyəcək. Süni intellekt pasiyentin yaşı, genetik xüsusiyyətləri, əvvəlki xəstəlikləri, laborator göstəriciləri, qəbul etdiyi dərmanlar və həyat tərzi kimi məlumatları birlikdə təhlil edərək fərdi riskləri müəyyənləşdirməyə kömək edəcək. Beləliklə, müalicə yalnız xəstəliyə deyil, konkret insana uyğunlaşdırılacaq. Bu yanaşma əsasən xərçəng, ürək-damar xəstəlikləri, diabet və digər xroniki xəstəliklərdə böyük əhəmiyyət daşıyır. Məqsəd xəstəlik baş verdikdən sonra müdaxilə etməkdən çox, onun yaranma ehtimalını əvvəlcədən müəyyənləşdirmək və qarşısını almaqdır.



Süni intellektin təsiri yalnız xəstəxana və klinikalarla məhdudlaşmır. Əczaçılıq sahəsində də yeni mərhələ başlayır. Məlumdur ki, yeni dərmanın hazırlanması uzun illər və böyük maliyyə tələb edən mürəkkəb prosesdir. Bu prosesdə ilkin mərhələdə minlərlə, hətta milyonlarla kimyəvi birləşmənin araşdırılması, onların təsirinin və təhlükəsizliyinin qiymətləndirilməsi lazım gəlir. Süni intellekt isə böyük həcmdə elmi məlumatı, molekulların xüsusiyyətlərini və mümkün dərman namizədlərini təhlil edərək tədqiqatçılara daha perspektivli variantları seçməkdə kömək edəcək. Başqa sözlə, süni intellekt dərmanı özü hazırlamayacaq, dərman kəşfi və inkişafı prosesini sürətləndirən bir vasitə rolunu oynayacaq. O, yeni molekulların müəyyənləşdirilməsi, mövcud maddələrin yenidən istifadəyə uyğun olub-olmamasının qiymətləndirilməsi və klinik sınaqlara namizəd birləşmələrin seçilməsi kimi mərhələlərdə də mühüm rol oynaya bilər. Bu isə gələcəkdə bəzi dərmanların hazırlanma müddətinin qısalmasına, tədqiqat xərclərinin azalmasına və yeni müalicə üsullarının daha sürətli ortaya çıxmasına imkan yaradacaq.

Süni intellektin başqa mühüm istiqaməti səhiyyə sistemlərinin idarə olunmasıdır. Xəstəxanalarda çarpayıların bölüşdürülməsi, pasiyent axınının proqnozlaşdırılması, növbələrin idarə olunması, tibbi resursların planlaşdırılması və personalın iş yükünün optimallaşdırılması kimi məsələlərdə alqoritmlər böyük rol oynayacaq.

Texnologiyanın imkanları böyükdürsə, riskləri də az deyil. Səhiyyədə süni intellektin qarşısında duran ciddi məsələlərdən biri pasiyent məlumatlarının məxfiliyidir. Tibbi məlumat adi informasiya deyil, insanların xəstəlikləri, genetik xüsusiyyətləri və müalicə tarixçələri son dərəcə həssas məlumatlardır. Bu məlumatların qorunması texnologiyanın inkişafından geri qalmamalıdır.

Digər problem alqoritmik səhvlər və qərəzdir. Süni intellekt hansı məlumatlarla öyrədilibsə, müəyyən mənada həmin məlumatların məhdudiyyətlərini də daşıya bilər. Buna görə də yanlış, natamam və ya qərəzli məlumatla işləyən sistem səhv nəticə verə bilər. Məhz buna görə Dünya Səhiyyə Təşkilatı süni intellektin səhiyyədə tətbiqində etik prinsiplərin, insan hüquqlarının, şəffaflığın, məsuliyyətin və bərabər çıxış imkanlarının qorunmasını vacib hesab edir.

Gələcəkdə süni intellektin səhiyyədə daha mürəkkəb və çoxfunksiyalı sistemlərə çevrilməsi gözlənilir. Artıq tədqiqatçılar yalnız bir nəticəni proqnozlaşdıran alqoritmlərdən deyil, bir neçə mərhələli tibbi tapşırıqları planlaşdıra, müxtəlif məlumat mənbələrindən istifadə edə və həkimlə əməkdaşlıq edə bilən sistemlərdən danışırlar. Bununla belə, bu texnologiyaların real klinik şəraitdə təhlükəsizliyi və etibarlılığı hələ geniş yoxlanılmalıdır.

Gələcəyin həkimi ilə süni intellekt arasında münasibət rəqabət deyil, əməkdaşlıq üzərində qurulmalıdır. Bir tərəfdə insanın empatiyası, təcrübəsi, məsuliyyəti və etik düşüncəsi, digər tərəfdə isə maşının böyük həcmdə məlumatı sürətlə təhlil etmək qabiliyyəti dayanacaq. Nəticədə süni intellektin səhiyyədə uğuru onun insanı əvəz edib-etməməsi ilə ölçülməməlidir. Əsas meyar daha sağlam cəmiyyət, erkən diaqnoz, düzgün müalicə, səmərəli səhiyyə sistemi və pasiyent üçün daha yaxşı nəticə olmalıdır. Süni intellekt ənənəvi tibbin sonu deyil, əksinə, yeni mərhələsinin başlanğıcıdır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Unutsaq, unudularıq

# Müəllim, alim, ictimai xadim

## Nurlana Əliyeva bu üç şərəfli peşəni özündə birləşdirməyi bacarmışdı

İnsanın həyatında elə məqamlar olur ki, onun gələcək taleyini müəyyənləşdirir. Bu tale bəzən ailədən, bəzən məktəbdən, bəzən də uşaqlıq illərində yaranan maraq və meyillərdən asılı olur. Nurlana Əliyevanın ömür yoluna müəllim ailəsində aldığı tərbiyə, məktəb illərində Azərbaycan dili və ədəbiyyatına göstərdiyi maraq işıq saçmışdır.



Onun həyat yolu ötən əsrin ikinci yarısından başlayaraq, müstəqil Azərbaycanın sonrakı inkişaf mərhələlərinə qədər uzanan böyük bir zaman kəsiyindən keçib. Bu illər isə Azərbaycanın təhsilində, elmində və ictimai həyatında mühüm dəyişikliklər baş vermişdir.

Nurlana xanımın həyatının böyük bir hissəsi Azərbaycan təhsili ilə bağlı olub. Müəllim kimi fəaliyyətə başlayıb, sonralar uzun illər təhsil müəssisəsinə rəhbərlik edib, filologiya elmləri doktoru, professor kimi elmi fəaliyyət göstərib, ali məktəb rektoru olub. Eyni zamanda ictimai-siyasi həyatdan kənarda qalmayıb, Azərbaycan qadınının cəmiyyətdə rolunun artması üçün çalışıb.

Nurlana Əliyeva 1946-cı il avqustun 28-də Gəncədə dünyaya gəlmişdir. Uşaqlıqdan evdə təhsillə, məktəblə bağlı söhbətlər, müzakirələr eşitmiş, o üzdən mütaliəni sevmiş, uşaqlıq xəyalları, gələcəklə bağlı arzuları kitablar aləmində pərvazlanmışdır. Kiçik yaşlarından ata-anası ona həm də iradəli, əzmkar və qətiyyətli olmağı aşılamışdır.

Orta təhsilini Gəncədəki Cəfər Cabbarlı adına 6 nömrəli məktəbdə alan Nurlana Əliyeva yalnız dərslərini yaxşı oxuması ilə deyil, həm də ictimai fəallığı ilə seçilib. Məktəb illərində Azərbaycan dili və ədəbiyyatına maraq göstərməsi onun gələcək peşə seçiminə də təsir göstərib. O illər yaranan bu maraq sonralar Nurlana xanımın həm müəllimlik fəaliyyətinin, həm də elmi yaradıcılığının mayası olmuşdur.

Nurlana Əliyeva müəllim olmaq istəyirdi. Beynində əlində jurnal sinfə daxil olması, dərs dediyi günlərin xəyalını qururdu. Elə bu xəyalla da orta məktəbi bitirib Bakıya gəlmiş, sənədlərini Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə vermişdir. Qəbul imtahanlarından uğurla keçərək tələbə adını qazanmışdır. Universitet illəri onun dünyagörüşünün formalaşması, filoloji biliklərinin dərinləşməsi və gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşməsi baxımından mühüm mərhələ olmuşdur.

### Müəllimlikdən başlanan yol

Nurlana xanımın uzun illər davam edən fəaliyyətinin təməlində müəllimlik dayanıb. 1969-cu ildə ali təhsilini başa vurandan sonra Bakıdakı 134 nömrəli məktəbdə müəllim işləyib. Azərbaycan dili və ədəbiyyat müəllimi kimi Nurlana Əliyeva Bakı Maliyyə-Kredit Texnikumunda da həmin fənləri tədris edib. 1990-cı ilin dekabrından isə Mirzə Ələkbər Sabir adına Bakı Pedaqoji Texnikumuna rəhbərlik etməyə başlayıb. Sonralar Azərbaycan Dövlət Pedaqoji Kolleci kimi fəaliyyət göstərən bu təhsil müəssisəsinin inkişafına xeyli əmək sərf edib.

Həmin illər ölkənin ictimai və siyasi həyatında böyük dəyişikliklər baş verirdi. Bu mürəkkəb dövrdə Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi təhsil sisteminin qarşısında da yeni vəzifələr qoymuşdu. Milli təhsil ənənələrinin qorunması və inkişaf etdirilməsi, Azərbaycan dilinin, tarixinin və ədəbiyyatının tədrisinin yeni tələblər əsasında qurulması, gənc nəslin milli-mənəvi dəyərlər ruhunda yetişdirilməsi, müəllim hazırlığının keyfiyyətinin yüksəldilməsi xüsusi əhəmiyyət daşıyırdı. Nurlana xanımın rəhbərlik etdiyi Pedaqoji Kollec belə bir mərhələdə müəllim hazırlığının mühüm ünvanlarından biri idi. Kollecin müəllim heyəti yaxşı başa düşürdü ki, məktəbəqədər və ibtidai təhsil üçün kadr hazırlığı təhsil sisteminin ən mühüm istiqaməti sayılır. Çünki gələcək ibtidai sinif müəllimlərinin peşə hazırlığının səviyyəsi onların sonrakı pedaqoji fəaliyyətinə, deməli, minlərlə uşağın təlim və tərbiyəsinə birbaşa təsir göstərir. Bunu isə kollektivə Nurlana Əliyeva aşılamışdı. Onun rəhbərliyi dövründə kollecdə təlim və tədrisin təşkili, pedaqoji prosesin təkmilləşdirilməsi, müəllim hazırlığının keyfiyyətinin yüksəldilməsi və təhsil mühitinin yenilənməsi istiqamətində xeyli işlər görülmüşdür. Dövrün tələblərinə uyğun olaraq təlimin forma və metodlarının təkmilləşdirilməsi, təhsil prosesinə yeni yanaşmaların gətirilməsi diqqət mərkəzində olmuşdur.

Amma Nurlana xanımın kollecdəki fəaliyyəti bununla məhdudlaşmırdı. O, orta ixtisas təhsilinin problemləri və inkişaf yolları barədə dövri mətbuata məqalələr yazır, pedaqoji kadr hazırlığı ilə bağlı məsələlərə münasibət bildirirdi.

### Ədəbiyyatşünas alim

Nurlana Əliyevanın çoxşaxəli fəaliyyətində elmi yaradıcılıq da xüsusi yer tutmuşdur. O, alim kimi pedaqoji fəaliyyətlə yanaşı, Azərbaycan ədəbiyyatının, xüsusilə Azərbaycan nəsrinin müxtəlif problemlərini araşdırmışdır. "Azərbaycan bədii nəsrində müasir kənd və onun problemləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə edən N.Əliyeva sonrakı elmi fəaliyyətində Azərbaycan nəsrinin 1960-1980-ci illər mərhələsinin tədqiqi ilə məşğul olmuşdur. Həmin illərin Azərbaycan nəsri ədəbiyyat tariximizdə özünəməxsus mərhələ təşkil edir. O dövrün nəsrində insanın mənəvi aləmi, cəmiyyətlə münasibəti, kənd və şəhər həyatında baş verən dəyişikliklər, milli və bəşəri dəyərlər mühüm mövzulardan idi.

Nurlana Əliyevanın tədqiqatında qəhrəman və üslub probleminin önə çəkilməsi onun ədəbiyyata bədii-estetik bütövlük kimi yanaşdığını göstərirdi. Bu səbəbdən 2003-cü ildə müdafiə etdiyi "60-80-ci illər Azərbaycan nəsrində qəhrəman və üslub axtarışları" mövzusunda doktorluq dissertasiyasını alimin uzunmüddətli elmi axtarışlarının nəticəsi kimi də qəbul etmək olar. Amma Bakı Dövlət Universitetində (BDU) professor kimi fəaliyyət göstərmiş N.Əliyevanın elmi fəaliyyəti yalnız araşdırmalarla məhdudlaşmamışdır. O, eyni zamanda Azərbaycan filologiyasının gələcək tədqiqatçı nəslinin yetişdirilməsi prosesində də iştirak etmişdir. Nurlana xanım həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda doktorluq üzrə ixtisaslaşmış Dissertasiya Şurasının üzvü olmuşdur.

### Qələm adamı

Nurlana Əliyeva kamil publisist idi. 12 kitabın və 200-dək elmi-publisistik məqalənin müəllifi olan alimin yazılarında müxtəlif illərdə cəmiyyət üçün aktual olan mövzulardan bəhs edilir. Onun publisistikasında ilkin olaraq Azərbaycan ədəbiyyatı və nəsri əsas yer tutsa da, zaman keçdikcə mövzu dairəsi genişlənmişdir. Təhsil, milli-mənəvi dəyərlər, Azərbaycan dövlətçiliyi, Heydər Əliyevin siyasi fəaliyyəti, ölkənin inkişaf yolu, qadınlarımızın ictimai həyatda rolu kimi məsələlər alimin yazılarında geniş təhlil olunmuşdur.

Nurlana Əliyevanın 2019-cu ildə nəşr edilən "Qüdrətli Azərbaycan naminə" kitabında Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin müxtəlif mərhələləri, Azərbaycan dövlətçiliyinin inkişafındakı rolu, müasir Azərbaycanın ictimai-siyasi inkişafı ilə bağlı məsələlərdən danışılır. Kitabda Yeni Azərbaycan Partiyasının fəaliyyəti, Azərbaycan qadınlarının ictimai fəaliyyəti və Qarabağ həqiqətləri də yer alır. Onun bir il sonra - 2020-ci ildə nəşr edilən "Azərbaycanı dəyişən məhəbbət" adlı kitabında isə Heydər Əliyevin siyasi fəaliyyəti, Azərbaycanın milli oyanışı, sosial-iqtisadi inkişafı, dövlətçilik məsələləri və müasir Azərbaycan dövlətinin inkişaf istiqamətləri barədə düşüncələri toplanıb. Bu kitablar Nurlana Əliyevanın yaradıcılıq dünyasının genişliyini, onun ölkənin ictimai-siyasi həyatında baş verən proseslərdən kənarda qalmadığını göstərir.

### "Adın şərəflidir sənin, ey qadın"

Nurlana Əliyevanın ictimai fəaliyyətində Azərbaycan qadınının cəmiyyətdəki rolu xüsusi yer tuturdu. O, qadınların ailə və məişət məsələləri ilə yanaşı, elm və təhsildə, idarəçilikdə, ictimai-siyasi həyatda da fəal iştirak etməsinin vacibliyini vurğulayırdı. Bu mövzu onun həm publisistik yazılarında, həm də çıxışlarında qırmızı xətt kimi keçirdi. Alimin 2009-cu ildə qələmə aldığı "Heydər Əliyev və Azərbaycanda qadın siyasəti" məqaləsində isə qadın siyasəti ilə dövlətçilik məsələləri əlaqəli təhlil olunmuşdur.

Yeri gəlmişkən, qeyd edək ki, Nurlana Əliyevanın ictimai-siyasi fəaliyyətində ən mühüm və uzunmüddətli mərhələlərdən biri Yeni Azərbaycan Partiyasının Qadınlar Şurasına rəhbərlik etməsi olub. O, bu ictimai vəzifəyə 2009-cu il aprelin 25-də YAP Qadınlar Şurasının respublika konfransında seçilmişdir. Nurlana xanım 12 il bu ictimai vəzifədə qadınların bütün sahələrdə fəallığının artması, seçkilərdə iştirakının təşviqi, humanitar və xeyriyyə tədbirlərində iştirakı, beynəlxalq qadın təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi kimi məsələlərlə məşğul olmuşdur.

### Yeni etimad, yeni vəzifələr

2016-cı ildə Nurlana Əliyevanın fəaliyyətində yeni mərhələ başladı. Həmin il o, Bakı Slavyan Universitetinin rektoru təyin edildi. Bu təyinata qədər Nurlana xanım, qeyd etdiyimiz kimi, uzun illər orta ixtisas təhsilinin xüsusiyyətlərini dərindən mənimsəmiş, elmi fəaliyyətində Azərbaycan ədəbiyyatının müxtəlif problemlərini araşdırmış, ali məktəbdə çalışmışdı. Üstəlik, Pedaqoji kollecə rəhbərlik etdiyi vaxtlar təhsil idarəçiliyində böyük təcrübə qazanmışdı. Alim və professor olması isə ona ali təhsil mühitini yaxından tanımaq imkanı vermişdi.

N.Əliyeva rektor kimi fəaliyyətinin ilk günlərindən universitetin tədris, maddi-texniki və struktur məsələlərinə diqqəti artırdı. Universitetin maddi-texniki bazasının gücləndirilməsi, təmir işlərinin aparılması, tədris prosesində yeni islahatların tətbiqi, struktur bölmələrinin yenilənməsi və ştat məsələləri ilə bağlı işlərin həyata keçirilməsi yeni rektorun gündəlik fəaliyyətinin əsas istiqamətləri sırasında oldu.

Bakı Slavyan Universitetinin özünəməxsus xüsusiyyətlərindən biri xarici, xüsusilə slavyan ölkələrinin ali təhsil müəssisələri ilə əlaqələri idi. Bu səbəbdən Nurlana Əliyeva universitetin həmin istiqamətdə əməkdaşlığının davam etdirilməsinə və inkişafına xüsusi yanaşırdı.

Onun bu ali təhsil ocağına 5 illik rəhbərliyi dövründə universitet elmi, mədəni və diplomatik tədbirlərin keçirildiyi məkanlardan biri kimi də tanındı. Nurlana Əliyeva belə tədbirlərdə təhsil və elmin inkişafı, multikulturalizm, beynəlxalq əməkdaşlıq, milli-mənəvi dəyərlər və Azərbaycan cəmiyyətinin inkişafı ilə bağlı məruzələrlə çıxış edirdi.

### Ömrün silinməz izləri

Nurlana Əliyevanın uzun illər ərzində təhsil və elm sahələrində, ictimai həyatda göstərdiyi xidmətlər dövlət tərəfindən yüksək qiymətləndirilib. O, 2004-cü ildə Əməkdar müəllim fəxri adına və 2008-ci ildə "Şöhrət" ordeninə layiq görülüb.

Nurlana Əliyeva 80 yaşının tamamına az qalmış - 2026-cı il iyulun 1-də vəfat edib.

Məlum bir həqiqət var: insan ömrünün mənası yaşanan illərin sayı ilə deyil, gördüyü işlər, cəmiyyətə göstərdiyi xidmətin mahiyyəti ilə ölçülür. Nurlana Əliyeva da belə bir ömür yaşayıb. Müəllim işləyib, pedaqoji təhsil müəssisələrinə rəhbərlik edib, elmi araşdırmalar aparıb, kitablar yazıb, onlarla elmi-publisistik məqalə qələmə alıb, Azərbaycan qadınının ictimai fəallığının yüksəlməsi üçün çalışıb. Bir sözlə, o, müəllim, alim və ictimai xadim kimi yaddaşlarda silinməz iz qoyub.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın xilaskarlıq missiyası

Yaşadığımız dünyada heç də hər şey rahat, rəvan, necə deyərlər, öz axarı ilə getmir. Bəzən təbiət şıltaqlıq edəndə, gözlənilməyən bədbəxt hadisələr baş verəndə gündəlik həyatımızın ritmi pozulur. Vəziyyət elə gərginləşir ki, yalnız insanların deyil, dövlətlərin də köməyə, humanitar yardıma ehtiyacı yaranır.








Nə yaxşı ki, belə gözlənilməz hallarda çətin vəziyyətə düşənlərə, yardıma ehtiyacı olanlara təmənnasız olaraq maddi və maddi-texniki yardım göstərən, kömək edən insanlar, təşkilatlar, dövlət qurumları var. Onlar böhran hallar yarananda çətin vəziyyətə düşən insanların xilasına tələsirlər.

Müxtəlif zamanlarda, müxtəlif ölkələrdə gözlənilmədən baş verən təbii fəlakətlər, münaqişələr və digər fövqəladə hadisələr demək olar ki, hər il yüzlərlə, minlərlə insanın həyatını, sağlamlığını təhlükə altında qoyur. Belə böhranlar zamanı humanitar yardım işçiləri baş vermiş hadisələrdən əziyyət çəkən insanları xilas etmək, onlara kömək göstərmək üçün istifadələrində olan bütün qüvvələrini səfərbər edir, vaxt itirmədən köməyə tələsirlər. Onlar öz xeyirxahlıq missiyalarını sonadək yerinə yetirirlər, bəzən həyatları bahasına olsa da, dara, çətinə düşmüş insanları xilas edirlər.

Ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq, Ermənistan silahlı qüvvələrinin və erməni separatçıların hücumları nəticəsində Qarabağ və ətraf rayonlar işğal olundu, ölkəmiz humanitar fəlakətlə üz-üzə qaldı. 1 milyondan çox insan doğma ocağından didərgin düşdü. Yenicə müstəqillik qazanmış ölkəmiz üçün, sözün həqiqi mənasında, son dərəcə ağır vəziyyət yarandı. Həmin çətin günlərdə həm bir sıra beynəlxalq təşkilatlar, həm də dost və qardaş ölkələr Azərbaycana kömək etdi, onun dərdini öz dərdi bildi, yardım göstərdi.

Şükürlər olsun ki, xalqımız, dövlətimiz zamanın sınağından üzüağ çıxdı. Düşmən təcavüzü nəticəsində üzləşdiyi çətinliyə sinə gərdi, ağrı-acılara dözdü. Sınmadı, qəddini əymədi, bir gün olsun belə mübarizəsindən qalmadı. Zamanla, dövrün tələbləri ilə ayaqlaşan Azərbaycan gündən-günə gücləndi, qüdrətləndi. Regionda söz sahibinə çevrilən, dünyada sülhü dəstəkləyən Azərbaycanın beynəlxalq nüfuzu artdı. Dövlətimiz erməni işğalı nəticəsində doğma yurdlarından didərgin düşmüş insanlarımıza sahib çıxdı. Heç bir ölkənin, heç bir humanitar təşkilatın yardımı olmadan məcburi köçkünləri humanitar yardımlarla təmin etdi, onların sosial vəziyyətini yaxşılaşdırdı. Çox keçmədi ki, çadır şəhərcikləri ləğv edildi, məcburi köçkünlər üçün evlər tikildi, şəhərciklər salındı. Zaman keçdikcə inkişaf edən Azərbaycan humanitar yardım alan ölkədən yardım göstərən dövlətə çevrildi. Azərbaycan beynəlxalq sülhməramlı missiyalarda iştirak etməyə, mütəxəssislərimiz təbii fəlakət zonalarında çətinliyə, dara düşmüş insanlara yardım göstərməyə başladı.

Azərbaycan COVID-19 pandemiyası dövründə Dünya Səhiyyə Təşkilatına xəstəliklə mübarizə məqsədilə 10 milyon dollar ayırdı. Bundan başqa, coğrafi və geosiyasi baxımdan yaxın olduğu bir sıra ölkələrə - İran, Gürcüstan, Ukrayna, Özbəkistan, Bosniya və Herseqovina, İtaliya, Macarıstan, Pakistan, Tacikistan, Qırğızıstan və başqalarına birbaşa yardımlar göstərdi. Onu da qeyd edək ki, ölkəmiz bunu özünün də virusla mübarizə apardığı günlərdə edirdi.

2011-ci ildə Azərbaycan Xarici İşlər Nazirliyi yanında Beynəlxalq İnkişafa Yardım Agentliyi yaradılıb. Agentlik Azərbaycan dövləti tərəfindən göstərilən beynəlxalq humanitar və inkişafa yardım fəaliyyətini həyata keçirir və yardım göstərilməsində iştirak edən bütün dövlət qurumlarının bu sahədə fəaliyyətini əlaqələndirir. Ötən illər ərzində Azərbaycan dünyanın ehtiyac içərisində olan bir çox dövlət və xalqlarına yardımlar göstərib. Azərbaycanın humanitar yardım coğrafiyası Serbiyadan Albaniyaya, Yəməndən Brundiyədək genişlənib. Agentliyin həyata keçirdiyi proqramlardan dünyanın 90-dan çox ölkəsi faydalanıb. 2014-cü ilin may ayında Pakistanda baş vermiş ağır sel və daşqınların törətdiyi dağıntılardan əziyyət çəkən əhaliyə kömək məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə 114-122 ton həcmində humanitar yardım göndərilib. 2023-cü il fevralın 6-da Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra qardaş ölkəyə ilk yetişən Azərbaycan olub. Prezident İlham Əliyevin sərəncamı ilə Fövqəladə Hallar Nazirliyinin xüsusi riskli axtarış və qəza-xilasetmə dəstələri təcili surətdə Türkiyəyə yola düşüb.

Beynəlxalq çağırışlara humanizm prinsiplərinə hörmətlə yanaşan Azərbaycan ikitərəfli və çoxtərəfli əsasda dünyanın bir çox ölkələrinə humanitar yardımlar göstərməkdə davam edir. Son illər Ukraynada müharibə səbəbindən yaranmış böhran vəziyyəti ilə əlaqədar Azərbaycan bu ölkəyə bir neçə dəfə humanitar yardım göndərib. Ölkəmiz həmçinin müharibədən ziyan çəkən qonşu ölkəyə humanitar yardım edib.

Bəli, bu gün Azərbaycanın adı humanitar yardım göstərən dövlətlər sırasındadır. Ölkəmiz beynəlxalq həmrəylik və humanizm prinsiplərinə əsaslanaraq çətinə düşmüş insanlara və dövlətlərə humanitar yardım göstərməyə, baş vermiş fəlakətlərin aradan qaldırılmasına kömək göstərməyə həmişə hazırdır. Ölkəmizin bu mövqeyi beynəlxalq təşkilatlar, dövlətlər və xalqlar tərəfindən minnətdarlıq hissi ilə qarşılanır.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Azərbaycan və Özbəkistan arasında əlyazmaların surətlərinin mübadiləsinə dair təşəbbüs irəli sürülüb

"Azərbaycan və Özbəkistan arasında tarixən formalaşmış dostluq və qardaşlıq münasibətləri mədəni-humanitar sahədə də uğurla inkişaf edir. Bu əməkdaşlığın mühüm istiqamətlərindən birini iki ölkənin zəngin yazılı və əlyazma irsinin öyrənilməsi, qorunması və qarşılıqlı şəkildə tanıdılması təşkil edir. Xüsusilə Azərbaycan və Özbəkistanda mühafizə olunan əlyazmaların aşkara çıxarılması, kataloqlaşdırılması və elmi tədqiqi sahəsində həyata keçirilən birgə təşəbbüslər xalqlarımızın ortaq mədəni irsinin daha dərindən araşdırılmasına mühüm töhfə verir. Bu baxımdan Özbəkistan Elmlər Akademiyasının Əbu Reyhan əl-Biruni adına Şərqşünaslıq İnstitutu ilə əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında AMEA Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli söyləyib.

Akademik bildirib ki, Əlyazmalar İnstitutunun Özbəkistan Elmlər Akademiyasının Əbu Reyhan əl-Biruni adına Şərqşünaslıq İnstitutu ilə əməkdaşlığı xüsusi əhəmiyyət daşıyır. Tərəflər arasında Azərbaycan və Özbəkistanda qorunan əlyazmaların müəyyənləşdirilməsi, kataloqlaşdırılması, surətlərinin qarşılıqlı mübadiləsi və elmi tədqiqi ilə bağlı təşəbbüslər irəli sürülüb. Bu istiqamətdə Özbəkistanda Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə mühüm layihələr həyata keçirilir. Azərbaycan əlyazmalarının Özbəkistan fondlarında müəyyənləşdirilməsi və onların kataloqunun hazırlanması üzrə işlər iki ölkənin yazılı irsinin sistemli şəkildə öyrənilməsinə imkan yaradır. Əməkdaşlığın mühüm nəticələrindən biri "Dünya ölkələrində saxlanılan Özbəkistanın mədəni irsi" layihəsi çərçivəsində hazırlanmış "AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondunda mühafizə olunan özbək əlyazmaları" adlı albom-kataloqdur. Nəşr Özbəkistanda çap olunan "Özbəkistanın mədəni mirası" çoxcildliyinin "Azərbaycanda qorunan Özbəkistanın mədəni irsi" adlı LXII cildində yer alıb.






TURİZM






● Müalicə müəssisəsi

# Azərbaycanın suyu da dərmandır, "Qalaaltı" kimi



Azərbaycan zəngin təbii resursları ilə turizm sahəsində böyük potensiala malikdir. Əsas təbii sağlamlıq müalicə ehtiyatlarımıza mineral sular, neft məmulatları, yodlu-bromlu və duzlu göllər, əlverişli iqlim və landşaft, eləcə də qumlu çimərliklər daxildir.

Ölkəmizdə sağlamlıq turizminin əsas komponentlərindən hesab olunan İstisu, Badamlı, Turşsu, İlisu, Xaltan və digər mənbələr profilaktika və müalicə-sağlamlaşdırma xidmətlərinin inkişafında əsas baza rolunu oynayır. Bu bazanın daha da genişləndirilməsi üçün Prezident İlham Əliyevin sərəncamı ilə qəbul edilmiş "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda qeyd olunduğu kimi, respublikamıza səyahətin liberallaşdırılması məqsədilə bir sıra ölkələrə qarşılıqlı əsaslarla viza rejimi ləğv edilmişdir. Həmçinin Azərbaycanın mülki hava limanlarında (aeroportlarında) uçuşların coğrafiyası genişləndirilmiş, turizm sahəsində mövcud dəstək mexanizminin təkmilləşdirilməsi və yenilərinin yaradılması istiqamətində addımlar atılmışdır.

Belə addımlardan biri də son illər yurdumuzun gözəl təbii guşələrindən olan Şabranın Qalaaltı kəndində yerləşən eyniadlı müalicəvi istirahət kompleksidir. Son illər burada dünya standartları səviyyəsində bərpa və yenidənqurma işləri aparılır. Şabrandan Qalaaltınadək olan yol artıq asfaltlanıb, müxtəlif ağaclar əkilib, kompleksdə xoş ovqat yaradan səliqə-sahman yaradılıb.

Mütəxəssislərin fikrincə, sağlamlıq müalicə vasitəsinin incisi sayılan Qalaaltı suyunun tərkibi Truskavetsdə çıxan mədən suyu ilə eynidir. Qalaaltı mədən suyu hidrokarbonat-kalsium, xlorid-sulfat-natrium mədən sularındandır və tərkibində çoxlu miqdarda hidrogensulfid var. Həmin su özünün tərkibindəki kimyəvi maddələrin köməyi ilə daşəridici xassəyə malikdir, eyni zamanda iltihab əleyhinə də təsir göstərir. Məhz bu təsir xassələrinə görə Qalaaltı mədən suyu öd kisəsində, öd yollarında, böyrək ləyənində, sidik kisəsində, sidik yollarında əmələ gələn daşların əridilməsində, eləcə də qaraciyərin, öd yollarının, böyrəklərin, sidik kisəsinin, sidik axarlarının, mədə-bağırsaqların iltihabı xəstəliklərinin müalicəsində olduqca yaxşı nəticə verir.

Qalaaltı sanatoriyası elmi tədqiqatlardan sonra 1975-ci ildən fəaliyyətə başlayıb, uzun illər Azərbaycan və postsovet məkanından gələn pasiyentlərə xidmət göstərib. Lakin ötən əsrin sonlarında iqtisadi-sosial problemlərlə bağlı sanatoriya baxımsız hala düşmüşdü. Sonralar Prezident İlham Əliyevin təşəbbüsü sayəsində Qalaaltı sağlamlıq kompleksi dünya standartları səviyyəsində yenidən qurulmuşdur. Mərkəzdə hotel və SPA müalicə və istirahət kompleksi fəaliyyətə başlamışdır. Bakıdan 127 kilometr məsafədə, dəniz səviyyəsindən 700 metr yüksəklikdə yerləşən kompleks 171 otaqdan ibarətdir. Burada 350-dən çox qonağın istirahəti və müalicəsi üçün hər cür şərait mövcuddur.



Qalaaltı sanatoriyasında müalicə almış Bakı sakini Çərkəz Rzayev deyir ki, ikinci dəfədir bura gəlir, çox xeyirli və faydalıdır: "Burada istər uzunmüddətli müalicəvi istirahət, istərsə də asudə vaxt keçirmək üçün şərait var - açıq və qapalı hovuz, əyləncə mərkəzində fərqli elektron oyunlar, boulinq, idman meydançaları və s. Sauna, türk hamamı, biosauna, masaj, buxar, ekzotik duş və qar otağı, həmçinin müasir qurğularla təchiz olunmuş fitnes zalı pasiyentlərin xidmətindədir". Kompleksdə aptek, suvenir dükanı, bank xidmətləri fəaliyyət göstərir, müxtəlif tədbirlərin keçirilməsi üçün iclas və konfrans otaqları var. Digər bir xoşagələn amil ondan ibarətdir ki, kompleksin daxilində müasir səhiyyə avadanlıqları ilə təchiz edilmiş "Çıraq" Tibb Mərkəzi fəaliyyət göstərir. Təklif edilən sağlamlıq və bərpaedici proqramlar orqanizmin ümumi vəziyyətinin yaxşılaşdırılması və insan ömrünün uzadılmasına xidmət edir.

Xatırladaq ki, Dövlət Turizm Agentliyi tərəfindən 2024-cü ildə Şuşada, 2025-ci ildə isə Bakıda keçirilmiş konfranslar çərçivəsində yerli və xarici mütəxəssislər, dövlət qurumları, özəl sektor nümayəndələri və beynəlxalq təşkilatlar arasında fikir mübadiləsi aparılmış, yeni əməkdaşlıq imkanları müzakirə olunmuş və tərəfdaşlıqların formalaşdırılması üçün platforma yaradılmışdır. Nəticədə ötən illərə nisbətən Rusiya, ABŞ, Qazaxıstan, Gürcüstan, Özbəkistan, Ukrayna, BƏƏ, Qətər və digər ölkələrdən Qalaaltı müalicəvi istirahət kompleksinə gələn turistlərin sayı əhəmiyyətli dərəcədə artmışdır. Kompleks müasir arxitektura baxımından bu yerlərə xüsusi yaraşıq verir.

Görünən odur ki, Azərbaycan zəngin təbii müalicə resursları və ardıcıl dövlət siyasəti ilə sağlamlıq turizmi sahəsində öz mövqeyini getdikcə gücləndirir.

*Rəhman SALMANLI,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# "Yanardağ" qoruğunu ən çox hansı ölkələrin vətəndaşları ziyarət ediblər?

Dövlət Turizm Agentliyinin tabeliyindəki "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunu 2026-cı ilin yanvar-iyul ayları ərzində, ümumilikdə, 104 min 929 turist ziyarət edib. Onlardan 12 min 145 nəfəri yerli, 92 min 784 nəfəri əcnəbi vətəndaşlardır. Qoruğu ziyarət edən xarici turistlər arasında Hindistan, Rusiya, Səudiyyə Ərəbistanı, Pakistan, Türkiyə, İsrail, Çin, Qazaxıstan, Almaniya və Əlcəzair vətəndaşları üstünlük təşkil ediblər.




Bu barədə AZƏRTAC-a Dövlət Turizm Agentliyindən məlumat verilib.

Bildirilib ki, cari ilin yeddi ayı ərzində "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunu ödənişsiz ziyarət edənlərin sayı isə 8 min 241 nəfər olub. Xatırladaq ki, Azərbaycan Respublikası vətəndaşlarından əlilliyi olan şəxslər, azyaşlı uşaqlar və məktəblilər, müharibə veteranları, qazilər və onların birinci dərəcəli ailə üzvləri, şəhid ailəsinin birinci dərəcəli üzvləri üçün qoruq və muzeylərə giriş ödənişsizdir. Xarici ölkə vətəndaşlarının 12 yaşınadək uşaqlarına da giriş ödənişsizdir.

● Dövlət proqramı: təkliflər, rəylər

# Yeni mərhələ, regional rəqabət və mövcud potensial

Azərbaycan turizm sektorunda yeni mərhələyə qədəm qoyur. 2026-2030-cu illər üçün qəbul edilmiş Dövlət proqramı turizmə əvvəlki kimi yalnız turist sayının artırılması prizmasından deyil, iqtisadi dəyərin yaradılması, investisiyaların cəlbi, regionların inkişafı, rəqəmsallaşma, xidmət keyfiyyəti və yeni turizm məhsullarının formalaşdırılması baxımından yanaşır. Proqramın əsas məqsədi turizmi qeyri-neft iqtisadiyyatının daha rəqabətqabiliyyətli sahələrindən birinə çevirməkdir.



2025-ci ildə Azərbaycana 189 ölkədən 2,57 milyon xarici vətəndaş və vətəndaşlığı olmayan şəxs gəlib. Turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyər 2025-ci ildə 6,96 milyard manat olub. Dövlət proqramı bu göstəricinin 2030-cu ildə 12,17 milyard manata çatdırılmasını hədəfləyir. Bu, mühüm dəyişiklikdir. Çünki turizm siyasətinin effektivliyini yalnız turistlərin sayı ilə ölçmək düzgün deyil. Eyni sayda turist müxtəlif ölkələrdə tamamilə fərqli iqtisadi nəticə yarada bilər. Bir turist iki gün qalır və yalnız hotel-restoran xidmətlərindən istifadə edir, digəri isə on gün qalır, regionlara gedir, yerli məhsullar alır, nəqliyyatdan, əyləncədən, mədəni və ekoturizm xidmətlərindən istifadə edir. Ona görə Azərbaycanın gələcək turizm modelində əsas göstəricilər turist sayı, qalma müddəti, turist xərcləri, regional yayılma və yaradılan əlavə dəyər olmalıdır.

## Regional rəqabət: Azərbaycan hansı mövqedədir?

Azərbaycanın turizm potensialı böyükdür. Lakin potensialla faktiki nəticə eyni deyil. Regionda turizm uğrunda ciddi rəqabət gedir. Müqayisə zamanı metodoloji fərqləri nəzərə almaq vacibdir. Azərbaycan üzrə 2,57 milyon göstəricisi xarici girişləri, 1,805 milyon isə turizm məqsədli girişləri ifadə edir. Gürcüstan "tourist trips", Qazaxıstan və Özbəkistan isə öz milli statistika metodologiyalarından istifadə edir. Buna görə bu rəqəmləri tam eyni metodologiya ilə hesablanmış göstəricilər kimi deyil, turizm bazarının miqyasını göstərən indikativ müqayisə kimi qəbul etmək lazımdır. Böyük mənzərə isə aydındır: Azərbaycan turist axınının miqyasına görə Gürcüstan, Qazaxıstan və xüsusilə Özbəkistandan geri qalır. Bu fakt Azərbaycanın turizm siyasətində yeni yanaşmaya keçməsinin səbəblərindən biridir.

Özbəkistanın son illərdəki turizm sıçrayışı Azərbaycan üçün xüsusi maraq doğurur. 2023-cü ildə ölkəyə təxminən 6,6 milyon turist gəlmişdisə, 2024-cü ildə bu rəqəm 10 milyonu keçib, 2025-ci ildə isə 11,7 milyona çatıb. Bir il ərzində artım 46,8 faiz təşkil edib. Daha əhəmiyyətlisi odur ki, Özbəkistan turizm xidmətləri ixracını 2025-ci ildə 4,8 milyard dollara çatdırıb. Bu ölkə viza rejimini 95 ölkəyə qədər liberallaşdırıb.

Buradan Azərbaycan üçün çox ciddi nəticə çıxır: tarixi irsə malik olmaq kifayət deyil, həmin irsi beynəlxalq turizm məhsuluna çevirmək lazımdır. Azərbaycanın Şəki, Lahıc, Basqal, Şuşa, Qarabağ, Qəbələ, Quba-Xınalıq, Naxçıvan və digər məkanları bu baxımdan böyük potensiala malikdir. Məsələ bu potensialın turist üçün konkret, satıla bilən və rəqabətqabiliyyətli məhsula çevrilməsidir.

Azərbaycanın Dövlət proqramında mövsümilik ciddi problem kimi qəbul edilir. Ölkədə əsas turizm mövsümü təxminən beş ayla məhdudlaşır və yerləşdirmə xidmətlərindən gəlirin 51,2 faizi həmin dövrdə formalaşır. Deməli, Azərbaycanın qarşısında sadə, amma strateji bir hədəf dayanır: Yayda dəniz, qışda dağ, yazda təbiət, payızda mətbəx və mədəniyyət. Bu model Azərbaycanın coğrafi və iqlim müxtəlifliyinə tam uyğundur.

Dövlət proqramı 2030-cu ildə Azərbaycana gələn xarici turistlərin sayının təxminən 3,8 milyona çatdırılmasını nəzərdə tutur. Bu, 2025-ci il bazası ilə müqayisədə orta hesabla illik 8,1 faiz artım deməkdir. Bu hədəfə nail olmaq mümkündür, amma avtomatik deyil. 8,1 faizlik illik artım kifayət qədər iddialıdır. Bunun reallaşması üçün ən azı üç fundamental şərt var. Birinci - yeni bazarlar. Azərbaycan, Çin, Hindistan, Mərkəzi Asiya, Körfəz ölkələri, Avropa və Cənub-Şərqi Asiya bazarlarında daha sistemli fəaliyyət göstərməlidir. İkinci - hava əlaqələridir. Turistə Azərbaycana gəlmək asan, sürətli və münasib qiymətli olmalıdır. Proqramda müntəzəm və çarter uçuşlarının artırılması, aşağıbüdcəli aviaşirkətlərin cəlbi və region aeroportlarının beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətləri buna görə mühüm əhəmiyyət daşıyır. Üçüncüsü - qalma müddətidir. 3,8 milyon turistin hər birinin ölkədə iki-üç gün qalması ilə 3,8 milyon turistin orta hesabla bir həftə qalması arasında böyük iqtisadi fərq var. Ona görə hədəf belə düşünülməlidir: 3,8 milyon turist + daha uzun qalma + daha yüksək gündəlik xərc.

Dövlət proqramının ən maraqlı yeniliklərindən biri 2027-2030-cu illərdə 8 kənddə "Turizm kəndi" konsepsiyasının tətbiq edilməsidir. Bu istiqamət Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyır. Çünki turizm və kənd təsərrüfatını bir iqtisadi zəncirə bağlamaq mümkündür.

## "Rəqəmsal səyyah"

Proqramın yeni yanaşmalarından biri də "rəqəmsal səyyah" viza altnövünün yaradılmasıdır. Bu, gələcəyin turist profilində baş verən dəyişiklikləri nəzərə alan addımdır. Məsələn: Bakıya gəlir, iki həftə işləyir, sonra isə Şəkiyə gedir, Qəbələdə qalır, Qubada işləməyə davam edir və sairə.

Belə turist klassik turistdən daha uzun müddət ölkədə qala bilər və hotel, restoran, internet, nəqliyyat, əyləncə və alış-veriş xidmətlərindən daha çox istifadə edə bilər. Bu baxımdan "rəqəmsal səyyah" yalnız viza yeniliyi deyil, uzunmüddətli turist iqtisadiyyatına keçid imkanıdır.

Proqramın digər maraqlı tərəfi turizmdə rəqəmsal transformasiyaya xüsusi yer verilməsidir. Turizm İnformasiya Sisteminin yaradılması, dövlət-biznes-turist münasibətlərinin rəqəmsallaşdırılması və turizm məlumatlarının vahid sistemdə toplanması nəzərdə tutulur.

Daha maraqlı yenilik isə "Milli dadlar" qastronomiya portalının məlumatlarının beynəlxalq axtarış və süni intellekt sistemlərinə inteqrasiyasıdır. Bu, gələcəyin turizm marketinqi üçün prinsipial əhəmiyyət daşıyır.

Proqramda diqqət yetirilən məsələlərdən biri insan resurslarıdır. Mövsümilik, işçi dövriyyəsi və xidmət sektorunda peşəkarlığın kifayət qədər təşviq olunmaması turizm kadrlarının inkişafına mane olan amillər kimi göstərilir. Belə ki, hotel tikmək asandır, yaxşı hotel işçisi yetişdirmək daha çətindir.

Turizmdə rəqabət artıq yalnız bina, mənzərə və qiymətlə müəyyənləşmir. Turistin ölkə haqqında yekun təəssüratını çox vaxt insan və xidmət keyfiyyəti formalaşdırır.

## Regionların turizmə inteqrasiyası

Dövlət proqramının regionların turizmə inteqrasiyası baxımından ən maraqlı tərəflərindən biri Naxçıvanla bağlı konkret tədbirlərin nəzərdə tutulmasıdır. 2026-2028-ci illərdə Bakı-Naxçıvan-Bakı çarter uçuşlarının təşkili və turoperatorların turizm zərfi ilə birlikdə aviabilet satışını təmin edən xüsusi modelin hazırlanması planlaşdırılır. Bu, Naxçıvan üçün mühüm addımdır. Çünki Naxçıvanın turizm potensialının qarşısında duran əsas məsələlərdən biri onun əlçatanlığıdır. Lakin Naxçıvanın potensialı yalnız nəqliyyatla məhdudlaşmır. Onun tarixi abidələri, təbiəti, mineral suları, dini və mədəni irsi, mətbəxi və qədim yaşayış məkanları ayrıca turizm məhsullarına çevrilə bilər.

Qarabağ və Şərqi Zəngəzur məsələsində isə vəziyyət bir qədər fərqlidir.

Dövlət proqramında nəzərdə tutulan bir sıra istiqamətlər bu ərazilər üçün böyük imkan yaradır. Məsələn, mədəni irsin turizm məhsuluna çevrilməsi, böyük İpək yolu turizm məhsulunun yaradılması, qış turizmi, ekoturizm, təbiət turizmi və yeni regional turizm məhsullarının istehsalı.

Xüsusilə Şuşa, Laçın, Kəlbəcər, Zəngilan, Cəbrayıl, Ağdam və Füzulinin hər birinin fərqli turizm profilinin formalaşdırılması mümkündür. Burada mühüm məsələ odur ki, Qarabağ turizmi yalnız "işğaldan azad edilmiş ərazilərə səfər" kimi təqdim edilməməlidir. Bu coğrafiya tarix, mədəniyyət, musiqi, memarlıq, təbiət, qastronomiya, qış turizmi, Böyük qayıdış - bütün bunlar çoxşaxəli turizm məhsuluna çevrilə bilər.

## Qarabağ-Şərqi Zəngəzur-Naxçıvan xətti

Gələcəkdə ayrıca düşünülməli strateji istiqamətlərdən biri də Qarabağ-Şərqi Zəngəzur-Naxçıvan vahid turizm xəttinin formalaşdırılmasıdır. Bu, sadəcə turizm marşrutu deyil. Bu xətt Azərbaycanın tarixini, mədəniyyətini, coğrafiyasını, iqtisadiyyatını, yeni bərpaolunan ərazilərini bir turizm hekayəsində birləşdirə bilər.

Naxçıvan üçün tarix, sağlamlıq, dini-mədəni irs, təbiət, Qarabağ üçün isə, Böyük qayıdış, mədəniyyət, tarix, Şuşa, təbiət, qış və ekoturizm əsasında məhsullar hazırlamaq mümkündür. Beləliklə, turist Azərbaycana yalnız istirahət üçün deyil, ölkənin tarixini və dəyişən coğrafiyasını bilmək üçün gəlmiş olar.

Dövlət proqramının ən güclü tərəflərindən biri turizmi digər iqtisadi sahələrlə əlaqələndirməkdir. Məsələn, turizmi və kənd təsərrüfatı - aqroturizm, turizm və mədəniyyət - mədəni turizm, turizm və səhiyyə - tibbi və sağlamlıq turizmi, turizm və İT - rəqəmsal turizm, turizm və təhsil - peşəkar kadr, turizm və maliyyə - investisiya, turizm və nəqliyyat - əlçatanlıq, turizm və regionlar - regional iqtisadi inkişaf. Bu baxımdan sənəd artıq yalnız turizm siyasəti deyil. Bu, həm də iqtisadi inkişaf siyasətinin bir hissəsidir.

Azərbaycanın turizm potensialı ilə bağlı artıq uzun illərdir danışırıq. Dənizimiz, dağımız, tariximiz, mətbəximiz, mədəniyyətimiz, təhlükəsizliyimiz, coğrafi mövqeyimiz var. Amma potensial özü iqtisadi nəticə yaratmır. Özbəkistanın təcrübəsi göstərir ki, tarixi irsi sürətli turizm artımına çevirmək mümkündür. Gürcüstan göstərir ki, turizmi dörd fəslə yaymaq olar. Qazaxıstan isə göstərir ki, böyük investisiyalar hesabına turizm infrastrukturunu sürətlə artırmaq mümkündür. Azərbaycanın üstünlüyü isə bütün bu modellərin elementlərini özündə birləşdirə biləcək imkanlara malik olmasıdır.

Dövlət proqramının əsas yeniliyi də məhz burada görünür: turizm artıq sadəcə turist qəbul edən xidmət sahəsi kimi deyil, iqtisadi artım, regionların inkişafı, sahibkarlıq, kənd təsərrüfatı, rəqəmsallaşma, investisiya və beynəlxalq imicin formalaşdırılması ilə əlaqəli kompleks sektor kimi nəzərdən keçirilir. Lakin regionda ciddi rəqabət var. Azərbaycan üçün əsas məsələ artıq "turizm potensialımız böyükdür" demək deyil. Əsas məsələ, həmin potensialı rəqabətqabiliyyətli, satıla bilən və yüksək əlavə dəyər yaradan turizm məhsuluna çevirməkdir.

2030-cu ilin əsas sualı da buna görə 3,8 milyon turist olub-olmayacağı deyil. Əsas sual budur ki, Azərbaycan 2030-cu ilə qədər sadəcə daha çox turist qəbul edən ölkəyə, yoxsa turistin daha çox pul xərclədiyi, daha uzun qaldığı, regionlara yayıldığı və yerli sahibkara daha çox gəlir gətirdiyi rəqabətqabiliyyətli turizm iqtisadiyyatına çevrilə biləcəkmi? Dövlət proqramının real uğuru məhz bu sualın cavabı ilə ölçülməlidir.

*Emin ƏLİYEV,*
*aqroturizm üzrə ekspert*





# Mədəniyyət





● Kino tariximiz

# Sözün, sənətin və iradənin birləşdiyi film - "Qəzəlxan"

**Milli kinomuzun Qızıl fonduna daxil olan, böyük ustad Əliağa Vahidin keşməkeşli həyatını və yaradıcılığını vərəqləyən "Qəzəlxan" filmindən 35 il keçməsinə baxmayaraq, o, hələ də tamaşaçı qəlbinə yol tapmağı bacaran nadir kino incilərindəndir. Bu ekran əsəri təkcə bir şairin bioqrafiyası deyil, həm də sovet rejiminin sıxıntıları içində boğulan Azərbaycan ziyalısının, Bakı mühitinin və unudulmaqda olan milli mənəviyyatın yüksək hayqıran səsidir.**






Quruluşçu rejissor Şahmar Ələkbərovun kinoda son işi olan bu bədii dram tarixin qaranlıq səhifələrinə işıq salmaqla yanaşı, sənətkarın azadlıq və həqiqət uğrunda apardığı mübarizəni bədii dillə gələcək nəsillərə ötürür. Filmi bu gün də aktual edən əsas amil, onun real həyat həqiqətlərinə söykənməsi və tamaşaçıda doğurduğu dərin milli qürur hissidir.

Film 1991-ci ildə "Azərbaycanfilm" Kinostudiyasında istehsal olunmuşdur. Görkəmli sənətkar Şahmar Ələkbərov Əliağa Vahid şəxsiyyətinə və yaradıcılığına böyük bir sevgi ilə bağlı idi. Sovet rejiminin uzun illər boyu sıxışdırdığı, unutdurmağa çalışdığı dahi şairin həyatını ekrana gətirməyi özünə mənəvi borc bilirdi. O, hər bir səhnənin, hər bir qəzəlin və muğamın filmdəki yerini zərgər dəqiqliyi ilə işləyirdi. Baş rolun ifaçısı Loğman Kərimovun seçilməsindən tutmuş, geyim və qrim detallarına qədər bütün xırdalıqlarla şəxsən özü maraqlanırdı.

"Qəzəlxan" filmi klassik süjet xəttindən uzaqdır. Rejissor burada şairin həyatını vahid bir bioqrafik xronika kimi deyil, onun ömrünün müxtəlif dönəmlərindən fraqmentlər şəklində təqdim edir. Filmdə Əliağa Vahidin uşaqlıq illəri, Bakı kəndlərindəki toy məclisləri, yaradıcılıq axtarışları, eləcə də sovet senzurasının ona qarşı apardığı gizli və aşkar mübarizə paralel şəkildə inkişaf edir. Film sənətkarın ideoloji təzyiqlərə boyun əymədən öz milli kimliyini, dilini və çox sevdiyi əruz vəznini necə qoruduğunu poetik bir dillə tamaşaçıya çatdırır.

Rejissor Şahmar Ələkbərov şair Əliağa Vahidin həyatı fonunda həmin dövrün qanlı və boğucu ovqatını tamaşaçıya bir neçə mühüm bədii detal və səhnə vasitəsilə çatdırır. Filmdə repressiya mühiti daha çox psixoloji gərginliklə təsvir edilir. İnsanların bir-birindən şübhələnməsi, pıçıldayaraq danışması, hər an həbs olunma vahiməsi Bakı küçələrini və məclislərini bürüyür. Vahidin yaxın dostlarının, ziyalı həmkarlarının qəfildən "yoxa çıxması" dövrün xarakterik mənzərəsini yaradır. Burada repressiya dövrünün Azərbaycandakı rəhbəri Mircəfər Bağırovun obrazı (aktyor Fikrət Sultanov) xüsusi yer tutur. Onun Vahidlə qarşıdurması və ya dialoqları hakimiyyətin sənətə baxışını göstərir, ideoloji tələbləri ortaya qoyur. Sovet rejimi Vahiddən əruz vəznində, klassik üslubda yox, partiyanı, kolxozu və Lenini mədh edən şeirlər yazmağı tələb edir. Qəzəl və muğam sənəti "keçmişin qalığı" və burjua mənsubiyyəti kimi qələmə verilərək sıxışdırılır. Vahid isə bu qadağalara baxmayaraq, milli ruhu qorumağa çalışır. Şahmar Ələkbərov "Qəzəlxan" filmində göstərir ki, Əliağa Vahid repressiyanın qurbanı olub fiziki məhvə məruz qalmasa da, onun yaradıcılığı və ruhu bu amansız mühitin ağır mənəvi işgəncələrini sonuna qədər yaşamışdır.

Filmin ən güclü bədii komponentlərindən biri şübhəsiz ki, onun musiqi tərtibatıdır. Filmin musiqi müəllifləri görkəmli bəstəkar Ramiz Mirişli və Nazim Mirişlidir. Xalq artisti R.Mirişli daha çox özünün lirik və pozitiv mahnıları ilə tanınsa da, "Qəzəlxan" filmində tamamilə fərqli, ağır bir dramatik bəstəkarlıq fəlsəfəsi ortaya qoyur. Onun yaratdığı musiqi mövzuları repressiya dövrünün gətirdiyi ictimai boğuntunu və mənəvi çıxılmazlığı tamaşaçıya birbaşa hiss etdirir. Gecə reydləri, NKVD maşınlarının qaranlıq küçələrdə görünməsi və insanların hər an həbs olunma qorxusu bəstəkarın kəskin, təşviş dolu instrumental kompozisiyaları ilə daha da vahiməli forma alır. Alim Qasımovun ifa etdiyi yüksək registrlərdəki muğam parçaları, fəryadı xatırladan zəngulələr repressiya dövründə məhv edilən Azərbaycan ziyalılarının - Hüseyn Cavidin, Mikayıl Müşfiqin və minlərlə onlar kimi insanın mənəvi ağrısını, xalqın səssiz harayını təqdim edir. Xüsusilə Vahidin daxili sarsıntılar keçirdiyi və dostlarının həbs xəbərini aldığı səhnələrdə muğam bir növ ağıya çevrilir.

Loğman Kərimov filmin baş qəhrəmanı olan şair obrazını böyük məharətlə canlandırıb. Aktyor Vahidin həm daxili iztirablarını, həm də xalq arasındakı məğrurluğunu ustalıqla nümayiş etdirir. Fəxrəddin Manafov Vahidin daxili dünyasını, fəlsəfi düşüncələrini və poeziyasının ruhunu kadrarxası qəzəl oxunuşları ilə tamamlayan, filmə xüsusi dramatizm qatan səsləndirməni icra edir. Yaşar Nuri (Məşədi Hilal) Bakı mühitinin, milli adət-ənənələrin və sənətə hörmət bəsləyən tipik köhnə Bakı insanının dolğun obrazını yaradır. Ramiz Əzizbəyli (Məmmədəli) şairin yaxın dostu və sirdaşı rolunda, dövrün çətinliklərinə baxmayaraq, sadiqliyi təmsil edən performansı ilə yadda qalır. Leyla Bədirbəyli (Xanım) filmdə zadəgan ruhlu, sənətə və şairə dəyər verən obrazı ilə aristokratik Bakı mühitini canlandırır. Mehriban Xanlarova (Sürəyya) vahidin sevgi və ilham pərisi olan, onun həyatındakı emosional xətti təmsil edən dramatik rolu uğurla ifa edir. Hacı İsmayılov, Nuriyyə Əhmədova, Mirzə Babayev və başqaları öz epizodik və ya köməkçi rolları ilə sovet dövrünün Bakı cəmiyyətinin fərqli sosial təbəqələrini gerçəkləşdiriblər.

"Qəzəlxan" filminin çəkilişləri başladığı dövrdə Şahmar Ələkbərov artıq ağır və sağalmaz xəstəlikdən - xərçəngdən əziyyət çəkirdi. Fiziki ağrıların onu daxildən sarsıtdığı, həkimlərin ona yataq rejimi və dincəlməyi dönə-dönə tapşırdığı bir vaxtda o, çəkiliş meydançasını bir gün belə tərk etmirdi. Rejissor sanki zamanın onun əleyhinə işlədiyini bilir və ömrünün son saniyələrini bu filmi tamamlamağa çalışırdı. Səsini itirsə də, iradəsini itirmirdi. Xəstəliyin ən ağır mərhələlərində Şahmar Ələkbərovun səsi demək olar ki, tamamilə batmışdı. O, çəkiliş meydançasında aktyorlara və texniki heyətə öz tapşırıqlarını səsgücləndirici ilə belə, çatdıra bilmirdi. Lakin bu fiziki maneə də onu durdurmurdu. O, mikrofona pıçıltı ilə danışır, köməkçiləri isə onun bu pıçıltılarını bütün çəkiliş qrupuna ucadan elan edirdilər. Rejissor hər vəchlə filmin daxili səsini və ruhunu qorumağın öhdəsindən gəlirdi.

Böyük sənətkar filmin montajını və son tamamlama işlərini demək olar ki, xəstəxana çarpayısında, ağır ağrıkəsicilərin təsiri altında rəhbərlik edərək başa çatdırdı. Özü isə qısa müddətdən sonra - 1992-ci ilin avqustunda 49 yaşında vəfat etdi.

"Qəzəlxan" filminin 1991-ci ilin sonunda keçirilən ilk premyerasında zalda tamamilə fərqli və kövrək bir ovqat hakim idi. Tamaşaçılar və kino ictimaiyyəti filmin hansı şəraitdə ərsəyə gəldiyini çox yaxşı bilirdilər. Alim Qasımovun fəryad edən muğamı altında Əliağa Vahidin ağır taleyi ekranda canlandıqca, tamaşaçılar həm Vahidin, həm də daxildən əriyən Şahmar Ələkbərovun faciəsinə ağlayırdılar. Film bitdikdə zalda bir neçə saniyəlik ağır, sarsıdıcı sükut yarandı, ardınca isə dəqiqələrlə davam edən gurultulu alqış sədaları gəldi. Ağır xəstə olmasına baxmayaraq, Şahmar Ələkbərov premyerada iştirak edirdi. Tamaşaçıların ayaq üstə nümayiş etdirdiyi bu sevgi və hörmət həm Əliağa Vahid irsinə, həm də ölümün gözünə dik baxaraq bu əsəri xalqına bəxş edən rejissorun iradəsinə verilən ən ali qiymət idi.

Zaman keçəcək, nəsillər dəyişəcək, lakin "Qəzəlxan" filmi hər dəfə izləniləndə tamaşaçılar sənətin, sözün və mənəvi iradənin əbədi olduğunu görəcəklər. Bu film Azərbaycan kinosunun çətin sınaqlardan keçərək unudulmaz şair Əliağa Vahidin keşməkeşli ömür yolunu və poetik irsini ekrana gətirən fundamental tarixi-bioqrafik dram əsərlərindən biridir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

● Rübabə Muradova - 93

# Ərdəbil sevdalı Rübabə xanım

**Kövrək və həzin səsi ilə musiqisevərləri sehrində saxlayan görkəmli xanəndə, respublikanın Xalq artisti Rübabə Muradova sevilən və ehtiramla xatırlanan xanəndələrdəndir. Rübabə xanım Ərdəbil sevdalı, cənub nisgilli nəğmələri ilə hər kəsdə vətən sevgisi hissi oyadardı.**



Rübabə Mirzə Xəlil qızı Muradova 22 mart 1933-cü ildə Cənubi Azərbaycanın Ərdəbil şəhərində ziyalı ailədə dünyaya göz açıb. Tibb təhsilli atası övladının xoşbəxt gələcəyi üçün hər cür zəhmətə qatlaşır. O, Rübabəni Ərdəbil qızlar məktəbinə qoyur. Onun məktəbdə təşkil olunan konsert və tamaşalarda səhnəyə çıxmasına nəinki etiraz etmir, hətta dəstək olur.

Mirzə Xəlil xalqının daha firavan yaşaması naminə Cənubi Azərbaycan milli hökumətinin qurulması uğrunda mübarizə aparan "21 Azər" hərəkatının fəallarından idi. İnqilab qələbə ilə nəticələnsə də, milli hökumətin ömrü qısa olur. 6-7aydan sonra - 1946-cı ildə milli hökumət süquta uğrayır və onun qurucuları, dəstəkləyənləri doğma yurddan qaçqın düşürlər. Rübabə Muradovanın ailəsi də Şimali Azərbaycana üz tutur...

Ailə tezliklə geri qayıdacaqları ümidi ilə bir müddət Ərdəbilə yaxın Astara şəhərində məskunlaşır. Sonra Salyana gəlirlər. Mirzə Xəlilin dini təhsili olduğu üçün şəhərin məscidində axundluq edir. Amma eyni zamanda həkim kimi də fəaliyyət göstərir. Rübabə isə şəhər orta məktəbində təhsil alır. Məktəbin özfəaliyyət dərnəyinə yazılır, burada istedadlı gənc kimi diqqət çəkir. Məlahətli səsi, həm də musiqi duyumu çoxlarını heyran qoyur. Oxuduğu məktəbdə özfəaliyyət dərnəyinin üzvü kimi şəhərin mədəni-kütləvi tədbirlərində yaxından iştirak edir. Aylar, illər bir-birini əvəz etdikcə Rübabə sənətdə püxtələşir və tanınır.

Günlərin birində Azərbaycan Dövlət Akademik Dram Teatrının aktyorları Salyanda qastrol səfərində imiş. Gənc Rübabə adını eşidib, üzünü görmədiyi görkəmli aktyor Ələsgər Ələkbərovu burada görür və tanıyır. Axşam "Vaqif" tamaşası təqdim edilmə ərəfəsində məlum olur ki, Xuraman rolunun ifaçısı xəstələnib. Bu zaman tanışların təkidi ilə Rübabə Muradova ilk dəfə peşəkar səhnəyə çıxır və Ə.Ələkbərovla tərəfdaş olur. Çox çətin olsa da, üzərinə düşən vəzifənin öhdəsindən uğurla gəlir. Onun Xuramanın özünü qayadan atması səhnəsində oxuduğu "Bayatı-kürd" muğamı isə tamaşaçıları heyran edir, sürəkli alqış sədaları salonu başına götürür.

Tamaşadan sonra Ə.Ələkbərov gənc müğənnini Bakıya dəvət edir, "filarmoniyanın sizin kimi səsli gənclərə ehtiyacı var", - deyir.

Rübabə Muradova 1951-ci ildə Bakıya gəlir. Asəf Zeynallı adına Musiqi Məktəbinə qəbul olunur, ustad xanəndə Seyid Şuşinskinin sinfində sənətin sirlərini öyrənir. Hələ tələbə ikən müəllimlərinin ümidini doğruldur. Opera və Balet Teatrının səhnəsinə ilk dəfə Leyli rolunun ifaçısı kimi çıxır. 1954-cü ildə Opera və Balet Teatrında işə qəbul olunur. Əvvəlcə solist, sonra məşqçi-pedaqoq kimi fəaliyyət göstərir. O, bu sənət məbədinin səhnəsində "Leyli və Məcnun"da Leyli, "Əsli və Kərəm"də Əsli, "Koroğlu"da Xanəndə qız, "Şah İsmayıl"da Ərəbzəngi, "Aşıq Qərib"də Şahsənəm, "Gəlin qayası"nda Sənəm rollarında çıxış edir.

Görkəmli sənətkarın Azərbaycan incəsənətinin inkişafındakı xidmətləri yüksək qiymətləndirilir. O, 1956-cı ildə "Əməkdar artist", 1959-cu ildə "Şərəf nişanı" ordeni və 1971-ci ildə "Xalq artisti" fəxri adına layiq görülür.

Nəğmələrində xalqın məhəbbətini qazanan tanınmış xanəndə Rübabə Muradova sənətdə nə qədər uğurlar əldə etsə də, doğma Ərdəbilin nisgilini həmişə qəlbində daşıyıb. Deyirlər ki, bir gün Rübabə xanım Astarada qastrol səfərində imiş. Sənət yoldaşlarından bir az aralanır və İran sərhədinə tərəf üzünü tutur. İllərlə xiffətini çəkdiyi, gedə bilmədiyi, hətta yaxından baxa bilmədiyi yerlərə həsrətlə diqqət yetirir və hönkür-hönkür ağlayır. Sənət yoldaşları onu çətinliklə sakitləşdirirlər.

Qısa ömründə sənətin şöhrət zirvəsinə yüksələn Rübabə xanım daim bir qəriblik nisgilindən üzülür. Yaşadığı ağrı-acılar, ailə həyatındakı uğursuzluqlar onu taqətdən salır. Hamıdan sevgi görsə də, öz sevdiklərinə çata bilmir. 28 avqust 1983-cü ildə Bakıda dünyasını dəyişir.

Tanınmış qaboy ifaçısı, Xalq artisti, mərhum Kamil Cəlilov görkəmli sənətkarla bağlı deyib: "Rübabə xanım vəfatından öncə vəsiyyət etmişdi ki, mən onun cənazəsi başında "Segah" çalım. Çünki mənə həmişə deyərdi ki, ay Kamil, sən "Segah" çalanda elə bilirəm ki, Ərdəbildəyəm. Gözlərimi yumuram, açanda mənə qalan isə göz yaşları olur. Elə istəyirəm ki, nə sən çalğını kəsəsən, nə də mən gözlərimi açam..."

Rübabə Muradova 50 illik ömründə Azərbaycan musiqi mədəniyyətində elə bir iz qoyub ki, gələcək nəsillər onun sənət rübabını daima dinləyəcək, sənətkarı xoş duyğularla, böyük ehtiramla yada salacaqlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Astanada Azərbaycanın milli incəsənəti və pəhləvanlıq ənənələri təqdim olunub

**Qazaxıstanın paytaxtındakı Triatlon parkında Azərbaycanın milli incəsənətinə, musiqisinə və idman-pəhləvanlıq ənənələrinə həsr olunmuş mədəni-əyləncəli tədbir keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbir azərbaycanlıların "Xəzər" Etnomədəni Birliyi tərəfindən Astana şəhər hakimiyyəti ilə birgə təşkil olunub. Proqram çərçivəsində Azərbaycanın tanınmış pəhləvanı, "El pəhləvanları" İdman Klubu İctimai Birliyinin sədri Nurəddin Beyləqanlı Astanada yaşayan sakinlər və şəhərin qonaqları qarşısında möhtəşəm nömrələrlə çıxış edib.

"Xəzər" Etnomədəni Birliyinin sədri Mahir Rzayev milli mədəniyyətin təbliği və ənənələrin qorunması baxımından bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətini vurğulayıb.

"Qazaxıstanda Azərbaycan xalqının zəngin mədəni irsinin və milli ənənələrinin təbliği baxımından belə tədbirlərin keçirilməsi mühüm əhəmiyyət daşıyır. Türk pəhləvanımızın yalnız gücünü və məharətini deyil, həm də pəhləvanlıq ənənələrinin davam etdirilməsini nümayiş etdirməsi xüsusilə əlamətdar haldır. Bu, gənclər üçün layiqli nümunə olmaqla yanaşı, milli kimliyin qorunmasına və öz köklərinə hörmət hissinin formalaşmasına da töhfə verir".

Proqramın musiqi hissəsini Azərbaycanın milli musiqi aləti olan tarda əsərlər ifa edən Sadıq Namazovun çıxışı zənginləşdirib. Tamaşaçılar qarşısında, həmçinin Azərbaycanın milli rəqslərindən ibarət proqram təqdim edən "Qadir" rəqs ansamblı çıxış edib.

Tədbir Azərbaycanın zəngin mədəni irsinin təbliği, eləcə də xalqlar arasında dostluq və mədəni əlaqələrin möhkəmləndirilməsi məqsədi daşıyıb.

# Laçın Beynəlxalq Film Festivalının qalibləri mükafatlandırılıb

**Laçın Beynəlxalq Film Festivalının (Lachin International Film Festival - LIFF) mükafatlandırma mərasimi olub.**



AZƏRTAC xəbər verir ki, mərasimdə festivalın direktoru Amil Amal tərəfindən qaliblərə və fərqlənən iştirakçılara mükafatlar təqdim edilib.

Festival çərçivəsində Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədova, Xalq artisti Şamil Süleymanlıya, Elşad Ərşadoğluya və İlkin Umarova "Qızıl Palıd Budağı" mükafatı təqdim olunub. "Golden Oak Branch" mükafatına Jean-Marie Villeneuve, Toktobek Usonov Usonovich layiq görülüblər. Mükafatlar həmçinin cəmiyyətin aktual məsələlərinin kino dili ilə ifadəsinə, kino aktyoru sənətinin inkişafındakı xidmətlərə və digər kateqoriyalara görə verilib.

Münsiflər heyətinin xüsusi diqqətini çəkən filmlər sırasında Ayan Məlikin "Laylay", aktyor Anar Buludun "Timşel", Asiman Ağa Rövşənin "Divarın o üzü", Mehmet Oğuz Yıldırımın "Kudret", Kübra Binnətovanın "Eyni yağış altında", İqor Smolanın "It lives under the snow", Marcin Tomaszewskinin "Karma. The line between", Rezanın "Aşıqlar çayxanası", Zeljko Staneтiçin "Milena", Nodir Nuriddinoviç Abdukarimovun "Cold Spring" filmləri yer alıb.

Bundan əlavə festivalın müsabiqə proqramına seçilən bütün 39 filmin iştirakçılarına "Rəsmi iştirakçı" sertifikatı təqdim olunub. Ümumilikdə 17 nəfər mükafata layiq görülüb.

Laçın Beynəlxalq Film Festivalı Qarabağda və Şərqi Zəngəzurda keçirilən ilk beynəlxalq film festivalıdır. Festivalın əsas məqsədi Azərbaycan kinosunun təbliği, yerli və xarici kino nümayəndələri arasında yaradıcılıq əlaqələrinin genişləndirilməsi, eləcə də regionun mədəni həyatının canlandırılmasına töhfə verməkdir.

## Mənəviyyat mövzusunda

# ANA



**Anam mənim, səninlə danışmağa, söhbətləşməyə o qədər ehtiyacım var ki! Olanlara sənin həmişə dediyin bir kəlmə sözün məlhəm olardı. "Darıxma, hər şey yaxşı olacaq. İrəlidə səni hələ gözəl günlər gözləyir". Ana, xəbərin varmı o günlər tükənmək üzrədir? Amma sənin təskinliyinə hələ də ehtiyacım var.**

İndi mən səni torpağa tapşırdığımız vaxtdakı yaşından fərqliyəm. Ağır da olsa, indi mən səndən yaşlıyam. Ana, bilmirəm niyə tələsdin?

Məni qınamasan həmişə ürəyimdə fikirləşdiyimi dilimə gətirəcəm. Sən torpaqlarımızın işğalını görmədin. Qaçqınlığın acı həqiqətini dadmadın. O sevdiyin evin bir gün nişanə üçün belə bir daşının qalmadığının nisgilini yaşamadın. Bəlkə də dözməzdin bu fəlakətə, bu ayrılığa.

Anam mənim, uyuduğun, tamamilə dağıdılmış qəbiristanlığa gedib çıxa bilmirəm. Səni orada da tapmayacağımdan çox qorxuram. Əgər məzarını tapmasam məndən inciməzsən ki? Axı o boyda qəbiristanlıqda cəmi bir-iki köhnə məzar daşı qalıb deyirlər. Hələ mina qorxusu var. Odur ki, dözmək gərəkdir.

Anam mənim, ruhun şad olsun. Torpaqlarımız işğaldan azad olunub. Daha Dağlıq Qarabağ adında yer yoxdur. Sənin çox sevdiyin, yağının darmadağın etdiyi və buna görə də "Qafqazın Xirosiması" deyilən Ağdam indi başdan-başa yenidən qurulur. Dünyanın ən abad, gözəl şəhəri olacaq. Təkcə geri dönməyən sənli günlərim, itmiş xatirələrimdir.

Anam mənim, bağışla ki, 37 ildə ilk dəfə bu il sənin bu dünyaya vida etdiyin günü unutdum. Sənin gənc qoyub getdiyin mən balan artıq yaşa dolub. Və nə yazıq ki, yaşın gətirdiyi o çətinlikləri yaşamaq məcburiyyətindədir.

Mənim yorğun anam, atasız böyütdüyün dörd övladına təhsil verdin, ev-eşik elədin. Amma əlimiz çörəyə çatanda sən yox idin. Bax nisgillərin ən böyüyü budur. Müdrik anam, yadındadırmı ailəmizin ən kiçiyi olan qardaşımla bağlı bir fikri bizə təlqin etmişdin. Böyük bacım və qardaşım olduğu halda dedin ki, o sizin dədənizdir. Onda uşaq ağlım ilə bu sözləri qavramağa çətinlik çəkmişdim. Bəlkə də bir az qısqanmışdım. Yeri gəlmişkən, sonbeşiyin o vaxt bu imtiyazdan yetəri qədər sui-istifadə edirdi. Bu gün isə sənin nə qədər uzaqgörən olduğun təsdiqini tapdı. (Allah böyük bacı-qardaşıma qəni-qəni rəhmət eləsin). Kiçik qardaşım həqiqətən də hamımıza dədə əvəzi oldu.

Anam mənim, uşaq vaxtı dünyanı belə ədalətsiz bilmirdim. Mənə elə gəlirdi ki, sən də əbədisən, ölə bilməzsən. Bəzən bizə tutduğun iradlar xoşumuza gəlməsə də, etiraz etməzdik. Amma xasiyyətin sərt olduğu üçün dilimizə gətirməzdik. Çox tələbkar idin. Çünki həm ata əvəzi, həm ana kimi iki ağır yük daşıyırdın. Əziyyətin böyük idi. Yorulsan da, dilinə gətirməzdin. Yəqin ki, bunu bizə nisgil olmasın deyə belə edirdin. Bunu mən ana olandan sonra anladım.

Anam mənim, indi sən gördüyün dünya da dəyişib. Dəyişməyən ana sevgisi, ana məhəbbətidir. Yəqin ki, bu heç zaman dəyişməyəcək də. İndi sən məndən yaşca kiçiksən. Lakin sənə elə ehtiyacım var ki. Heç olmasa yuxularıma gəl, dərdləşək. Düşünürəm ki, sənin yuxuda da olsa söyləyə biləcəklərin həyatıma yüngüllük gətirər.

*Rəfiqə SADIQOVA,*
*yazıçı-jurnalist*

# "Xankəndi" iş başındadır

"Xankəndi" sualtı tikinti gəmisi yenə iş başındadır. Əslində o, Xəzərdə 10 ildən çoxdur çalışır. Son texniki nailiyyətləri özündə birləşdirən bu nadir gəmi "Şahdəniz-2" çərçivəsində ən böyük sualtı hasilat sistemini quraşdırmaq üçün layihələndirilib və inşa edilib.



"Şahdəniz"in əməliyyatçısı - BP şirkəti "Xankəndi"nin layihələndirilməsi və tikintisi barədə dəyəri 400 milyon dollara yaxın olan müqaviləni Bakı Gəmiqayırma Zavodu MMC ilə 2014-cü il aprelin 17-də bağlamışdı. 2017-ci il sentyabrın 6-da isə Prezident İlham Əliyev gəminin təqdimat mərasimində iştirak etdi. Dövlət başçısı dedi: "Şadam ki, bu nəhəng gəmi Azərbaycanda, Bakıda inşa edilib. Bu gəmiyə "Xankəndi" adı verilib. Onun da çox böyük mənası var. Xankəndi bizim qədim şəhərimizdir. Xankəndinin adı bizim üçün əzizdir, doğmadır. Təsadüfi deyil ki, dünyada nadir standartlara cavab verən bu gəmiyə məhz bu ad verilmişdir. Bu gəminin tikintisi ölkəmizin gücünü göstərir. Onu göstərir ki, bu gün Azərbaycanda istənilən böyük tikinti işi aparıla bilər. Bu gəminin inşası, istifadəyə verilməsi eyni zamanda onu göstərir ki, vaxtilə gəmiqayırma zavodunun tikintisi haqqında verilmiş qərar düzgün qərar idi. O vaxt bu qərarı verərkən və bu zavodun tikintisinə böyük sərmayə ayırarkən biz məhz bu məqsədi güdürdük ki, Azərbaycan istənilən növ gəmini inşa edə bilsin".

"Xankəndi"nin iki iri gövdə bölməsi Bakıya müvafiq müqavilə əsasında Sinqapurda inşa edilərək təhlükəsiz şəkildə gətirilmişdi. Bunlar Bakı Gəmiqayırma Zavodunda tikinti-quraşdırma sahəsinə çıxarılaraq inşası başa çatmış burun, yaşayış və idarəetmə blokları ilə birləşdirilmiş və müvafiq inteqrasiya işləri yerinə yetirildikdən sonra 2016-cı ilin mayında suya salınmışdı. Həmin vaxtdan bəri gəmi Xəzərdə üzərinə düşən missiyanı layiqincə yerinə yetirir.

BP şirkətindən aldığımız məlumata görə, "Xankəndi" bu ilin birinci yarısında "Şahdəniz-2" layihəsi çərçivəsində qərb cinah quyularında sualtı işlər üzrə fəaliyyətini davam etdirib. Aprel ayında bu cinahda artıq beşinci quyu işə salınıb.

"Şahdəniz-2"dəki əməliyyatlar "Xankəndi"nin əsas iş həcmi olmaqla yanaşı, ilin birinci yarısında gəmi həmçinin "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarında çalışıb. Belə ki, gəmi "Dərinsulu Günəşli" ərazisində bir çox quyuda yataqda təzyiqin idarə olunması və hasilat səviyyəsinin gücləndirilməsi imkanlarının erkən aşkarlanmasına kömək edəcək sualtı müdaxilə əməliyyatlarına cəlb olunub.

Əməliyyatçı şirkətin məlumatına görə, bu müddət ərzində "Akademik Tofiq İsmayılov" dalğıc gəmisi hazırda istismarda olan bütün "Şahdəniz-2" və AÇG sualtı hasilat obyektlərinə texniki xidmət, yoxlama və müdaxilə ilə bağlı ümumi işlərə dəstək verib. Bu, gəmidən və qazma qurğularından səmərəli istifadəni təmin etmək məqsədilə fəaliyyətlərin optimallaşdırılması və quyuların işə salınması müddətinin sürətləndirilməsi üçün inteqrasiya olunmuş qrafikin bir hissəsidir.

Xatırladaq ki, "Akademik Tofiq İsmayılov" Xəzər dənizində sualtı əməliyyatlar və dalğıc işləri həyata keçirən 91,8 metr uzunluğunda və 17 metr enində ixtisaslaşmış dalğıc gəmisidir. Bu gəminin təyinatı 300 metrə qədər dərinlikdə dalğıc və daha dərin sahələrdə mürəkkəb sualtı texniki missiyalar yerinə yetirməkdir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Restoranlarda servis haqqı olmalıdırmı?

## Xidmət obyektində əlavə "xidmət haqqı" məntiqsizdir

Restoran və kafelərdə hesabın üzərinə əlavə olunan 8, 10, bəzən isə 12 faiz servis haqqı uzun illərdir müzakirə olunan mövzulardandır. Kimisi bunu normal qarşılayır, kimisi isə haqsızlıq, soyğunçuluq hesab edir. Xüsusən son illər qiymətlərin artması fonunda insanlar bir sualı daha çox verir: "Mən onsuz da yeməyin pulunu ödəyirəmsə, niyə əlavə olaraq servis haqqı verməliyəm?"



Restorana gedən insan təbii ki, yeməyi özü mətbəxdən götürməyəcək. Ofisiantın sifarişi qəbul edib yeməyi masaya gətirməsi həmin xidmətin əsas hissəsidir. Necə ki, mağazada satıcı məhsulu təqdim edir və bunun üçün ayrıca "satış haqqı" alınmır, iaşə obyektinin də əsas işi iaşə xidməti göstərməkdir. Buna görə də "servis haqqı" adı ilə əlavə məbləğin hesaba yazılması məntiqsizdir.

Ən çox narazılıq yaradan məqam isə bu ödənişin könüllü deyil, məcburi olmasıdır. Bir çox restoranda menyunun kiçik hissəsində, məsələn, "10 faiz servis haqqı əlavə edilir" yazılsa da, müştərinin real seçimi olmur. Hətta bəzi məkanlarda xidmət çox zəif olsa belə, həmin məbləğ yenə hesaba əlavə edilir. Bu isə "xidmət keyfiyyətinə görə təşəkkür" anlayışını tamamilə formal bir ödənişə çevirir.

Əslində, servis haqqının ilkin mənası fərqlidir. Dünyanın bir çox ölkəsində bu anlayış işçilərin motivasiyası və xidmət keyfiyyətini artırmaq üçün yaradılıb. Amma hər ölkədə tətbiq forması fərqlidir. Məsələn, ABŞ-də "çaypulu" ("çayevoy") vermək çox yayılıb. Orada ofisiantların maaşı nisbətən aşağı olduğu üçün əsas gəlirlərinin böyük hissəsi müştərinin verdiyi "çaypulu"ndan formalaşır. Müştərilər, adətən, hesabın 15-20 faizi qədər əlavə ödəniş edirlər. Amma vacib məqam budur ki, bu, könüllüdür. Xidmət yaxşıdırsa çox, zəifdirsə az və ya heç verilmir. Yəni müştərinin seçim haqqı var.

Avropanın bir çox ölkəsində isə vəziyyət tam fərqlidir. İtaliya, Fransa, Almaniya kimi ölkələrdə restoran işçilərinin maaşı birbaşa müəssisə tərəfindən qarşılanır. Bəzi yerlərdə kiçik servis haqqı hesabın içində göstərilə bilər, amma bu, əvvəlcədən qeyd olunur və bu halda çox vaxt əlavə "çaypulu" gözlənilmir. İnsanlar, sadəcə, xidmətdən razı qaldıqda masa xidmətçisinə əlavə kiçik məbləğ "çaypulu" verirlər.

Yaponiyada isə ümumiyyətlə, "çaypulu" anlayışı yoxdur. Hətta bunu təklif etmək hörmətsizlik kimi qəbul edilə bilər. Çünki orada keyfiyyətli xidmət restoranın borcu sayılır.

Azərbaycanda problem ondadır ki, bir çox məkan servis haqqını artıq xidmətin bir hissəsi kimi yox, əlavə qazanc kimi tətbiq edir. Bəzi restoranlarda 10 faizlə yanaşı "kuver", canlı musiqi haqqı və digər əlavələr də olur. Nəticədə 40-50 manatlıq hesab 60-70 manatacan yüksəlir. Müştəri isə özünü aldadılmış hiss edir. Halbuki servis haqqı tətbiq olunursa, bu, menyuda aydın görünməli və xidmət keyfiyyəti ilə uyğun olmalıdır. Müştəri özünü aldadılmış saymamalıdır.

Tez-tez rast gəlinən bir hal da odur ki, əksər restoranlarda servis haqqı olmasına baxmayaraq, ofisiantlar yenə ayrıca "çaypulu" gözləyirlər. Bu isə müştəridə sual yaradır: "Bəs mən ödədiyim servis haqqı kimi alınan məbləğ kimə gedir?" Əgər həmin məbləğ doğrudan da işçilərə, o cümlədən masa xidmətçilərinə çatmırsa, bu artıq problemdir və onun xərci müştərinin üzərinə qoyulmamalıdır.

Əslində, ən sağlam model balanslı yanaşmadır. Restoran xidmətin əsas məsuliyyətini özü daşımalı, işçilərinə normal maaş verməli, müştəri isə xidmətdən razı qaldıqda əlavə təşəkkür etməlidir, o da könüllü. Çünki keyfiyyətli xidmət artıq restoranın təqdim etdiyi məhsulun bir hissəsidir.

İnsan restorana təkcə yemək yeməyə yox, daha çox istirahət etməyə, şənlənməyə, hansısa günü, hadisəni qeyd etməyə gedir. Ona görə də ictimai iaşə obyektlərinin sahibləri elə etməlidirlər ki, müştərilərinə hesab təqdim olunanda onlar həmin restoranı seçdiklərinə görə peşmançılıq hissi keçirməsinlər.

Buna görə də servis haqqı məsələsində əsas prinsip bir cümlə ilə ifadə oluna bilər: məcburi yox, haqq edilmiş könüllü xidmət ödənişi. Ümumiyyətlə, bu ödəniş olmalıdırmı?

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

# ABŞ-nin yeni sanksiyaları İran iqtisadiyyatına zərbə vuracaqmı?

## Məsud Pezeşkian: "Amerika iqtisadi təzyiqlə heç nəyə nail olmayacaq"

ABŞ maliyyə naziri Skott Bessent Vaşinqtonun Tehrana iqtisadi təzyiqinin yeni mərhələsini elan edib. Bu dəfə tədbirlər yalnız sanksiyalar altında olan İran səlahiyyət sahiblərini və təşkilatlarını deyil, həm də ölkənin pul və mal daşımaq üçün istifadə etdiyi xarici maliyyə və ticarət qurumlarını və vasitəçilərini hədəf alıb.





Nazir ABŞ-nin "beş iqtisadi arteriya" adlandırdığı sahələri hədəf alacağını açıqlayıb - rəqəmsal aktivlər, texnologiya, qızıl, aviasiya sektoru və dəniz gəmiçiliyi. O, həmçinin qanunsuz pul köçürmələri üçün iranlılara kömək edən xarici təşkilatları hədələyb: "İran üçün çirkli pulların yuyulmasına kömək edən hər hansı bir təşkilat ABŞ dollarına əsaslanan maliyyə sistemindən kənarlaşdırılacaq. Geri sayım indi başlayır". Bundan əlavə, təxminən 60 İran səlahiyyətlisinə, şirkətlərinə və gəmilərinə birbaşa sanksiyalar tətbiq edilib.

Son aylar İranın neft ixracı kəskin şəkildə azalıb. Əsas alıcı olan Çinə tədarük avqust ayında gündə təxminən 534000 barelə düşüb ki, bu da iyul ayındakı 823000 və bu ilin əvvəlində təxminən 1,58 milyon bareldən xeyli, göründüyü kimi, azdır. Bundan əlavə, "Reuters" Agentliyinin istinad etdiyi rəsmi məlumatlara görə, İranda ərzaq qiymətləri iyul ayında ötən ilin eyni dövrü ilə müqayisədə təxminən 128 faiz artıb.

Amma Londonda yaşayan siyasi iqtisadiyyat üzrə şərhçi Əlirza Salavati ABŞ-nin yeni tədbirlərinin fundamental strateji dəyişikliyə səbəb olacağına şübhə ilə yanaşır. Şərhçinin "Alman dalğası" radiostansiyasına verdiyi müsahibədə qeyd etdiyi kimi, İran iqtisadiyyatının demək olar ki, bütün sektorları artıq ABŞ sanksiyaları altındadır. Buna görə də son məhdudiyyətlər tamamilə yeni təzyiq formasından daha çox mövcud tədbirlər üzərində nəzarətin sərtləşdirilməsi ola bilər. Onların əsas təsiri, ehtimal ki, psixoloji olacaq və inflyasiya gözləntilərini artıracaq.

Analitiklər hesab edirlər ki, yeni sanksiyalar Tehranın ticarəti maliyyələşdirməsini, xarici valyuta əldə etməsini və mövcud iqtisadi təchizat zəncirlərini qorumasını daha da çətinləşdirə bilər. Lakin qısa müddətdə əsas yük onsuz da müharibənin və son dərəcə yüksək inflyasiyanın nəticələri ilə üzləşən şirkətlərin, muzdlu işçilərin və ev təsərrüfatlarının üzərinə düşəcək. Ekspertlər Vaşinqtonun artan iqtisadi təzyiqinin İran rəhbərliyinin siyasətini dəyişdirib-dəyişdirməyəcəyi ilə bağlı proqnoz verməkdə çətinlik çəkirlər.

Bu arada İran Prezidenti Məsud Pezeşkian Vaşinqtonun "iqtisadi boğulma" təhdidlərinə Tehranın son cavabını təqdim edərək "ABŞ yeni iqtisadi sanksiyalar paketi ilə heç nəyə nail olmayacaq", - deyə bildirib. ISNA xəbər agentliyinin məlumatına görə, Prezident deyib: "Hökumətin iqtisadi qurumları tərəfindən görülən tədbirlər sayəsində Amerika müharibədə nəticə əldə edə bilmədiyi kimi, bu mərhələdə də iqtisadi təzyiq vasitəsi ilə heç nəyə nail olmayacaq". O əlavə edib ki, "bizim prinsipimiz qarşılıqlı anlaşmaya nail olmaq və problemləri qarşılıqlı əlaqə və danışıqlar yolu ilə həll etməkdir, eyni zamanda biz iqtisadi təzyiqlərə qətiyyətlə müqavimət göstəririk və belə də davam edəcəyik". İran rəhbərliyi yeni tədbirlərin əhəmiyyətini rədd edərək, ölkənin 1979-cu il islam inqilabından qısa müddət sonra tətbiq edilən sərt sanksiyalar altında onilliklərdir yaşadığını xatırladıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Bakı Kommersiya Məhkəməsinin sədri İlham Əhmədova anası

**ŞURA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3316
Sifariş 1088

Qiyməti 60 qəpik